**V.M. MƏMMƏDZADƏ, X.İ. İSKƏNDƏROV**

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN REGİONAL ASPEKTLƏRİ

**DƏRS VƏSAİTİ**

**Bakı – 2020**

**Elmi redaktor:** **Fətəli Nəriman oğlu Abdullayev**
*Siyasi elmlər doktoru*

**Rəyçilər:** **Nurulla Arif oğlu Əliyev**
*Tarix elmləri doktoru, professor*

**Mehman Sirac oğlu Süleymanov**
*Tarix elmləri doktoru, dosent*

**Dil və üslub üzrə redaktor:** **Aytən Akif qızı Məmmədova**

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Elmi Şurasının "28" dekabr, 2019-cu il tarixli iclasında (7 №-li protokol) müzakirə olunub.

Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini – Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi rəisinin 13 yanvar, 2020-ci il tarixli, 5 №-li əmri ilə nəşr hüququ (qrif) verilib.

**Məmmədzadə, V.M.** Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri. Dərs vəsaiti / V.M.Məmmədzadə, X.İ.İskəndərov. Bakı: "UNİCOPY", – 2020. – 145 s.

"*Azərbaycan Respublikasının milli təhlükəsizliyinin regional aspektləri" dərs vəsaitində qloballaşan dünyada, xüsusilə də Azərbaycanın ictimai-siyasi həyatında olduqca aktual olan təhlükəsizlik problemləri və təhdidlər tədqiqatın predmetinin əsasını təşkil edir.*

*Dərs vəsaiti Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyiciləri, bakalavr, magistr, adyunkt, zabit və pedaqoqları üçün nəzərdə tutulmuşdur.*

# İXTİSARLARIN SİYAHISI

AAƏŞ – Avro-Atlantik Əməkdaşlıq Şurası;
ABƏŞ – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin;
ABŞ – Amerika Birləşmiş Ştatları;
Aİ – Avropa İttifaqı;
AİB – Avrasiya İqtisadi Birliyi;
AŞPA – Avropa Şurası Parlament Assambleyası;
ATƏM – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Məşvərəsi;
ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı;
BMT – Birləşmiş Millətlər Təşkilatı;
BTC – Bakı–Tbilisi–Ceyhan;
CQD – Cənub Qaz Dəhlizi;
DQ – Dağlıq Qarabağ;
İƏT – İslam Əməkdaşlıq Təşkilatı;
İGTİ – Türkiyə–Yunanıstan–İtaliya İnterkonnektor;
İT – İnformasiya Texnologiyaları;
KEİ – Kritik Enerji İnfrastrukturu;
Kİ – Kritik İnfrastruktur;
KTMT – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı;
QDM – Qətiyyətli Dəstək Missiyası;
QH – Qoşulmama Hərəkatı;
MDB – Müstəqil Dövlətlər Birliyi;
NATO – Şimali Atlantika Müqaviləsi Təşkilatı;
SNT – Sülh Naminə Tərəfdaşlıq;
SSRİ – Sovet Sosialist Respublikaları İttifaqı;
TANAP – Trans-Anadolu Qaz Boru Kəməri;
TAP – Trans-Adriatik Qaz Boru Kəməri.

## MÜNDƏRİCAT

**GİRİŞ** ... 7
**I FƏSİL Cənubi Qafqazda regional və milli təhlükəsizlik: real təhdidlər kontekstində** ... 9
1.1. Təhlükəsizlik anlayışlarının nəzəri müqayisəsi ... 9
1.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyi və onu şərtləndirən amillər ... 12
**II FƏSİL Hibrid müharibələr və Ermənistanın Azərbaycan respublikasının milli təhlükəsizliyinə qarşı hibrid təhdidləri** ... 24
2.1. Hibrid müharibələrin aparılmasını şərtləndirən amillər ... 24
2.2. Hibrid müharibənin konseptual konstruksiyası ... 29
2.3. Ermənistanın Azərbaycana qarşı hibrid təhdidləri ... 33
**III FƏSİL Cənubi Qafqazın regional təhlükəsizliyi və Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları** ... 40
3.1. Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə təhdidlər ... 40
3.2. Dağlıq Qarabağ münaqişəsinə rakurs ... 42
3.3. SSRİ-nin dağılmasından sonra bölgədə geosiyasi balans ... 46
3.4. Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazda təhlükə mənbəyi kimi 48
3.5. Sülh prosesinin taleyi ... 49
3.6. Atəşkəsin pozulması riski və onun fəsadları ... 52
**IV FƏSİL Cənubi Qafqazda böyük güclərin toqquşan geostrateji maraqlarının regional təhlükəsizliyə təsiri (siyasi təhlil)** ... 59
4.1. Regional təhlükəsizlik mühiti ... 59
4.2. Rusiyanın Cənubi Qafqaz siyasəti ... 61
4.3. ABŞ-ın Cənubi Qafqaz siyasəti ... 68
4.4. Ermənistanda dəyişən siyasi dinamikanın regiona təsiri ... 76
4.5. Məngənədən çıxış yolları ... 81
**V FƏSİL Qoşulmama Hərəkatı Azərbaycanın milli təhlükəsizlik siyasətinin prioriteti kimi** ... 85
5.1. Qoşulmama siyasəti: çağırışlar və perspektivlər ... 85
5.2. Qoşulmama siyasəti yürüdən ölkə kimi Azərbaycanın təcrübəsi ... 90
**VI FƏSİL Azərbaycanın enerji siyasəti və transregional layihələri** ... 96
6.1. Azərbaycanın enerji diplomatiyası ... 96
6.2. Rusiya hegemoniyası və Şimal marşrutu ... 106

6.3. ABŞ-ın Xəzər ambisiyası və Qərb marşrutu ....................................108
6.4. Xəzərin statusu ......................................................................................113
**VII FƏSİL Azərbaycan Respublikasının kritik enerji infrastrukturuna təhdidlər və onların təsirinin ölçülməsi**.................117
7.1. Kritik enerji infrastrukturunda mövcud vəziyyət..............................117
7.2. Kritik enerji infrastrukturuna təhdidlər və riskli bölgələrin müəyyən edilməsi.............................................................................................121
7.3. Terror hücumlarının riyazi qiymətləndirilməsi.................................136

# GİRİŞ

Tarixin bütün dövrlərində təhlükəsizliyin təminatı məsələsi hər bir dövlətin aktual və prioritet istiqamətlərindən biri olmuşdur. Milli təhlükəsizliyin təmin olunması problemi özündə dövlət hakimiyyəti strukturlarının, ictimai təşkilatların, həmçinin vətəndaşların şəxsiyyətini, cəmiyyətin və dövlətin təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərin müəyyənləşdirilməsi, aradan qaldırılması istiqamətində fəaliyyətlərini ifadə edir. Bu fəaliyyəti dövlətin milli təhlükəsizliyinin təmin olunması siyasəti müəyyənləşdirir. Milli təhlükəsizliyin təmin olunması təkcə dövlətin deyil, bütün xalqın, hər bir vətəndaşın milli maraqlarının təmin olunmasına istiqamətlənmiş fəaliyyətidir. Milli təhlükəsizlik siyasəti milli maraqların müdafiəsi sahəsində ölkə rəhbərliyi tərəfindən məqsədlərin müəyyənləşdirilməsi və onların reallaşdırılmasının metod və üsullarının işlənib hazırlanması istiqamətində aparılan fəaliyyətdir. Təsadüfi deyil ki, təhlükəsizliyin təminatçısı hər bir ölkədə dövlət və onun başçısıdır. Milli təhlükəsizlik problemini müasir dövrdə aktual edən məqamlardan biri də ondan ibarətdir ki, o özündə təkcə dövlət və cəmiyyətin təhlükəsizliyinin təmin olunmasını ifadə etmir. Eyni zamanda, cəmiyyətin səmərəli fəaliyyət göstərməsi və inkişafı birbaşa milli təhlükəsizliyin təmin olunması səviyyəsindən asılıdır. Milli təhlükəsizlik geniş, mürəkkəb və çoxsəviyyəli sistemdir. Milli təhlükəsizliyin qlobal, regional və lokal aspektləri vardır. Bu baxımdan bu dərs vəsaiti kifayət qədər ciddi problemin tədqiqinə həsr edilmişdir. Təhlükəsizlik problemi bir çox fövqəl və regional aktorların milli maraqlarının toqquşduğu geostrateji məkanda yerləşən Azərbaycan Respublikası üçün olduqca əhəmiyyətli məsələdir. 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan ilk gündən insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təşkili, beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya və s. tədbirlərin reallaşdırılmasını dövlət quruculuğunun mühüm vəzifələrindən birinə çevrilmişdir. Azər-

baycan Respublikasının dövlət müstəqilliyinə, suverenliyinə və konstitusiya quruluşuna qarşı yönəldilmiş bir çox təhdidlər Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə aradan qaldırılsa da, ölkənin tam təhlükəsizliyinin təminatı mümkün olmamışdır. Bunu şərtləndirən başlıca məqamlar, Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulması, fövqəl və regional güc mərkəzlərinin ölkəmizdə toqquşan geostrateji maraqlarının olmasından ibarətdir. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdid yaradan ən ciddi məqam Ermənistanın işğal faktorudur. Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı ilə bağlı beynəlxalq hüquq normalarının pozulması faktı ölkəmiz üçün real təhdiddir. Azərbaycan Respublikası milli təhlükəsizliyini təmin etmək üçün mümkün resurslarını səfərbər etməklə bütün istiqamətlərdə aktiv fəaliyyət göstərir. Xüsusilə beynəlxalq təşkilatlar çərçivəsində ölkənin milli maraqlarının təmin olunması məsələsi ölkə başçısı İlham Əliyev tərəfindən daim diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasının regionda və qlobal müstəvidə reallaşdırdığı layihələrin ölkənin milli maraqları ilə uzlaşdırılması mühüm məsələlərdən biri kimi nəzərdən keçirilməkdədir.

Dərs vəsaitində milli təhlükəsizliyin regional aspektlərinin mahiyyəti ətrafında təhlillər aparılmışdır. Bu zaman dövlətimizə qarşı yönəlmiş (ənənəvi və hibrid) təhdidlərə və milli maraqlara xüsusi diqqət yetirilmişdir. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin səciyyəvi xüsusiyyətlərinin, milli təhlükəsizlik siyasətinin regional aspektlərinin nəzərdən keçirilməsi də dərs vəsaitinin hazırlanmasının vacib məqsədləri sırasında olmuşdur. Dərs vəsaiti dövlətin milli təhlükəsizlik siyasəti, milli maraqlar, təhlükəsizliyimizə təhdidlər, ümumiyyətlə milli təhlükəsizliyin regional aspektləri ilə maraqlanan hər bir kəs üçün faydalı ola bilər.

# I FƏSİL

## Cənubi Qafqazda regional və milli təhlükəsizlik: real təhdidlər kontekstində

### 1.1. Təhlükəsizlik anlayışlarının nəzəri müqayisəsi

Təhlükəsizlik müasir geosiyasət üçün aktual nəzəri və praktiki məsələdir. Mütəxəssislər bu anlayışın müxtəlif məzmun çalarlarını vurğulayır, təhlükəsizliyin təhdidlər, risklər və çağırışlarla əlaqəsi barədə analizlər aparırlar. Meydana olduqca maraqlı mənzərə çıxır. Məlum olur ki, təhlükəsizliyin qlobal, regional və milli səviyyələri bir-biri ilə sıx əlaqəlidir. Bütövlükdə isə təhlükəsizliyin təməlində milli təhlükəsizlik dayanır. Milli təhlükəsizlik təmin edilmədən regional və qlobal təhlükəsizlik sisteminin yaradılmasından söhbət gedə bilməz. Odur ki, mütəxəssislər milli təhlükəsizlik probleminə xüsusi diqqət yetirirlər. Bu anlayışın müxtəlif aspektlərini əlaqədə götürdükdə, problemin sistemli xarakter daşıdığını görərik.

Təhlükəsizliklə bağlı narahatlıqlar bəşər tarixinin özü qədər qədimdir. Belə ki, yeni formalaşan istənilən dövləti təhlükə və təhdidlərdən müdafiə etmək hər zaman siyasətçiləri maraqlandıran əsas məsələlərdən biri olmuşdur. "Təhlükəsizlik" anlayışı latın dilində "securus" sözündən olub, mənası təhlükədən azad deməkdir. Tarixən siyasi quruluşların, ölkə vətəndaşlarının qorunması, ümumi təhlükəsizliyin təmin edilməsi hərbi vasitələrlə həyata keçirilmişdir. Bir çox mütəfəkkir və dövlət xadimləri müharibələri təhlükəsizliyin bəlası hesab edərək pisləsələr də, bəziləri hərbi vasitələrdən istifadəni zəruri hesab etmişdir. Qədim yunan filosofu Efesli Heraklit e.ə. VI əsrdə "Təbiət haqqında" əsərində təhlükəsizlik motivlərinə toxunaraq yazırdı ki, hər şeyin əsası müharibədir. Onun sayəsində dövlətlər möhkəmlənir və ya dağılır. Hətta yeni dövr siyasi fikrinin dahilərindən olan Nikolo Makiavelli də XVI əsrdə "Hökmdar", "Florensiya tarixi" əsərlərində yazırdı ki, dövlətin siyasi təhlükə-

sizliyini qorumaq üçün əxlaqdan deyil, gücdən istifadə etmək lazımdır. O qeyd etmişdir ki, güclü ordu kimin tərəfindədirsə, tale də hər zaman onunladır.[1] XVI–XVIII əsrlərdə yaşayıb-yaratmış bir çox alimlər, məsələn, Erazm Rotterdamlı, Hüqo Hrotsiy, Mişel Montern, Paskal Blez, Şarl Lui dö Monteskyö və Jan Jak Russo öz əsərlərində hərbi toqquşmaların dövlət və cəmiyyət üçün məhvedici əlamət olması barədə yazsalar da, dövlətin, cəmiyyətin təhlükəsizliyi naminə aparılan müharibələri ədalətli hesab etdiklərini bildirmişlər. ABŞ dövlət xadimi Con Adams ən yaxın məsləhətçisi və həyat yoldaşı Abiagil Adamsa 1780-ci ildə yazdığı məktubda qeyd etmişdir: *"Mən siyasət və müharibəni dərindən öyrənməliyəm ki, övladlarım riyaziyyat və fəlsəfəni azad öyrənə bilsinlər"*. XIX əsrdə alman filosofu Fridrix Nitsşe "Zərdüşt belə demişdir", "Hakimiyyət iradəsi" əsərlərində müharibənin dövlət üçün vacib olduğunu vurğulamışdır.

Beləliklə, tarixboyu təhlükəsizliyə qarşı təhdidlər, əsasən, hərbi xarakter daşıdığından, "təhlükəsizliyin təmin olunması" dedikdə də hərbi gücün istifadəsi nəzərdə tutulurdu. Lakin bu gün təhdidlər xarakterinə görə dəyişkən olduğundan təhlükəsizliyin birbaşa təmin edilməsində hərbi vasitələrlə yanaşı, siyasi vasitələrdən də istifadə edilir. Təhlükəsizlik tədbirlərinin görülməsi o zaman zəruri olur ki, vətəndaşların hüquq və azadlıqlarını məhdudlaşdıran, dövləti zəiflədən, xaos, konflikt törədə bilən sosial hadisə və proseslər baş vermiş olsun. Başqa sözlə desək, təhlükəsizlik sistemi o zaman mövcud olur ki, cəmiyyətin qabaqcıl sosial qüvvələrinin maraqları düzgün müəyyənləşdirilsin və onların balansına nail olunsun. Beləliklə, milli təhlükəsizlik nəzəriyyəsi siyasi elmin bir kateqoriyası olmaqla, cəmiyyət və dövlətin ümumilikdə inkişaf tendensiyalarını qiymətləndirən ümumiləşdirici fenomen kimi çıxış edir. Sözün geniş mənasında o, özündə ölkənin elə bir vəziyyətini xarakterizə edir ki,

[1] Разуваев В.В. Комментарии к «Государю» Макиавелли. / В.В. Разуваев. – М.: СПб: Центр гуманитарных инициатив, – 2014. – 528 с.

burada həmin ölkə öz ərazi bütövlüyünü, milli dövlətçiliyini saxlayaraq iqtisadi, sosial, siyasi, ekoloji, mədəni və digər sahələrdə qarşıya çıxan problemləri vətəndaşları ilə balanslaşdırılmış maraqlar əsasında həll edərək beynəlxalq münasibətlərin müstəqil subyekti kimi çıxış etmiş olsun.

"Milli təhlükəsizlik" anlayışı Qərbdə qəbul olunmuş "national security" ifadəsindən götürülmüşdür və milli maraqların təmin olunmasına yönəlmiş strategiya kimi başa düşülür. Dövlət tərəfindən həyata keçirilən iqtisadi, siyasi, hüquqi tədbirlər sistemi, eyni zamanda çevik daxili və xarici siyasət milli təhlükəsizliyin əsasını təşkil edir. Milli təhlükəsizliyin kökündə siyasi sabitlik dayanır. "Sabitlik olmayan yerdə isə vətəndaş da, dövlət də öz xarici və daxili siyasətində çətinliklərlə üzləşir. Xarici siyasətdəki sabitlik daxildəki sabitliyə müsbət təsir göstərir. Daxili sabitlik dövlət-cəmiyyət dəyərlərinin, məqsəd və maraqlarının ideoloji-əxlaqi vəhdəti sayəsində əldə edilir".[2]

"Milli təhlükəsizlik" anlayışı və "təhlükəsizlik təhdidləri" termini ilk dəfə ABŞ alimlərinə məxsus geosiyasi ədəbiyyatda istifadə olunmuşdur. Sonrakı illərdə "milli təhlükəsizlik" termini dünya geosiyasət elmində bir çox dəyişikliklərə uğramışdır. Bu istiqamətdə ilk praktiki addım ABŞ Konqresi tərəfindən "Milli təhlükəsizlik haqqında" qanunun qəbul edilməsi və Prezident Harri Trumenin 1947-ci il 26 iyul 253 nömrəli qərarı ilə qanun layihəsini imzalaması olmuşdur.[3] Həmin qanuna əsasən, prezidentə daxili, xarici və hərbi aspektlərə dair məsələlər üzrə məsləhətlər verən Milli Təhlükəsizlik Şurası yaradılmışdır. Onun daimi üzvləri sırasına Vitse-prezident, Dövlət katibi, Müdafiə naziri, Qərargah rəisi və Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru daxil edilmişdir. Vacib məsələlərin muzakirə-

---

[2] Vahid Ömərov, İnsan hüquq və azadlıqlarının müdafiəsi və milli təhlükəsizlik // Səs, – 5 sentyabr 2015. – s.15.

[3] Həsənov, Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. / Ə.M.Həsənov. – Bakı: Letterpress nəşriyyat evi, – 2011. – 440 s.

sində başqa idarə rəhbərləri də dəvət oluna bilərdi. Milli Təhlükəsizlik Şurasından sonra, 1952-ci ildə Prezident Trumenin məxfi direktivi əsasında Milli Təhlükəsizlik Agentliyi də yaradılmışdır. Müdafiə Nazirliyinə daxil olan, lakin öz fəaliyyətində müstəqil olan bu orqan mülki və hərbi əlaqənin təmin edilməsi ilə məşğul olur. Beləliklə, "milli təhlükəsizlik" anlayışı başlanğıcda hərbi təsir imkanlarını nəzərdə tutsa da, indi cəmiyyətin milli dəyərlərinə, xalqın qeyri-hərbi və iqtisadi təhlükəsizliyinə bilavasitə təsir edən bir çox sahələri əhatə edir. ABŞ alimi Henri Kissencerin fikrincə, milli təhlükəsizlik millətin həyat tələbatının ödənilməsidir.

## 1.2. Azərbaycan Respublikasının milli təhlükəsizliyi və onu şərtləndirən amillər

Təhlükəsizliyin təhlükə və təhdidlər kontekstində şərhi günümüzün aktual problemlərindəndir. Bu, regional və qlobal təhlükəsizliyin təmini məsələsində mühüm məqamı təşkil edir. Çünki milli təhlükəsizlik konkret ölkə səviyyəsində məzmun kəsb edən anlayışdır. Regional və qlobal təhlükəsizlik onsuz mümkün deyildir. Ayrıca götürülmüş ölkələrin təhlükəsizliyi təmin edilmirsə, regional və qlobal miqyasda təhlükəsizlikdən danışmağın mənası yoxdur. Xüsusilə qeyri-müəyyənliklə müşayiət olunan müasir dünyamızda milli-regional-qlobal təhlükəsizlik bir-biri ilə sıx bağlıdır, onların biri digərini tamamlayır. Bu "zəncirvari əlaqə" pozulanda real olaraq heç bir səviyyədə təhlükəsizliyi təmin etmək mümkün olmur.

Milli təhlükəsizlik hökumətin siyasi, diplomatik, iqtisadi, hərbi və digər təsir vasitələrindən istifadə edərək öz vətəndaşlarının müdafiəsini nəzərdə tutur, milli müstəqilliklə başlayır və milli maraqlara söykənir. Hər bir dövlətin milli təhlükəsizliyi onun uzunmüddətli milli maraqları üzərində qurulur. Başqa sözlə, milli təhlükəsizlik milli maraqların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və

məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla, aşağıdakılardır:

– dövlətin müstəqilliyi və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;

– xalqın vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;

– vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;

– demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmin edilməsi ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;

– beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi;

– bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;

– təbii sərvətlərdən səmərəli istifadə edilməsi, davamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, təhsil, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;

– dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluq və həmrəyliyin möhkəmləndirilməsi;

– Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləş-

dirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi.[4]

Beləliklə, milli təhlükəsizliyə nail olmaq üçün istənilən ölkəyə iqtisadi, sosial və enerji təhlükəsizliyi lazımdır. "Milli təhlükəsizliyin təmin olunması" dedikdə, ölkənin suverenliyi, daxili və xarici təhlükələrin neytrallaşdırılması fonunda ərazisinin bölünməzliyi, hərbi-siyasi təhlükəsizlikdən informasiya təhlükəsizliyinə kimi müxtəlifxarakterli təhdidlərin dəf edilməsi nəzərdə tutulur. Bütün bunlar ölkənin daxili və xarici təhlükəsizlik siyasəti ilə sıx bağlıdır.

Milli təhlükəsizliyi təmin edən tədbirlər aşağıdakılardır:

– diplomatiyadan istifadə edərək tərəfdaşlar qazanmaq və təhlükələri təcrid etmək;

– əməkdaşlığı asanlaşdırmaq, hətta zəruri etmək üçün iqtisadi potensialı artırmaq;

– effektiv Silahlı Qüvvələr yaratmaq;

– mülki müdafiə və fövqəladə hallara hazırlıq tədbirlərini (terror əleyhinə qanunvericilik daxil olmaqla) həyata keçirmək;

– mühüm infrastrukturların mühafizəsini təmin etmək;

– kəşfiyyat orqanlarından istifadə edərək təxribat təhlükəsinin qarşısını vaxtında almaq və informasiyanı gizli saxlamaq;

– əks-kəşfiyyat və polis orqanlarından istifadə etməklə əhalini daxili təhlükələrdən qorumaq.

Azərbaycan Respublikasının milli təhlükəsizliyi dedikdə, onun müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, konstitusiya quruluşu, xalqın və ölkənin milli maraqları, insan, cəmiyyət və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunması başa düşülür. Milli təhlükəsizliyin obyektləri insan, cəmiyyət və dövlətdir. Milli təhlükəsizliyin subyektləri isə insanların, cəmiyyətin və

---

[4] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası, – Bakı: VES Consultancy LLC, – 2007. – 25 s.

dövlətin təhlükəsizlik maraqları və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanlarıdır.

Beləliklə, milli təhlükəsizlik üç əsas səviyyədən ibarətdir:

1. Şəxsiyyətin təhlükəsizliyi.
2. Cəmiyyətin təhlükəsizliyi.
3. Dövlətin təhlükəsizliyi.[5]

XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpası, Azərbaycana öz milli təhlükəsizliyinin qayğısına qalmaq kimi daimi bir məsuliyyəti də gətirdi. Dövlət müstəqilliyinə 1991-ci ildə nail olunsa da, 1993-cü ilə qədər hakimiyyətdə olan qüvvələrin heç biri dövlət və cəmiyyətin milli təhlükəsizliyini layiqincə təmin edə bilmədi. Yalnız Ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda dövlətin və vətəndaşların təhlükəsizliyinin bütün xarici və daxili təhdidlərdən etibarlı şəkildə müdafiəsinə xidmət edən effektiv milli təhlükəsizlik siyasəti həyata keçirilməyə başlandı.

2004-cü ildə "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Burada ilk dəfə qanunvericilik səviyyəsində şəxsiyyət, cəmiyyət və dövlət təhlükəsizliyinin təmin olunmasının hüquqi əsasları təsbit edilmiş, təhlükəsizlik sistemi və onun funksiyaları müəyyənləşdirilmişdir. Bu qanun özündə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin milli təhlükəsizlik siyasətinin əsas prinsiplərini, məqsəd və vəzifələrini əks etdirir. Nəhayət, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə ölkənin milli təhlükəsizlik siyasətinin həyata keçirilməsində uzunmüddətli strateji vəzifə və prioritetləri özündə əks etdirən milli maraqları özündə ehtiva edən milli təhlükəsizlik konsepsiyası təsdiq olunmuşdur. Azərbaycan Respublikasının Kons-

---

[5] Həsənov, Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti / Ə.M.Həsənov. – Bakı: Letterpress nəşriyyat evi, – 2011. – 440 s.

titusiyası və qanunları əsasında milli təhlükəsizliyi təmin edən orqanlar qarşısında aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

– milli təhlükəsizliyə qarşı yönəlmiş təhdidlərin vaxtında aşkar edilməsi və dəyərləndirilməsi;

– təhdidlərin qarşısının alınması üçün zəruri tədbirlərin həyata keçirilməsi;

– milli təhlükəsizliyi təmin edən qüvvə və vasitələrin formalaşdırılması və onların daimi hazırlığının təmin edilməsi;

– təhdid yarandığı təqdirdə bütün qüvvə və vasitələrin səfərbər edilməsi və müvafiq əks-tədbirlərin həyata keçirilməsi;

– beynəlxalq öhdəliklərə uyğun olaraq Azərbaycan Respublikasının ümumi və regional təhlükəsizliyin təmin edilməsində iştirakı.

Hər bir dövlətin özünün milli təhlükəsizlik siyasəti vardır. Milli təhlükəsizlik siyasətinin mövcud və gələcək təhlükələrin qarşısının alınması üçün perspektiv imkanları olmalıdır. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti mövcud təhlükəsizlik mühitində təhdidlərin qarşısının alınması və aradan qaldırılmasını, habelə daxili və xarici siyasət vasitələrindən istifadə etməklə və müdafiə qabiliyyətini gücləndirməklə ölkənin milli maraqlarının təmin edilməsini nəzərdə tutur.

Professor Əli Həsənov Azərbaycanın milli təhlükəsizlik siyasətinin üç əsas məqsədini qeyd etmişdir:

1. Dövlət müstəqilliyi, ərazi bütövlüyü, konstitusiya quruluşu, vətəndaş hüquqları və onların təminatı yolları, mövcud milli ehtiyatların bu işə səfərbər edilməsi proqramı və bəhs olunan sahədə məsuliyyətli dövlət idarəçiliyinin yaradılması.

2. Xaricdən müdaxilə olmadan ölkənin strateji inkişaf yolunun seçilməsi, konstitusiya quruluşunun, daxili həyatın, cəmiyyətin və hər bir vətəndaşın təhlükəsizliyinin, əhalinin firavan həyatının təmin edilməsi, milli-vətəndaş birliyinin və ictimai-siyasi sabitliyin qorunması.

3. Milli təhlükəsizlik konsepsiyasından irəli gələn məsələlərin həll edilməsi.[6]

Milli təhlükəsizlik siyasəti, həmçinin beynəlxalq terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni miqrasiya, insan alveri, narkotiklərin nəqli və kütləvi qırğın silahlarının yayılması daxil olmaqla xarici və daxili siyasətə olan təhdidlərin çoxölçülü xarakterini nəzərə alır.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında bu siyasətin əsas istiqamətləri aşağıdakı kimi öz əksini tapmışdır:

Təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi:

– Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması;
– Avro-Atlantik strukturlara inteqrasiya;
– beynəlxalq təhlükəsizliyə töhfə;
– beynəlxalq təşkilatlarla əməkdaşlıq;
– regional əməkdaşlıq və ikitərəfli münasibətlər;
– region ölkələri ilə əməkdaşlıq;
– qeyri-region ölkələri ilə əməkdaşlıq;
– müdafiə qabiliyyətinin möhkəmləndirilməsi.

Təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi:

– demokratiyanın möhkəmləndirilməsi;
– milli və dini tolerantlıq mühitinin qorunması;
– elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması;
– iqtisadi və sosial inkişaf;
– daxili təhlükəsizliyin möhkəmləndirilməsi;
– sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi;
– miqrasiya siyasəti;
– enerji təhlükəsizliyi siyasəti;
– nəqliyyat təhlükəsizliyi siyasəti;

---

[6] Həsənov, Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti / Ə.M.Həsənov. – Bakı: Letterpress nəşriyyat evi, – 2011. – 440 s.

– fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi;

– informasiya təhlükəsizliyi siyasəti.[7]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət siyasətini formalaşdırarkən Ulu öndər Heydər Əliyevin təhlükəsizliklə bağlı zəngin irsini, bir çox siyasi, iqtisadi, ideoloji, coğrafi, mədəni amilləri, daxili siyasi maraqları, müxtəlif sosial-siyasi qüvvələrin manevrlərini və beynəlxalq aləmin mümkün reaksiyalarını rəhbər tutmuşdur.

Hüquqi, demokratik dövlətin yaradılması, iqtisadiyyatın və sənayenin inkişaf etdirilməsi, qlobal layihələrin, daxili və xarici siyasətin uğurla həyata keçirilməsi istiqamətində Azərbaycan Respublikasının atdığı addımlar milli maraqların qorunması kimi mühüm strateji xətti də təmin edir.

Milli təhlükəsizlik orqanları tərəfindən xüsusilə diqqət yetirilməsi tələb olunan təhlükə, təhdid və risk faktorları aşağıdakılardır:

– ənənəvi hərbi təhdidlər;
– gizli hərbi və kəşfiyyat xarakterli (təxribat) təhdidlər;
– regional və qlobal qeyri-sabitlik;
– terrorizm, ekstremizm, radikalizm;
– dezinformasiya;
– kiber təhdidlər;
– iqtisadi asılılıq;
– nüvə silahı;
– demoqrafik böhran;
– mütəşəkkil cinayətkarlıq;
– milli və beynəlxalq səviyyədə fövqəladə vəziyyət.[8]

---

[6] Həsənov, Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti / Ə.M.Həsənov. – Bakı: Letterpress nəşriyyat evi, – 2011. – 440 s.

[8] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası, – Bakı: VES Consultancy LLC, – 2007. – 25 s.

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft və qaz yataqları, boru kəmərləri və terminallarına olan təhdidlərin aşkar edilməsi, qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi ölkəmizin milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindəndir. Ölkəmizdə zəngin enerji ehtiyatlarının olması və əlverişli geostrateji mövqeyimiz iqtisadiyyatın əsaslı və sürətli inkişafına müsbət təsir göstərməklə yanaşı, həm də müxtəlif dövlətlərin regiondakı maraqlarını şərtləndirən və münasibətlərin gərginləşməsinə səbəb olan amillərdəndir. Daha konkret desək, bəzi dövlətlərin eyni xüsusiyyətlərə malik məsələlərdə sahib olduqları güc və mövqedən ədalətsiz şəkildə istifadə etmələri müşahidə olunur. 30 ilə yaxındır ki, Azərbaycan torpaqlarının təxminən 20 faizini işğal etmiş Ermənistana qarşı heç bir iqtisadi, siyasi və hərbi sanksiyanın tətbiq edilməməsi bu yanaşmanın bariz sübutudur. Əks halda, Ermənistan Respublikası BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ problemi ilə bağlı qəbul etdiyi dörd qətnaməni, ATƏT-in təhlükəsizlik prinsiplərini saymazdan gələrək, beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozmazdı. Beləliklə, Azərbaycan Respublikasının, eləcə də bütövlükdə Cənubi Qafqaz regionunun təhlükəsizliyi üçün real təhlükə mənbəyi mövcuddur və daha pisi odur ki, bu təhlükə kənardan idarə edilir. Ona görə də Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətində bütün mümkün faktorlar nəzərə alınmalıdır.

2007-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda göstərilir ki, Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarətdir.[9]

---

[9] Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası, – Bakı: VES Consultancy LLC, – 2007. – 25 s.

Milli təhlükəsizlik siyasəti və ölkənin milli maraqları vəhdət təşkil etdiyindən onları bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Milli maraqlar dedikdə, həm konstitusion dəyərlər, həm də ölkənin inkişaf prioritetləri başa düşülür. Milli maraqlar milli təhlükəsizliyin aktuallığını təmin edən başlıca amildir. Bu baxımdan hər hansı bir ölkənin milli təhlükəsizliyinə olan təhdidlər, həm də milli maraqlara olan təhdidlər kimi qəbul edilməlidir. Milli təhlükəsizliyə olan təhdidlərin müəyyən olunması milli dəyərlər haqqında dəqiq təsəvvürlərə əsaslanmalıdır. Milli maraqların əsasları isə milli dəyərlərdə ifadə olunur. Bu mənada strateji planda əsas diqqət milli təhlükəsizliyə təhdidlərin aradan qaldırılması məsələsinə deyil, milli dəyərlərin reallaşdırılmasına yönəldilməlidir. Bu isə milli təhlükə-sizliyə təhdidlərin neytrallaşması deməkdir. Beləliklə, bu kontekstdə milli maraqları dövlətin, cəmiyyətin və şəxsiyyətin maraqlarının uzlaşdırılması kimi nəzərdən keçirmək mümkündür. Eyni zamanda, milli maraqlar milli təhlükəsizliyin vəzifələrini və xarakterini müəyyənləşdirir.

Hər bir ölkə özü milli maraqların məzmununu müəyyənləşdirir və bu istiqamətdə hər hansı bir məhdudiyyət nəzərdə tutulmur. Həmçinin milli maraqlar güc faktoru ilə də birbaşa bağlı olur. Milli maraqların digər dövlətlər tərəfindən məhdudlaşdırılması həmin dövlətlərin malik olduğu gücün hesabına baş verir. Bu baxımdan özünün milli maraqlarını formalaşdıran ölkə (regional və qlobal səviyyədə) həm də onun qorunması və təmin olunması problemini nəzarətdə saxlamalıdır. Milli maraqlara əsaslanan xarici siyasətin arxasında hərbi gücün dayanması dövlətin siyasətini daha produktiv edir. Dövlətlərarası münasibətlərdə güc amili bir növ milli maraqlarla milli təhlükəsizliyi birləşdirən amildir.

Milli maraqlar yalnız milli hüdudlarla məhdudlaşmır, məkan baxımından daha geniş ərazini əhatə edir. Milli maraqların təmin olunması üçün ölkənin beynəlxalq statusu, potensialı, regional və qlobal səviyyədə fəaliyyəti əhəmiyyət kəsb edir.

Milli təhlükəsizlik haqqında qanununun 19-cu maddəsində Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinin təmin olunması məqsədilə görülən əsas tədbirlərdən biri kimi, xarici ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz regionunda NATO və KTMT kimi təşkilatların maraqları vardır. NATO-ya üzv olmaq yaxın perspektivdə Azərbaycan üçün strateji hədəf hesab edilmir. KTMT-yə daxil olmaq isə onun şərtləri və təminatları (əslində təminatsızlığı) çərçivəsində Azərbaycanın mənafelərinə uyğun deyildir. Ona görə də xarici təsir və təzyiqlərdən qorunmaq, öz milli təhlükəsizliyini və suveren hüquqlarını təmin etmək üçün beynəlxalq təminatın qazanılması vəzifəsi Azərbaycanın xarici siyasət prioritetlərindən birinə çevrilmişdir.

Müasir mürəkkəb və ziddiyyətli beynəlxalq münasibətlər sistemində NATO beynəlxalq sülh və təhlükəsizliyin qorunmasında əhəmiyyətli rol oynayır, Avro-Atlantik məkanda yerləşən üzv dövlətlərin təhlükəsizliyini təmin etməklə yanaşı, tərəfdaş ölkələrlə də əlaqələri genişləndirir. Mütəmadi olaraq qəbul etdiyi müxtəlif strateji konsepsiya və sənədlər NATO-nun bu sahədə aktiv fəaliyyətinin bariz nümunəsidir. 1949-cu il aprelin 4-də yaradılan Alyans, əsasən, Sovet İttifaqı tərəfindən Qərbi Avropa dövlətlərinə edilə biləcək mümkün hərbi müdaxilənin qarşısının alınması üçün kollektiv müdafiəni təmin etmək məqsədini güdürdü. Lakin Sovet İmperiyasının süqutundan sonra da Alyans mövcudluğunu qoruyub saxlaya bilmiş, üzərinə yeni və fundamental vəzifələr götürmüş, yeni üzvlər qəbul edərək Şərqi Avropaya açılmış, Mərkəzi Asiya və Uzaq Şərqədək uzanan tərəfdaşlıq şəbəkəsi yaratmış və beləliklə, əvvəlkindən daha güclü bir struktur formasına çevrilmişdir. Bu gün Alyans coğrafi hüdudları aşmış, qlobal təhlükəsizliyin təmin olunması və tənzimlənməsində danılmaz rola malik bir qurumdur.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin prioritetlərindən biri də NATO standartlarına uyğun milli müdafiə sisteminin qurulmasıdır. Bu gün təhlükəsizlik və müdafiə sahəsində islahatların aparılmasını dəstəkləyən və daha əsaslı əlaqələri inkişaf etdirən tərəfdaşlıq proqramları vasitəsilə NATO ölkələri və Azərbaycan Respublikasının təhlükəsizlik maraqları nəzərə alınmaqla yüksəksəviyyəli əməkdaşlıq aparılır. Lakin Qafqazın "sərt geosiyasi iqlimi" Azərbaycanın NATO-ya daxil olmasını mümkünsüz edir. Azərbaycanın Alyansa üzv olmasında maraqlı olmayan ölkələrin mövcudluğu ilə yanaşı, digər bir maneə də Dağlıq Qarabağ münaqişəsinin hələ də öz həllini tapmamasıdır. Alyansın nizamnaməsində deyilir ki, "digər ölkələrə ərazi iddiaları olan və ya digər ölkələr tərəfindən ərazi iddialarının obyekti olan ölkələr təşkilata qəbul edilə bilməz". Bütün bunlara baxmayaraq, Azərbaycanın NATO ölkələri ilə siyasi, hərbi, mədəni, humanitar əlaqələrinin inkişafı üçün geniş imkanlar vardır.

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək deyə bilərik ki, bu gün Azərbaycan Respublikası beynəlxalq arenada mövqeyini kifayət qədər möhkəmləndirmişdir və milli maraqlarına qarşı yönələn təhdidlərə adekvat cavab vermək iqtidarındadır. Ölkəmizin milli təhlükəsizliyini təmin edən sektorun daha da gücləndirilməsi və səmərəli fəaliyyətinin təşkil edilməsi üçün zəruri tədbirlərin görülməsi istiqamətində əhəmiyyətli addımlar atılmış və atılmaqdadır. Dövlətimizin başçısı təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktiki fəaliyyət göstərən orqan və qurumların, xüsusən də ölkəmizin hərbi təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi istiqamətində səmərəli və məqsədyönlü işlər aparır. Güclü iqtisadiyyat və qüdrətli ordunun yaradılması formulu müasir və peşəkar ordumuzun təşəkkülündə önəmli rol oynayır. Ölkəmizin günü-gündən artan iqtisadi gücü milli təhlükəsizliyimizin sütununu və siyasi arenada təsir imkanlarımızın əsasını təşkil edir. Azərbaycan neft və qaz istehsalı sahəsində dünyanın lider ölkələri sırasındadır. Bu da

ölkəmizi beynəlxalq oyunçu və təşkilatların diqqət mərkəzində saxlayır. Azərbaycan Respublikası qlobal və regional güclərlə əlaqələrini milli maraqlar üzərində qurulmuş konsepsiya əsasında sistemli xarici siyasət kursu səviyyəsinə çatdırmışdır. Çoxvektorlu xarici siyasət konsepsiyası kifayət qədər geniş manevr imkanları yaratmaqla, istənilən təhlükəsizlik mühitində ölkəmizin qarşılaşdığı təhdidlərə adekvat cavab verməsinə imkan yaradır. NATO ilə yaxından əlaqələr qurmaq və onun bütün tədbirlərində iştirak etmək də bu prinsipdən irəli gəlir. Azərbaycan Respublikasının təxminən son 70 ilin ən güclü və effektiv hərbi-siyasi təşkilatı olan NATO-nun standartlarını qəbul etməsi və qloballaşan dünyaya adaptasiyası – onun müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, sərhədlərinin toxunulmazlığının təmin edilməsi, müdafiə və hərbi potensialının gücləndirilməsi, Silahlı Qüvvələrin modernləşdirilməsi kimi milli maraqlarının təminatı üçün əlverişli şərait yaratmaqdadır.

# II FƏSİL

## Hibrid müharibələr və Ermənistanın Azərbaycan respublikasının milli təhlükəsizliyinə qarşı hibrid təhdidləri

### 2.1. Hibrid müharibələrin aparılmasını şərtləndirən amillər

Sülh hər bir cəmiyyətin, ümumiyyətlə bəşəriyyətin arzu etdiyi və ehtiyac duyduğu dəyərlərdəndir, lakin münaqişələr beynəlxalq sistemin ayrılmaz hissəsidir və əsasən, müharibə ilə nəticələnir.

Müharibənin xarakteri kinetik və qeyri-kinetik vəziyyətin, ənənəvi və qeyri-ənənəvi üsulların kombinasiyasından ibarət olub, nisbi xarakter daşıyır. XXI əsrin müharibəsi sadəcə hərbi mübarizə deyil. Bura bütün vasitələr daxildir və hibrid təhdidləri əhatə edən müharibə kimi xarakterizə olunur. Bu zaman heç bir etik, psixoloji və mənəvi-siyasi sərhəd gözlənilmir. Savaşın bütün üsulları normal qəbul edilir, rəqibi məğlub etmək üçün əvvəllər müşahidə edilməyən vasitələrə əl atılır.[10] “Hibrid müharibə” konsepsiyası kifayət qədər yeni olsa da, xüsusiyyətlərinə görə yeni fenomen hesab olunmur. Bu tip müharibələrin aparılma vasitələri dəyişsə də, siyasi məqsədlərə çatmaq üçün ənənəvi və qeyri-ənənəvi metodların birgə tətbiqinə söykənən əsas prinsip köhnə münaqişə formalarının prinsipləri ilə, demək olar ki, eynidir.

Son onilliklər ərzində müasir dünya xaraktercə çox mürəkkəb olan təhlükəsizlik təhdidləri ilə üz-üzə qalmışdır. Qarşılaşdığımız təhlükəsizlik mühiti bir sıra çağırışlarla xarakterizə olunur. Bəzi aktorlar eyni anda bir neçə təhdid yaratma imkanına malikdir. Qlobal təhlükəsizlik mühitində hibrid təhdidlər zaman keçdikcə ənənəvi təhdidləri əvəz edir. Hərtərəfli yanaşma tətbiq etmək üçün həmin təhdidlər təfsilatlı təhlil olunmalı və onların qarşısını almaq üçün

---

[10] Hibrid müharibələr: XXI əsrin əsas təhlükələri: [Elektron resurs] / – 11 avqust 2016. URL: http://newtimes.az/az/cyberspace/4746

koordinasiyalı əməliyyatlar həyata keçirilməlidir. ABŞ-ın keçmiş Müdafiə naziri Robert Qeytsin qeyd etdiyi kimi, *"Müharibənin kateqoriyaları getdikcə qarışır və müəyyən bir çərçivəyə uyğunlaşmır. Bunlar, ən son texnologiyalardan tutmuş sadə vasitələrə qədər müxtəlif vasitə və taktikaların istifadə edildiyi daha kompleks müharibə formalarıdır".* Tarixən 1-ci nəsildən 5-ci nəslə qədər müharibələri tədqiq etmək üçün müxtəlif çərçivələrdən istifadə olunmuşdur. Hazırda internet şəbəkələrindən qırıcıların tətbiqinə qədər 5-ci nəsil müharibələrinin şahidiyik. Bu müharibələrdə sərt və yumşaq güclərin kombinasiyası tətbiq edilir, xaosyaratma və şok doktrinalarının istifadəsi ilə daha da ciddi xarakter alır. ABŞ və Rusiya kimi güc mərkəzlərinin, habelə NATO-nun konseptual və doktrinal sənədlərində "hibrid müharibə" əsas təhdidlərdən biri kimi göstərilmişdir.

Cəlb olunan aktorların niyyətindən və təhdidlərin intensivlik dərəcəsindən asılı olaraq aşağıda qeyd edilən terminləri bir-birindən fərqləndirmək zəruridir:

– Hibrid təhdid. Bu fenomen müxtəlif elementlərin qarşılıqlı əlaqəsi və ya bir arada birləşməsi ilə ortaya çıxan daha mürəkkəb təhdidlər kompleksidir;

– Hibrid münaqişə. Bu zaman, tərəflər bir-birinə açıq-aşkar hərbi güc tətbiq etməkdən çəkinir, öz məqsədlərinə çatmaq üçün hərbi hədələrdən, diplomatik və texnoloji vasitələrdən, eləcə də düşmənin iqtisadi və siyasi cəhətdən zəif nöqtələrindən istifadə etməyə çalışırlar;

– Hibrid müharibə. Bu halda, hər hansı bir ölkə digər ölkə və ya qeyri-dövlət aktoruna qarşı iqtisadi, siyasi və diplomatik vasitələrlə yanaşı, açıq-aşkar silahlı qüvvələrin gücündən istifadə edir.

Beləliklə, hibrid müharibə nizamlı və nizamsız qüvvə elementlərinin strateji, əməliyyat və taktiki səviyyələrdə əməkdaşlığı və koordinasiyası ilə həyata keçirilən silahlı münaqişədir. Hibrid müharibəyə bir çox alimlər tərəfindən tərif verilmiş, lakin ən asan

anlaşılanı Frank Hoffman tərəfindən təklif edilmişdir: "Hibrid müharibə siyasi məqsədlərə nail olmaq üçün ənənəvi və qeyri-ənənəvi taktikaların, terror və cinayət xarakterli fəaliyyətlərin eyni vaxtda və döyüş məkanında tətbiqidir".

Tarixə nəzər salsaq görərik ki, hibrid müharibənin bir sıra xüsusiyyətləri müxtəlif hərbi münaqişələrdə müşahidə edilmişdir. Hibrid texnika və yanaşmaların taktiki, əməliyyat və strateji səviyyələrdə tətbiqinə dair nümunələrə qədim dövr Peloponnes müharibəsində, eləcə də yeni dövr Napoleonun apardığı, ən yeni dövr Hindistan−Pakistan (1971), Gürcüstan−Rusiya (2008) müharibələrində, Krım münaqişəsində (2014), hətta Çin strateqi və filosofu Sun Tzunun yazılarında rast gəlmək mümkündür. İspaniyada 1930-cu il vətəndaş müharibəsində Benito Mussolini "balaca qara köynəkli adamları" Fransisko Frankonun tərəfindən döyüşə göndərmişdi. Həmin adamlar könüllü olaraq seçilmişdi və heç bir fərqləndirici nişanları yox idi. Almaniya 1938-ci ildə Çexoslovakiyada hökumətə qarşı təxribat törədən alman etnik qrupunu dəstəkləmiş və hakimiyyəti sərt reaksiya göstərməyə məcbur etmişdi. Həmin reaksiya alman etnik qrupunu təqibdən xilas etmək üçün əsas səbəb olmalı idi. Bu baxımdan, Adolf Hitler 1938-ci il konqresdə çıxışı zamanı qeyd etmişdir: *"Mən demirəm ki, Almaniyada yaşayan 3.5 mln. fransızı sıxışdıraq və ya 3.5 mln. ingilisə mərhəmət göstərək. Sadəcə 3.5 mln. almanın zülmdən azad olunması və öz müqəddəratlarını müəyyənetmə hüququ qazanmasını istəyirəm"*. 1990-cı ildə Moldova, Gürcüstan və Azərbaycanda da hibrid müharibənin bir sıra elementləri müşahidə edilmişdi. Lakin "hibrid müharibə" termini ilk dəfə 2005-ci ildə istifadə olunmuşdur. Daha sonra, 2006-cı il Livan müharibəsində Hizbullah terror təşkilatı tərəfindən tətbiq olunan strategiya hibrid müharibə kimi xarakterizə edilmişdir. Həmin vaxtdan sonra, "hibrid" termini müasir və gələcək müharibələrlə bağlı bütün müzakirələrin əsasını təşkil etməyə başlamışdır. Hibrid müharibələrdə kinetik təhdidlərin kökləri, əsasən,

qonşu dövlətlərə, regional və qlobal güclərə gedib çıxır. Qeyri-dövlət aktorları, düşmən orqan və təşkilatlar da daxil olmaqla, digər faktorlar da təhdid yaradır.

2007-ci il Estoniyada “Qırmızı ordu əsgəri” heykəlinin yerinin dəyişdirilməsi Rusiya ilə Estoniya arasında qarşıdurmaya gətirib çıxardı. Bu qarşıdurma Tallində ikigünlük üsyan, Moskvada Estoniya səfirliyinin mühasirəyə alınması və Estoniya təşkilatlarına kiber hücumların həyata keçirilməsi ilə nəticələndi. Bu hadisələr hibrid təhdidin bariz nümunələri idi, lakin Estoniya hökuməti həmin təhdidlərin qarşısını vaxtında ala bildi. 2008-ci il Gürcüstanın Cənubi Osetiya və Abxaziya regionlarında da hibrid müharibə elementləri özünü büruzə vermişdir. Həmin hadisələrdən on ildən artıq vaxt keçmişdir. Müasir hibrid müharibələr daha kompleks xarakter daşıyır. Bu mənada, dahi strateq Klauzeviç qeyd etmişdir: *“Hər dövrün öz müharibə növü, ona özünəməxsus maneolma şərtləri və yanaşma tərzi vardır”*. Praktiki olaraq, müəyyən bir forma və çərçivəyə uyğunlaşmayan istənilən təhdid, hibrid təhdid kimi xarakterizə edilə bilər. Məşhur hərbi strateq Kolin Qreyin qeyd etdiyi kimi, *“Müasir, eyni zamanda gələcək müharibələr, əsasən, hibrid xarakter daşıyacaq”*. Bu, ondan irəli gəlir ki, ənənəvi müharibələrin xərcinin öhdəsindən gəlmək çətindir, eyni zamanda ənənəvi müharibələrdə fiziki cəhətdən güclü mövqe qurmadan siyasi məqsədlərə çatmaq mümkün deyil. Hibrid təhdidlərin özünü göstərdiyi müasir münaqişələrə 2008-ci il rus-gürcü müharibəsini, 2011-ci il Suriya və 2014-cü il Ukraynada baş verən müharibə və münaqişələri misal göstərmək olar.

1971-ci il Hindistan−Pakistan müharibəsi nümunəsində hibrid texnika və tədbirlərini nəzərdən keçirək. Həmin müharibə baş verdiyi dövrdə belə bir termin mövcud olmasa da, Hindistan tərəfindən Pakistana qarşı hibrid müharibə texnikaları geniş şəkildə tətbiq edilmişdi. Bu texnika və vasitələrə strateji kommunikasiya, diplomatiya, mədəni işğal, beynəlxalq media, insan hüququ

təşkilatları, yazılı və elektron media, Şərqi Pakistan ziyalıları, Şərqi Pakistandakı hindu müəllimlər daxil idi.

Həmin müharibə zamanı həyata keçirilən hibrid tədbirlər aşağıdakılardır:

– Xarici mühitin formalaşması. J.N.Dixitin qeyd etdiyi kimi, *"Hindistan hökuməti Şərqi Pakistan məsələsini həll etmək üçün iki yanaşma tətbiq etmişdi:*

*1. azadlıq mübarizəsini dəstəkləməklə 1971-ci il seçki qərarına hörmətlə yanaşmaq üçün Pakistan hökumətinə təzyiq göstərmək;*

*2. BMT və ikitərəfli əlaqələr vasitəsilə beynəlxalq ictimai rəy formalaşdırmaq (Hindistan hökuməti çoxlu sayda qaçqınları yerləşdirməklə, guya, Qərbi Pakistan tərəfindən zorakılığın tətbiq olunduğunu qabartmağa çalışırdı)".*

– Daxili vəziyyətə təsiretmə. Hindistan Qərbi Pakistana qarşı hiddətin yaranması üçün çox ağıllı bir siyasət həyata keçirmişdi. Belə ki, adət-ənənə yaxınlığını nəzərə alaraq, əksəriyyəti hindu olan və Kəlküttəni öz mədəni paytaxtları hesab edən Şərqi Benqal ziyalıları üzərindəki təsir imkanlarından bacarıqla istifadə etmişdi.

– İnformasiya domeni. Hindistan effektiv informasiya əməliyyatı tətbiq etmişdi. Hədəflərə xarici hökumətlər və qərar qəbul edənlər, xarici auditoriya, Şərqi Pakistanın əhalisi, Pakistan Ordusu və Hindistanın yerli auditoriyası daxil idi.

Qeyri-ənənəvi müharibə. Müharibənin qeyri-ənənəvi komponenti kimi aşağıdakı fəaliyyətlər həyata keçirilmişdi:

– sərhədə yaxın qiyamçılar üçün təlim mərkəzləri və dəstək bazaları yaradılmışdı;

– qeyri-nizami qiyamçılar əlaqəli struktur formasına çevrilmişdi;

– Pakistan Ordusunun hərəkətini məhdudlaşdırmaq üçün hücumlar, əsasən, kommunikasiya infrastrukturuna, hərbi təşkilat və hökumət aparatlarına planlaşdırılmış, nəticədə mülki əhali repressiyaya məruz qalmışdı;

– əhalinin məskunlaşdığı yerlərin hesabına qiyamçıların nəzarəti altında olan ərazi genişləndirilmişdi;

– yaşayış məntəqələri ənənəvi işğal metodları ilə ələ keçirilmiş və daha sonra beynəlxalq diplomatik müdaxilə üçün müraciət olunmuşdu.

Bu nümunədən irəli gələn müvafiq nəticələr aşağıdakılardır:

– hibrid təhdid hərbi və qeyri-hərbi metod və texnikalardan sinergetik şəkildə istifadə edən müxtəlif aktorlar tərəfindən yaradılır. Bunlar terrorist və cinayətkarlar da daxil olmaqla, dövlət və qeyri-dövlət aktorları ola bilər;

– hibrid təhdid texnikalarına terrorizm, cinayət xarakterli fəaliyyətlər və kiber hücumlar vasitəsilə ictimai qeyri-sabitliyinin yaranmasına səbəb olan texnikalar daxildir, bu zaman bütün taktiki fəaliyyətlər strateji nəticələrə gətirib çıxarır;

– hibrid təhdid qiyamçıların şərait və vəziyyətindən asılı olaraq, təxribat fəaliyyətindən başlayaraq irimiqyaslı müharibə ilə nəticələnə bilər.

## 2.2. Hibrid müharibənin konseptual konstruksiyası

Hibrid müharibənin konstruksiyası münaqişənin dəyişən xarakterini göstərir və ənənəvi düşüncəni yeni çağırışlarla üz-üzə qoyur. Bu, gələcək prioritetlərlə və həmin istiqamətdə investisiyanın yatırılması və qüvvələrin tətbiqi ilə bağlıdır. Hibrid münaqişə fiziki və konseptual metodların kombinasiyasını nəzərdə tutur. Birinci, silahlı düşmənə qarşı, ikinci, döyüş məkanındakı yerli əhalinin, eləcə də beynəlxalq ictimaiyyətin dəstəyinin qazanılması üçün aparılan mübarizədir.

Hərbi leksikona qeyri-nizami müharibə ilə bağlı bir çox terminlər daxil olmuşdur ki, onların müəyyən xüsusiyyətləri üst-üstə düşür. Qeyri-nizami müharibələrdən başqa, klassik müharibə nəsilləri arasında 4-cü və 5-ci nəsil müharibələr daha çox hibrid müharibə çətiri altında birləşir.

Beləliklə, hibrid müharibənin əsas komponentləri: ənənəvi müharibə, qeyri-ənənəvi müharibə, iqtisadi müharibə, kiber müharibə, təxribat, cinayətkarlıq, xüsusi təyinatlı əməliyyatlar, informasiya müharibəsi, təbliğat və zorakılıqdır.

Hibrid müharibədə, əsasən, aşağıdakı fürsətlərdən istifadə olunur: siyasi qeyri-sabitlik, sosial-iqtisadi qeyri-bərabərlik, nəzarətsiz sərhədlər, etnik separatçılıq, mütəşəkkil cinayətkarlıq, korrupsiya, ədalətsizlik.

Hibrid müharibədə xarici qüvvələr daxili aktorlarla sinxron qaydada fəaliyyət göstərir. Əgər bu əməkdaşlığın qarşısı alınmazsa, xarici və daxili təhdidlər orta perspektivli məqsədlərə nail olmaq üçün birləşə bilər. Məsələn, siyasi-hərbi liderliyin nüfuzdan düşməsi və ya etnik-dini qruplaşmalardan istifadə edərək bölgü yaratmaq düşmən dövlətin siyasi-hərbi məqsədlərinə çatması üçün şərait yaradır.

Çoxistiqamətli və çoxölçülü olduğuna, ardıcıl bəzən isə eyni vaxtda baş verdiyinə, konkret bir çərçivəyə uyğunlaşmadığına görə hibrid münaqişəni konkret mərhələlərə bölmək çətindir. Lakin təhlil etdiyimiz nümunələrdən belə qənaətə gəlmək olar ki, münaqişə təxminən dörd mərhələdə cərəyan edir. Birinci mərhələdə, strateji bir hekayə uydurulur. Məsələn, daxili işlərə müdaxilə və ya sərhəd mübahisəsindən istifadə etməklə münaqişəyə başlamaq olar. İkinci mərhələdə düşmən qüvvələri sinxron qaydada qiyam, terror həyata keçirmək və kiber təhdidlərdən istifadə etməklə dövlət strukturlarını zəiflətməyə çalışır. Hibrid münaqişənin üçüncü mərhələsində dövlətin suverenliyi, hətta mövcudluğu şübhə altına düşə bilər. Hərbi və diplomatik təcridetmə daxil olmaqla, ölkədə ictimai güvən və inamın azalması da bu mərhələyə yol açır. Bu mərhələdə hibrid təhdidin qarşısının alınması üçün daxili və xarici imkanlardan bacarıq və məntiqlə istifadə edilməsi zəruridir. Dördüncü mərhələdə bütün elementlər vahid strateji senari əsasında sinxron fəaliyyət göstərməklə dövləti öz mövqeyindən dönməyə məcbur edir. Qeyd

etmək lazımdır ki, hibrid münaqişədə müəyyən fəaliyyətlər müxtəlif mərhələlərdə üst-üstə düşə və ya buraxıla bilər.

Hər hansı bir hadisə ilə hibrid münaqişə hibrid müharibəyə transformasiya edə, eləcə də daxili və xarici düşmən elementləri fiziki müdaxilə həyata keçirə bilər.

Qeyd edilənlərə əsasən, belə təhdidin dövlətə təsiri aşağıdakılardır:

– hibrid təhdid hər hansı ölkənin ideoloji, siyasi, sosial-iqtisadi və psixoloji imkanlarını, coğrafi sərhədlərini zəiflədə bilər. Bu da, həmin ölkənin çevik reaksiyasını zəruri edir;

– zəif nöqtələrinin olması həmin ölkələrə qarşı hibrid müharibənin miqyasının genişləndirilməsinə şərait yaradır. Belə təhdidlərin qarşısı əvvəlcədən alınmalıdır;

– təhlükəsizlik vəziyyəti hüquq mühafizə orqanlarının iradəsini, kəşfiyyat orqanlarının bacarıq və qabiliyyətini bir növ sınağa çəkir. Bu da bütün mərhələlərdə imkan və qabiliyyətlərin təkmilləşdirilməsini və kəşfiyyat məlumatlarının mübadiləsini şərtləndirir;

– hibrid təhdid bütün səviyyələrdə resursların təhlükəsizliyə yönəldilməsinə sövq edir. Bu da iqtisadi inkişafı təmin etmək, eləcə də təhlükənin qarşısını almaq üçün həyata keçirilən fəaliyyətlərdə qlobal əməkdaşlığı şərtləndirir;

– hibrid təhdid dövlət haqqında neqativ fikir formalaşdırır, bu da xalqın psixoloji durumuna öz mənfi təsirini göstərir, əhval-ruhiyyəni aşağı salır.

Belə bir sual yaranır. Hansı ölkələr hibrid təhdidlərə qarşı həssasdır? Aşağıda qeyd olunan səbəblər istənilən ölkənin hibrid təhdidlərə qarşı müqavimətini zəiflədir:

– hibrid təhdidə məruz qalan ölkənin idarəetmə sistemində boşluqlar vardır;

– ölkə daxilində müxtəlif etnik, dini və s. qruplaşmalar mövcuddur;

– hibrid təhdid yaradan aktor ölkə daxilindəki müəyyən qruplaşmaları cəlb edəcək rıçaqlara malikdir və “yumşaq güc” vasitələrindən istifadə etmək iqtidarındadır;

– hibrid təhdidə məruz qalan ölkə öz sərhədlərinə tam nəzarət edə bilmir, qlobal və regional səviyyədə etibarlı müttəfiqləri yoxdur;

– hibrid təhdid yaradan ölkə beynəlxalq arenada müəyyən nüfuza malikdir və bu da onun öz mənafeyinə uyğun ictimai fikir formalaşdırmasına imkan verir.

Hibrid müharibə özündə ənənəvi və qeyri-ənənəvi müharibənin bir neçə elementini birləşdirir və dinamik xarakter daşıyır. Ona görə də hibrid müharibədə önləyici tədbirlər həyata keçirilir və gələcək situasiyalar əvvəlcədən modelləşdirilir. Bu, mühüm məqamdır, çünki önləyici tədbirlər olmasa, habelə modelləşdirmə həyata keçirilməsə, baş verənlərə reaksiya gecikər. Bu da faktiki olaraq məğlubiyyət deməkdir.[11]

Hibrid təhdid və ya müharibəyə reaksiya ilə bağlı bəzi aspektləri nəzərdən keçirək. Dövlətin sabitliyi, təhlükəsizliyi və dayanıqlılığını təmin etmək məqsədilə hibrid təhdidin idarə olunmasının yeganə yolu ona adekvat reaksiya göstərməkdir. Hibrid təhdidin qarşısının alınması konsepsiyasının mahiyyəti zəif nöqtələrin aradan qaldırılması və güvənin artırılmasından ibarətdir. Ona görə də reaksiyanın göstərilməsində hərbi güclə yanaşı, siyasi iradə və milli birlik olmalıdır. Əgər təhdid müharibə formasını alarsa, ənənəvi müdaxilə zəruridir.

Hibrid münaqişənin mərhələlərini nəzərə alsaq, belə nəticəyə gələ bilərik ki, adekvat reaksiya, əsasən, aşağıdakı elementləri əhatə edir:

– dəfetmə, məhdudlaşdırma, müdafiə və yenidən istiqamətləndirmə.

[11] Hibrid müharibələr: XXI əsrin əsas təhlükələri: [Elektron resurs] / – 11 avqust 2016. URL: http://newtimes.az/az/cyberspace/4746

Təhdidin qarşısının alınmasında müəyyən tədbirlərin görülməsi üçün hər bir fəaliyyətin kinetik və qeyri-kinetik domenləri mövcuddur. İnformasiya müharibəsi hibrid münaqişənin özəyini təşkil edir və bu çərçivədə də sabit faktor olaraq qalmaqdadır.

Dəfetmə. Bu element, əsasən, ölkənin harmoniyasını pozmaq üçün "hekayənin uydurulduğu" və hibrid münaqişənin birinci və ikinci mərhələlərində istifadə edilir.

Məhdudlaşdırma. Bu elementinin məqsədi dövlətin funksional fəaliyyətini pozan üçüncü mərhələnin məhdudlaşdırılmasıdır.

Müdafiə. Kinetik elementin əsas rol oynadığı istənilən müdaxiləyə qarşı müdafiədən istifadə olunur.

Yenidən istiqamətləndirmə. Real səbəbə uyğun olaraq, müdaxiləyə milli yanaşmanın prioritetlərinin yenidən təyin olunması ilə böyük bir strategiya tamamlanır.

Hibrid münaqişədə qeyri-kinetik element həmişə aparıcı mövqe tutur. Ona görə də qeyd etdiyimiz fəaliyyətlər, əsasən, qeyri-kinetik vasitələrin ətrafında cərəyan edir. Lakin bütün mərhələlərdə hərbi güc öz rolunu oynayır.

## 2.3. Ermənistanın Azərbaycana qarşı hibrid təhdidləri

Kökü keçən əsrin sonuna gedib çıxan Ermənistan−Azərbaycan münaqişəsi son illər daha mürəkkəb xarakter almaqdadır. Qeyd etmək lazımdır ki, bu münaqişədə fövqəl və regional dövlətlərin də maraqlarının mövcudiyyəti vəziyyəti daha da qəlizləşdirməkdədir. Bilindiyi kimi, Ermənistan−Azərbaycan müharibəsində hibrid savaşın elementlərindən istifadə olunmaqdadır. Bu prosesdə düşmən tərəfi rəsmi Bakıya qarşı hibrid müharibədə öz havadarlarının imkanları da daxil olmaqla, bir neçə sahədə hibrid təhdid vasitələrini tətbiq etməkdədir.

Ermənistan Azərbaycana qarşı hibrid müharibədə tərəflərin informasiya-psixoloji qarşıdurması olmaqla, informasiya məkanında başladı və daha sonra ictimai rəyə psixoloji təsir göstərməklə davam

etdi. Nəticədə, Azərbaycanda siyasi 1980-ci illərin sonundan başlayaraq 1993-cü ilə qədər aksiyalar və xaos baş verdi ki, bu da 1989–1993-cü illərdə ölkədə hakimiyyətin 4 dəfə dəyişilməsinə gətirib çıxardı. Dağlıq Qarabağ müharibəsi dövründə Azərbaycanda 4 dəfə siyasi hakimiyyətin dəyişməsi cəmiyyətin təşkilatlanmasına və həmrəylik hissinin formalaşmasına mənfi təsir göstərdi. Nəticədə, Azərbaycan vətəndaşları arasında apatiya hissinin artmasına səbəb oldu ki, bu faktor 20% ərazimizin Ermənistan tərəfindən işğalında böyük rol oynadı. Ermənistan Azərbaycana qarşı hibrid müharibəni 3 növ döyüş meydanında (münaqişə zonasının əhalisi, arxa cəbhənin əhalisi və beynəlxalq ictimaiyyət arasında) aparmaqdadır. Lakin hibrid müharibənin ön cəbhəsi informasiya müharibəsi sayılır. İnformasiya müharibəsinin əsas komponentləri aşağıdakılardır:

1) psixoloji əməliyyatlar;
2) dezinformasiya;
3) elektron müharibə;
4) birbaşa məlumat hücumları.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı zamanı hərbi əməliyyatlarla yanaşı, informasiya-psixoloji əməliyyatlardan da geniş müstəvidə istifadə edildi. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi bütün informasiya-psixoloji əməliyyatları üç qrupa bölmək olar: strateji (uzunmüddətli), operativ (ortamüddətli), taktiki (qısamüddətli) informasiya-psixoloji əməliyyatlar. İnformasiya-psixoloji əməliyyatlar dünya erməniləri (lobbi və diaspora) və Ermənistan tərəfindən uzun müddət aparılmışdır. Onlar bütün dünya ölkələrinin əhalisinin ictimai şüurunu ermənilərin lehinə formalaşdırmağa başlamışdılar.

İnformasiya-psixoloji əməliyyatlarının əsas məqsədi Ermənistanın və dünya ölkələrinin ictimai rəyini birbaşa silahlı müdaxilə üçün hazırlamaq idi. Bunu həyata keçirmək üçün ermənilərin əzabkeş xalq imicini tanıtmaqla, Azərbaycanın siyasi və diplomatik təcridindən məharətlə istifadə olunurdu. Qeyd etmək lazımdır ki, bu prosesdə

ermənilərin tərəfində SSRİ-nin elitasının məşhur simaları, hətta yuxarı çinli rəhbərləri də iştirak edirdilər. Hətta SSRİ rəhbəri M.Qorbaçovun ən yaxın adamlarından biri, iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan 1988-ci ildə Parisdə keçirdiyi mətbuat konfransında "Dağlıq Qarabağ"ın Ermənistana birləşdirilməsinin zəruriliyini bəyan etmişdi. Eyni zamanda, "Humanite" qəzetində bu məsələyə Moskvanın razı olduğu barədə məlumat da dərc edilmişdi.

Uzun müddət milli dövlətçiliyə malik olmayan ermənilər dünya ölkələrinə səpələndiklərindən diaspora sahəsində formalaşmış və təşkilatlanmışlar. Hazırda erməni diasporası, hətta rəsmi İrəvanın siyasətinə də təsiretmə resurs və mexanizminə malikdir. Ermənilər diaspora vasitəsilə həm Azərbaycana, həm də Türkiyəyə qarşı ciddi fəaliyyət göstərməkdədir. Erməni diasporasının fəaliyyəti nəticəsində 1988-ci ilin iyul ayında ABŞ Konqresi SSRİ rəhbərliyinin "Dağlıq Qarabağ" ermənilərinin tələblərinə hörmətlə yanaşmağın zəruriliyi haqqında qətnamə qəbul etdi. Ermənistan Azərbaycanın ərazilərini işğal etdiyi müddətdə isə ABŞ-ın erməni diasporası dövlətimizin əleyhinə "907-ci düzəlişi" senatda səs çoxluğu ilə qəbul etdirə bildi. Müharibə dövründə bu hadisələrin Azərbaycanın ictimai və psixoloji halətinə mənfi təsirləri özünü göstərmişdir. Eyni siyasətlə ABŞ-ın erməni diasporası 2008-ci ildə Türkiyə–Ermənistan sərhədlərinin açılması üçün aktiv fəaliyyət göstərmiş, lakin Azərbaycanın uğurlu diplomatik addımları sayəsində buna nail ola bilməmişdir. Bu gün erməni diasporasının ABŞ parlamentində Osmanlı imperiyası ərazisində 1915-ci il hadisələrini "erməni soyqırımı" olaraq qəbul etdirməyə cəhd göstərməsi onların sistemli və sinxron fəaliyyətinə nümunədir. Azərbaycanın 20% ərazisinin işğal faktından dolayı Ermənistanı suveren dövlət olaraq tanımayan Səudiyyə Ərəbistanı və Pakistana qarşı düşmənin diplomatik fəaliyyəti də hibrid taktikalardandır.

Ermənilərin Azərbaycana qarşı həyata keçirdiyi informasiya-psixoloji əməliyyatların obyektlərindən biri də Azərbaycan Respub-

likasının Silahlı Qüvvələri olmuşdur. Onların gedişində əsas psixoloji təsir milli-etnik, konfessiya (dini), ictimai-siyasi və digər ziddiyyətləri qızışdırmaq, dövlətin müxtəlif qoşun birliklərinin demoralizasiyası, onların yanlış məlumatlandırılması idi. Bu məqsədlə, Azərbaycan dövlətçiliyi əleyhinə broşura və şayiələr yaymaq, Azərbaycanın milli azlıqlarından əsir götürülmüş hərbi nümayəndələrindən Dağlıq Qarabağ müharibəsinin Azərbaycana qarşı "qanuniliyi" və Azərbaycanda milli azlıqların "zülmü" barədə reportajlar götürmüş və s. fəaliyyətlərlə məşğul olmuşlar.

Fərqli müstəvidə olsa da, Ermənistan təbliğat maşını atəşkəs dövründə də Azərbaycana qarşı fəaliyyətini davam etdirməkdədir. Belə ki, Ermənistan Azərbaycanın çoxmillətli dövlət olmasından istifadə edərək etnik qrupları avtoxton Azərbaycan türklərinə qarşı üsyana təhrik etməyə çalışır. Milli azlıqların digər dövlətlərin ərazisində separat hərəkatlarının formalaşmasına dəstək və təkan verir. Ermənistan diplomatik nümayəndəliklərinin (səfirlik və konsulluqların) vasitəsilə Azərbaycanın xarici ölkələrə miqrasiya etmiş etnik qruplara aid vətəndaşlarla əlaqə qurmağa cəhd edir və onların Azərbaycan əleyhinə təşkilatlanmalarına çoxyönlü dəstək verir. Etnik azlıqların Azərbaycan əleyhinə təşkilatlanmalarında, xüsusilə Rusiya, Belarus, Ukrayna və s. dövlətlərin ərazilərində fəaliyyət göstərən separat hərəkatları və onları koordinasiya edən şəxsləri nümunə göstərmək olar.

Belə şəxslərdən biri də mühacirətdə fəaliyyət göstərmiş talış separatizminin ideoloqlarından olan Fəxrəddin Abbasovdur. 2019-cu il fevral ayının 28-də Rusiya Federasiyası ərazisindən Azərbaycan Respublikasına deportasiya olunan F.Abbasov daha sonra Bakı şəhərində hüquq-mühafizə orqanları tərəfindən saxlanılmış və istintaqa cəlb edilmişdir. Qeyd edək ki, F.Abbasov mühacirət

illərində Ermənistan və İran xüsusi xidmət orqanları ilə sıx əməkdaşlıq qura bilmişdir.[12]

Dünya erməniləri və Ermənistan Respublikasının beynəlxalq media nümayəndələrini Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfərlərə sövq etməsi dövlətimizə qarşı hibrid təhdid-lərdəndir. Azərbaycan tərəfi bu səfərlərin qarşısını almaq üçün həmin şəxslərin ölkəyə girişini qadağan edir və bununla bağlı onların mənsub olduqları dövlətlərə rəsmi nota göndərərək onları hüquqi məsuliyyətə cəlb edəcəyini bildirir. Azərbaycanın işğal olunmuş ərazilərinə icazəsiz səfər etmiş Aleksandr Lapşinin 2019-cu il yanvarın 17-də Belarusdan Azərbaycana ekstradisiya olunaraq həbs edilməsi[13] rəsmi Bakının önləyici addımlarındandır.

Ermənistanın Azərbaycana qarşı apardığı hibrid müharibənin bir məqsədi var: qarşıya qoyulmuş siyasi məqsədə, xüsusilə dövlətlərarası münasibətlərdə öz iradəsinin qəbul etdirilməsinə nail olmaq. Nəticə etibarilə, təcavüzkar ölkə Azərbaycanın hazırki hakimiyyətini devirməyə, öz məqsədlərinə uyğun hakimiyyət qurmağa və işğal etdiyi əraziləri Ermənistana birləşdirməyə çalışır. Bunun üçün rəsmi İrəvan açıq şəkildə dezinformasiya texnologiyasından istifadə edərək həm Ermənistan ictimaiyyətini, həm də Azərbaycan vətəndaşlarını inandırmağa çalışır ki, müharibə yolu ilə münaqişənin həlli mümkün deyil və Azərbaycan məğlubiyyətlə barışmalıdır.

---

[12] DTX: Fəxrəddin Abbasovun Azərbaycan əleyhinə çağırışları və digər əməlləri ilə bağlı istintaq araşdırmaları davam etdirilir: [Elektron resurs] / – 01 mart 2019. URL:https://azertag.az/xeber/DTX_Fexreddin_Abbasovun_Azerbaycan_eleyhine_chagirislari_ve_diger_emelleri_ile_bagli_istintaq_arasdirmalari_davam_etdirilir-1252867

[13] Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz səfərlər edən Aleksandr Lapşin ölkəmizə ekstradisiya olunub VİDEO. [Elektron resurs] / – 07 fevral 2017. URL:https://azertag.az/xeber/Azerbaycanin_isgal_altindaki_erazilerine_qanunsuz_seferler_eden_bloqqer_Aleksandr_Lapsin_olkemize_ekstradisiya_olunub_VIDEO-1033241

Lakin 2016-cı il 2-5 aprel tarixlərində (4 günlük müharibə) Azərbaycan Ordusunun uğurlu əməliyyatlar keçirməsi nəticəsində Ermənistanın ictimai şüurunda şok effekti yaratdı. Aprel döyüşlərindən sonra Azərbaycanın informasiya maşınının effektivliyi göstərdi ki, hərbi müstəvidə uğur əldə etmədən təbliğat sahəsində müvəffəqiyyətə nail olmaq mümkün deyil.

İnformasiya sahəsində Ermənistanın hücumlarının qarşısının alınmasının mümkünsüz olduğunu nəzərə alaraq, bu təbliğatı təsirsizləşdirməyin metodu aşağıdakılardır:

1. Ölkədə regional və milli səviyyədə peşəkar idarəçilik formalaşdırmaq.
2. İqtisadi və siyasi azadlıqların səviyyəsini genişləndirmək (inhisarçılığı qadağan etmək).
3. Siravi vətəndaşlarla hüquq mühafizə orqanları (güc strukturları, xüsusilə kəşfiyyat xidmətləri) arasında güvən hissini formalaşdırmaq.
4. Vətəndaşlar arasında (xüsusilə milli və dini azlıqlar arasında) dövlətçilik hissinin və şüurunun formalaşmasına xüsusi diqqət ayırmaq.

Sadalanan metodlar Azərbaycan cəmiyyətini düşmənin hibrid təhdidlərinə qarşı daha elastik edəcəkdir. Dünya praktikası göstərir ki, vətəndaşların böyük əksəriyyətinin dövlətin idarəçilik institutlarına etimad bəsləməsi, hökumət və polisə etibar etməsi ölkədəki iqtisadi və siyasi imkanlarla birləşdikdə hər hansı bir hibrid taktikanın effektivliyini imkansız edir. Bütün bunlar Azərbaycana qarşı hibrid müharibəni hələ başlamadan əvvəl dayandırmaq üçün zəruri addımlardır.

Ölkələrarası mübarizə və narazılıq dünyanın bugünkü reallıqlarıdır. Bir sıra ölkələr başqa ölkələr hesabına güclərini artırmağa çalışır. Bu da uzunmüddətli münaqişəyə səbəb olur ki, onu da hibrid müharibə termini ilə xarakterizə etmək olar. Məqalədə qeyd olunan faktları nəzərə alaraq, hibrid müharibə və onun nəticələrinin aradan qaldırılması üçün aşağıdakı qənaətə gəlmək olar:

– bütün dövlət təşkilatlarının və cəmiyyətin aparıcı üzvlərinin müharibənin qarşılaşdığımız bu növü ilə bağlı aydın anlayışının olması zəruridir;

– hibrid təhdidlərin qlobal xarakter aldığı bir şəraitdə siyasət–trategiya uyğunluğu heç vaxt bu gün olduğu qədər vacib olmamışdır. Milli təhlükəsizliklə bağlı hər bir dövlətin özünün birmənalı siyasətinin olmasına ehtiyac var və bu da siyasi, hərbi və sosial məqsədlərə nail olmaq üçün müharibənin bütün səviyyələrində güclü strategiya tərəfindən dəstəklənməlidir. Strategiya qlobal və regional təhlükəsizlik kontekstində şəraitin davamlı dəyişməsinə uyğunlaşma prosesidir. Belə ki, münaqişələrin xarakterinə uyğun olaraq, strategiyalar mütəmadi nəzərdən keçirilməlidir:

– hibrid müharibədə yalnız hərbi güclə qalib gəlmək mümkün deyil. Bu, bütöv bir xalqın müharibəsidir və hər kəsin dəstəyindən istifadə olunmalıdır. Ona görə də "bütöv xalq" konsepsiyası milli gücün bütün elementlərinin sinergetik qaydada tətbiqini şərtləndirir;

– təxribat və bilavasitə müdaxilənin dəf edilməsi üçün cəmiyyət və diplomatik münasibətlərdəki çatlar aradan qaldırılmalıdır. Eyni qaydada dövlətin funksional fəaliyyətinin pozulmasına yönəlmiş zorakılığın qarşısının alınması üçün düşmənin kəşfiyyat orqanlarına qarşı tədbirlərin həyata keçirilməsi zəruridir.

# III FƏSİL

## Cənubi Qafqazın regional təhlükəsizliyi və Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları

### 3.1. Cənubi Qafqazın regional təhlükəsizlik mühitinə təhdidlər

Qloballaşan dünyada mürəkkəb və qeyri-müəyyən proseslərin getdiyi dövrdə dünyanın bir sıra regionlarında baş verən münaqişələr bütövlükdə təhlükəsizlik sisteminin qurulmasına mənfi təsir göstərir. Həmçinin Cənubi Qafqazda sabitlik və sülh məsələsi daha çox əhəmiyyət kəsb etməyə başlamışdır. Təhlükəsizlik məsələsində Cənubi Qafqaz dövlətlərinin hər birinin öz mövqeyi vardır. Bu çərçivədə Cənubi Qafqazda əsas təhlükə mənbəyinin nədən ibarət olduğu və onun təhlükəsizlik faktoruna necə təsir etdiyi nəzəri və praktiki maraq doğurur. Araşdırmalar göstərir ki, bu region üçün əsas təhlükə Ermənistan və onun əsassız ərazi iddialarıdır. Ermənistanın təcavüzkar siyasəti geosiyasi təhdidlər yaradır və bu bölgədə risklər əmələ gətirir. Ermənistan Azərbaycan, Gürcüstan və Türkiyəyə qarşı ərazi iddiaları irəli sürür və bu ölkələrin ərazi bütövlüyünü qəbul etmək istəmir.

Təhlükəsizlik sistemində risklərin aradan qaldırılmasında həm konkret ölkə, həm də beynəlxalq təşkilatlar məsuliyyət daşıyır. Onlar fəaliyyətləri ilə riskləri meydana gətirə və ya artıra bilər. Eyni zamanda, beynəlxalq təşkilatlar risk faktorlarının təsirlərini zəiflədə bilər. Bu məqam regional miqyasda özünü göstərən risklərdə də özünü büruzə verir. O cümlədən, Cənubi Qafqazda hazırda müşahidə edilən təhlükəsizlik sistemində risklərin neytrallaşdırılması aspektində bu məsələ aktuallıq kəsb edir.

Ermənistan yeritdiyi aqressiv xarici siyasətə görə bütün regional layihələrdən kənarda qalmış və hərbi-siyasi və enerji sahələrində Rusiya və İrandan asılı vəziyyətə düşmüşdür. Onun Cənubi Qafqaz ölkələrinin heç biri ilə strateji tərəfdaş olmaması da təsadüfi deyil.

Azərbaycana qarşı təcavüz siyasəti yeritdiyinə görə o, düşmən statusundadır. Gürcüstan isə rəsmi olaraq bəyan edir ki, Ermənistan onunla strateji tərəfdaş deyil, ancaq dost, qonşu ölkədir. Bölgənin bir başqa aktoru Türkiyə isə Azərbaycan torpaqlarının işğalı üzündən Ermənistanla sərhədlərini bağlamışdır.

Deməli, Ermənistanın region ölkələri ilə strateji əməkdaşlıq münasibətləri olmadığından təhlükəsizliyinə təminatı da yoxdur. Ermənistan Cənubi Qafqazda müttəfiqləri hesabına regional səviyyədə öz təhlükəsizliyini təmin edə biləcəyini düşünür. Doğrudur, ona havadarlıq etmək istəyən böyük dövlətlər vardır və onlar tarixboyu mövcud olmuşlar. Lakin dünyaya bir sistem kimi yanaşsaq, təhlükəsizlik məsələsində bu havadarlığın yetərli olmadığını görərik. Bu şərtlər daxilində Ermənistanın dövlət kimi suverenliyindən danışmağın mənası yoxdur. Həmçinin onun yeritdiyi aqressiv xarici siyasət müharibə təhlükəsini reallaşdırır. Cənubi Qafqazdakı durumun geosiyasi özəlliyi ondan ibarətdir ki, Ermənistana qarşı müharibə təhlükəsinin olması, onun qonşu ölkənin ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə təhlükə yaratmasından qaynaqlanır. Çünki BMT-nin Nizamnaməsinin 51-ci maddəsinə əsasən, təcavüz obyekti olan ölkə, bu halda Azərbaycan, təbii özünümüdafiə hüququna malikdir.

Təcavüzə məruz qalmış ölkə həm fərdi, həm də kollektiv şəkildə digər maraqlı dövlətlərlə birgə fəaliyyət göstərə və ya onların yardımından yararlana bilər. Bu kontekstdə Azərbaycan üçün xüsusilə kollektiv özünümüdafiənin seçilməsi məqsədəuyğun hesab edilir. Çünki Ermənistanın təcavüz hərəkətlərinin kriminal nəticələri təkcə ölkəmizin deyil, bütövlükdə Cənubi Qafqaz regionunun və Avropaya inteqrasiya proseslərində maraqlı olan ölkələrin mənafelərinə toxunaraq, digər dövlətlərin də siyasi və iqtisadi təhlükəsizlik maraqlarını pozmuşdur. Digər tərəfdən Azərbaycan üçün beynəlxalq hüququn imkan verdiyi və hazırki geosiyasi

maraqlar prizmasından aktual hesab olunan ən məqbul həll variantlarından biri antiterror əməliyyatlarının aparılmasıdır.

Qeyd etmək lazımdır ki, Ermənistan Azərbaycanın ərazilərini işğal etməklə kifayətlənməmişdir. Eyni zamanda, Azərbaycanın (müharibə başlayarsa) reallaşdırdığı neft və qaz kəmərlərini partlatmaqla təhdid edir. Bu isə sadəcə region dövlətləri üçün deyil, karbohidrogen resurslara ehtiyacı olan bir sıra Qərb ölkələri üçün də açıq təhdiddir. Əgər müharibə başlayarsa, Azərbaycanın neft-qaz sektoru ermənilərin hədəfinə çevriləcəkdir. Beynəlxalq səviyyədə bu həmlələr ermənilərin mövqeyinə zərbə vursa da, Azərbaycana iqtisadi zərər yetirmək üçün ən yaxşı üsuldur. 2007-ci ilin oktyabrında Ermənistan parlamentinin vitse-spikeri Vahan Hovanisyan demişdir ki, *"Azərbaycan təcavüz edərsə, ilk növbədə, onun neft potensialı məhv ediləcək"*. BTC boru kəməri təmas xəttindən 15 km uzaqlıqdan keçir və yerin altına yaxşıca basdırılmışdır. Boru kəmərinin boyunca inşa edilmiş nasos stansiyaları daha asan hədəfdir, Azərbaycanın ərazisində yerləşən bu stansiyalardan ikisinə zərbə endirilə bilər. Ən qorxunc variant isə Bakıdan cənubda yerləşən Səngəçal neft terminalının hər hansı yolla partladılmasıdır. Hər halda ermənilərin əsas məqsədi Qərbdən gələn neft investorlarını qorxutmaq və ölkəyə gələn investisiyanın qarşısını almaqdır. Beləliklə, Azərbaycanın neft və qaz sektorunu təhlükəli sərmayə obyekti kimi göstərmək olacaqdır. [14] Çox güman ki, bu halda Azərbaycanda sərmayəsi olan dövlətlər münaqişəyə cəlb olunacaqlar.

### 3.2. Dağlıq Qarabağ münaqişəsinə rakurs

Cənubi Qafqaz tarixboyu Rusiya, Osmanlı və İran imperiyaları arasında bufer bölgə və mübarizə meydanı olmuş, bu imperiyalar

[14] Məmmədzadə, V., İskəndərov, X. Azərbaycanın enerji siyasəti və transregional layihələrinin təhlükəsizliyi // Milli təhlükəsizlik və hərbi elmlər, – 2019. № 3 (5), – s. 82-90.

bölgə xalqlarının formalaşmasına ciddi təsir göstərmişdir. Son 300 illik tarixə nəzər yetirsək, görərik ki, bölgə bu dövlətlərdən (Rusiya, İran, Türkiyə) birinin nəzarətində olmuşdur. Belə ki, Azərbaycan, Ermənistan və Gürcüstan eyni təhlükəsizlik mexanizmində yer aldığından onların təhlükəsizlik problemləri ortaya çıxmamışdır. Lakin bölgə hərbi və təhlükəsizlik baxımından ikiyə ayrıldığı zaman ciddi (etno-ərazi zəmində) münaqişələr yaranmış və bölgənin təhlükəsizlik sistemi zədələnmişdir.

Qeyd etmək lazımdır ki, Rusiyanın bölgədə etnik və sosial dayaq yaratmaq üçün sistemli şəkildə erməni əhalisini Türkiyə, İran və Yaxın Şərq ölkələrindən Cənubi Qafqaza köçürməsi siyasəti başlanmışdır. Hətta "Dəmir Pərdə" ölkəsi olan SSRİ-nin dövründə belə bu siyasət davam etdirilmiş və bölgənin etno-sosial tərkibi süni şəkildə dəyişdirilmişdir. Buna misal olaraq, 1948−1953-cü illərdə 100 mindən çox azərbaycanlının Ermənistanın Zəngəzur ərazisindən Kür-Araz ovalığına köçürülməsi, onların yurdlarına isə Yaxın Şərqdən ermənilərin gətirilməsini göstərmək olar. Bu siyasət, eyni zamanda Gürcüstan və Şimali Qafqazın yerli əhalisinə qarşı da tətbiq edilmişdir. Gürcüstanın Cənub və Cənub-Qərb bölgəsinin yerli sakinləri olan Axısxa (Məhsəti) türkləri II Dünya müharibəsi zamanı Mərkəzi Asiyaya deportasiya edilmiş, onların yerlərinə isə xaricdən gəlmə ermənilər məskunlaşdırılmışdır. Bu gün Gürcüstanın bu ərazilərinə (Axalkalaki və Samtsxe-Cavaxetiya) ermənilərin ərazi iddiaları var və erməni separat komitələri burada aktiv fəaliyyət göstərirlər. Bu komitələrin filialları QHT adı altında xarici dövlətlərdə də mövcuddur. Hətta 2007-ci ildə qəbul edilən Ermənistan Respublikasının milli təhlükəsizlik strategiyasının 2.1. bölməsinin Gürcüstanla münasibətlərə həsr olunmuş hissəsində Cavaxetiya məsələsinin "həlli" irəli sürülmüşdür. Nəzərə alsaq ki, Samtsxe-Cavaxetiya bölgəsində yaşayan ermənilərin sayı "Dağlıq Qarabağ"dakı erməni əhalisinin sayından daha çoxdur. Bu fakt ondan xəbər verir ki, Ermənistan Azərbaycanda olduğu kimi, Gürcüstanda

da etnik zəmində münaqişə ocağı yaratmaq potensialına malikdir. Hazırda Ermənistanın Azərbaycanla müharibə şəraitində olması Gürcüstana rəsmi şəkildə ərazi iddiası etməyə faktiki olaraq imkan vermir. Bəzi analitiklərinə görə Ermənistan Azərbaycanla müharibəyə başlamasaydı, Gürcüstanın Cavaxetiya bölgəsinə hücum edəcəkdi.

Ermənistan−Azərbaycan Dağlıq Qarabağ münaqişəsi 30 ildən artıqdır ki, davam edir. Lakin tarixə nəzər salsaq, görərik ki, əslində münaqişənin tarixi I Dünya müharibəsinin nəticəsində yaranmışdır. Onun ideoloji əsasları isə qədim dövrlərdə "Aralıq dənizindən Xəzər dənizinə qədər əraziləri əhatə etmiş Böyük Ermənistan"ın mövcudluğu haqqında heç bir elmi əsası olmayan sərsəm ideyalar irəli sürmüş XIX əsr erməni tarixçiləri tərəfindən qoyulmuşdur. Ermənilərin bütün işğalçı siyasətlərini dəstəkləyən isə erməni kilsəsi olmuşdur. 1980-ci illərin sonlarından başlayaraq bu günə qədər davam edən siyasi, hərbi və etnik zəmində lokal silahlı mübarizələr bölgənin təhlükəsizliyini və gələcək perspektivini ciddi şəkildə təhdid etməkdədir. [15] XX əsrin əvvəllərində olduğu kimi, əsrin sonunda da ermənilərin ərazi iddiaları diqqətlə və hərtərəfli plan əsasında hazırlanmaqla yanaşı, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə həyata keçirilməyə başlanmışdır. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, *"Azərbaycandan fərqli olaraq, Ermənistan hələ münaqişə başlanmazdan çox-çox əvvəl onun uğurla başa çatdırılması üçün böyük hazırlıq işləri aparmışdır"*. Ermənistan −Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başladıqdan sonra uzun müddət bu problem beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməmişdir. Bunun səbəbi ondan ibarət idi ki, münaqişənin başladığı ilkin mərhələdə dünya birliyi onun aradan qaldırılmasında maraqlı

[15] Cənubi Qafqazda regional və milli təhlükəsizlik: real təhdidlər kontekstində: [Elektron resurs] / – 28 iyun 2016. URL: http://newtimes.az/az/geopolitics/4609.

deyildi.[16] Çünki Qərb dövlətləri bu münaqişəni SSRİ-nin dağılması prosesini sürətləndirən çoxsaylı amillərdən biri kimi görürdülər. Qərb strateqləri Sovet İttifaqının daxilində gedən separatçı proseslərin "Şər İmperiyası"nı dağıdacağını bilirdilər. Ermənistan yeritdiyi militarist siyasət nəticəsində 1991−1994-cü illər ərzində Azərbaycan ərazisinin 20%-ni işğal etmiş və 1 mln. azərbaycanlının öz yurdundan qovulmasına səbəb olmuşdur. Bu müharibə hər iki tərəf üçün dağıntılı və itkili olsa da, Azərbaycan tərəfinin işğala məruz qalması ölkə üçün böyük sarsıntı qaynağı olmuşdur. Erməni işğalı davam edərkən Birləşmiş Millətlər Təşkilatı 822, 853, 874 və 884 saylı qətnamələri qəbul etsələr də, təcavüzün qarşısını almaq üçün effektiv təsir göstərməmişlər. Belə ki, BMT-nin Baş katibi münaqişənin həllində ATƏM-in (Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi 1995-ci ilin yanvarından ATƏT-in Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) səylərini dəstəklədiyini və bu təşkilata müvafiq nəticələr əldə etmək üçün köməklik göstərməyə hazır olduğunu bildirməklə kifayətlənmişdir. BMT-nin qəbul etdiyi bu qətnamələrdə Ermənistan Respublikasının adının hallanmaması, əvəzində isə erməni silahlı dəstələri kimi qeyd edilməsi Irəvana beynəlxalq təzyiqin olma ehtimalını azaldır. Rusiyanın vasitəçiliyi ilə 1994-cü ilin mayında tərəflər arasında imzalanmış "Bişkek" sülh anlaşması müvəqqəti də olsa sabitliyin yaranmasına səbəb oldu. Bu anlaşmaya hər iki tərəfdə razı olmayan qrupların olduğu da bilinməkdədir.[17]

---

[16] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: [Elektron resurs] / URL: http://files.preslib.az/projects/azerbaijan/gl8.pdf

[17] Cavanşir, V. Azərbaycan BMT ilə əməkdaşlığa xüsusi önəm verir // Yeni Azərbaycan, – 3 iyun 2015. – № 98, – s. 8.

### 3.3. SSRİ-nin dağılmasından sonra bölgədə geosiyasi balans

1991-ci ildən sonra bölgədə üç müstəqil dövlətin formalaşmasından sonra sadəcə bölgə dövlətləri deyil, eyni zamanda bölgədən kənar böyük güc mərkəzləri də Cənubi Qafqazda aktiv geosiyasi mübarizənin iştirakçılarına çevrilmişdilər. 1990-cı illərdən etibarən bu bölgədə mövcud olan fərqli dəyərlərin ortaq məxrəcə gətirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi və təhlükəsizliyin təmin edilməsi üçün müxtəlif regional layihələr hazırlansa da, bunların həyata keçirilməsi mümkün olmamışdır. Bunun əsas səbəblərindən biri, məhz Ermənistanın qonşu dövlətlərə əsassız ərazi iddiaları idi. SSRİ-nin dağılması və bölgədə üç müstəqil dövlətin qurulması Cənubi Qafqazda yeni iqtisadi, hərbi və siyasi tarazlığın formalaşmasına səbəb olmuşdur. Bölgə ölkələri müxtəlif təhlükəsizlik problemləri ilə qarşılaşmış, bölgə və beynəlxalq təhlükəsizlik təşkilatlarına üzv olmağa və əməkdaşlığı genişləndirməyə çalışaraq həll yolları axtarmışlar. Bu mərhələdə Ermənistan xüsusilə iqtisadi və təhlükəsizlik sahəsində Rusiya ilə, Gürcüstan isə ABŞ-la əməkdaşlığa əhəmiyyət vermişdir.[18] Azərbaycan isə çoxvektorlu siyasəti üstün tutmuş və "Qoşulmama Hərəkatı"nın (QH) aktiv üzvünə çevrilmişdir. SSRİ-nin çökməsi ilə Cənubi Qafqazda geosiyasi risklərin artması müşahidə edildi. Burada iki səviyyədə təhlükəli təsirlər mövcud idi. Onlardan əsası qlobal təhlükəsizlik sisteminin həmin dövrdə faktiki olaraq dağılmasından qaynaqlanırdı. Belə ki, uzun illər ikiqütblü dünyada beynəlxalq münasibətlərin tənzimlənməsinə yönəlmiş mexanizmlər sosialist düşərgəsinin (Varşava bloku) məhv olması ilə əvvəlki səmərəliliyini itirmişdir. Nəticədə, yeni tənzimləmə mexanizmləri meydana gəlmədiyindən müxtəlif regionlarda sabitliyə təhlükələr artmışdır. İkinci qisim risklər bu məqamlardan ilham alan regional destruktiv qüvvələrin fəaliyyəti

---

[18] Cənubi Qafqazın geosiyasi mövqeyi və təhlükəsizlik problemləri: [Elektron resurs] / – 28 avqust 2012. URL: http://newtimes.az/az/politics/344/

əsasında real təhdidlərə çevrilmişdir. Həmin rolu Cənubi Qafqazda Ermənistan oynamağa başlamışdır. Bununla da, keçən əsrin 90-cı illərində regionda geosiyasi balans pozulmuşdur. Ermənistan qonşu dövlətin ərazisinə, mədəniyyətinə, iqtisadiyyatına, siyasi quruluşuna, cəmiyyətin demoqrafik və mədəni sahələrinə təcavüz etməklə regional səviyyədə təhlükəsizlik sistemini sıradan çıxartdı. SSRİ-nin dağılmasından sonra bölgədə iki təhlükəsizlik təşkilatı hegemon güc olmaq uğrunda mübarizəyə başlamışdır. Birincisi, Rusiyanın liderliyində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT), ikincisi isə ABŞ liderliyində Şimali Atlantika Müqaviləsi Təşkilatı "NATO"-dur. Regionun təhlükəsizliyinin təmin edilməsi üçün planlanan təhlükəsizlik mexanizmləri bu və ya digər şəkildə Azərbaycan, Ermənistan və Gürcüstanı əhatə etməkdədir. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda təhlükəsizlik və sabitliyin təmin edilməməsindəki ən başlıca səbəblərdən biri də, sadəcə bölgə dövlətlərinin deyil, böyük dövlətlərin özünəməxsus iqtisadi, hərbi və siyasi mənfəətlərinin təmin edilməsi istiqamətində təhlükəsizlik mexanizmləri qurmağa təşəbbüs göstərmələridir. Belə ki, Rusiya, ABŞ və Avropa İttifaqı (Aİ) bölgədə öz mənfəətlərinə uyğun gördükləri təhlükəsizlik sistemini qurmağa çalışırlar. Gürcüstan NATO təhlükəsizlik sisteminə inteqrasiya etməyə, Azərbaycan isə NATO ilə münasibətlərini möhkəmləndirməyə və genişləndirməyə çalışsa da, Rusiyaya olan münasibətdə daha tarazlı siyasət həyata keçirməyə cəhd edir. Ermənistan isə birmənalı şəkildə Rusiyanın liderliyində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının təhlükəsizlik sisteminə daxil olmuşdur.[19] Ermənistanda son zamanlar baş verən siyasi dəyişikliklər onun xarici siyasətində qırılmaların olacağını göstərir. Bütün regional layihələrdən kənarda qalan Ermənistan bu vəziyyətdən çıxış yolunu Qərblə əməkdaşlığı geniş-

[19] Cənubi Qafqazın geosiyasi mövqeyi və təhlükəsizlik problemləri: [Elektron resurs] / – 28 avqust 2012. URL: http://newtimes.az/az/politics/344/

ləndirməkdə və bununla xarici siyasətində manevr imkanlarını artırmaqla daha çox divident əldə etməkdə görür. Lakin Ermənistanın bir çox sahələrdə Rusiyadan asılı olması ölkənin siyasi manevr şansını minimuma endirir.

### 3.4. Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazda təhlükə mənbəyi kimi

Həllini tapmayan Ermənistan−Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqazda təhlükə mənbəyi kimi qalmaqda davam etsə də, beynəlxalq ictimaiyyəti ən az maraqlandıran məsələlərdən sayılır. Dağlıq Qarabağ münaqişəsini ümumən "dondurulmuş münaqişə" adlandırırlar, lakin termin aldadıcı və potensial olaraq təhlükəlidir. Faktiki olaraq, bu münaqişə hazırda dinamik dəyişikliklər mərhələsindədir və gec-tez müharibənin yenidən başlanmasına gətirib çıxara bilər. Bu münaqişədə status-kvonun Ermənistan tərəfindən dəyişdirilməsinin istənilməməsi isə təhlükə ehtimalını artırmaqdadır. Həyata keçirdiyi produktiv siyasətin nəticəsində Azərbaycanın getdikcə zənginləşməsi onun ordusuna xərclənən vəsaitlərin artırılmasına imkan verir ki, Ermənistanla nisbətdə daha müasir və texniki silahlar əldə edə bilsin. Bu hal isə Azərbaycanın strateji cəhətdən üstünlük əldə etməsi ilə nəticələnmişdir. Ermənistan 1994-cü ilin mayında tərəflər arasında imzalanmış "Bişkek" sülh anlaşmasından sonra eyforiya hissinə qapılmışdır. Ermənilər daim təkrarlayırdılar ki, qələbə artıq qazanılmış və müharibə başa çatmışdır. Azərbaycan və dünya tərəfindən isə bu faktın yalnız təsdiqlənməsi qalır. Ermənistanın keçmiş müdafiə naziri (əslən qarabağlı) Seyran Ohanyan 2008-ci il iyulun 29-da bildirmişdir ki, *"Azərbaycan münaqişəni həll etmək üçün (1991–1994-cü illərdə) hərb yoluna əl atdı. Dağlıq Qarabağ məsələsi artıq güc yolu ilə (ermənilərin xeyrinə) həll edilmişdir, indi biz bu məsələni diplomatik vasitələrlə məntiqi sonluğa gətirməliyik".* Paradoks ondadır ki, ermənilər sülh danışıqlarında "Dağlıq Qarabağ"ı Azərbaycandan

qoparmağa çalışsalar da, işğal olunmuş ətraf 7 rayonu güzəşt predmeti olaraq istifadə edirlər. Lakin bununla belə, erməni xalqına təlqin edirlər ki, "Dağlıq Qarabağ" və ətraf rayonlar "azad edilmiş ərazilər"dir və Azərbaycana qaytarılmamalıdır. Bu isə danışıqlarda hər hansı razılaşmanı mümkünsüz edir. Sülh danışıqlarının davam etdirilməsi üçün yeni meyar və prinsiplər yaradılmalıdır ki, Ermənistan və Azərbaycan üçün növbəti illər yenidən hədər getməsin və ya ondan da betər, müharibənin yenidən baş qaldırması təhlükəsi ilə üzləşməsinlər

### 3.5. Sülh prosesinin taleyi

Dağlıq Qarabağ sülh prosesi qapalı qapılar arxasında aparılsa da, Ermənistan və Azərbaycan ictimaiyyətinə təkliflərin mahiyyətinə dair müzakirələr haqqında məlumatlar açıqlanır. Sülh danışıqları Azərbaycan və Ermənistanla yanaşı, üç daimi həmsədr ölkə tərəfindən (ABŞ, Rusiya və Fransa) aparılır. Avropa İttifaqı (Aİ) öz vasitəçilik rolunu Minsk Qrupu çərçivəsində Fransaya həvalə etmişdir. Lakin Aİ-yə üzv olan bütün dövlətlərin (28 dövlətin) konsensus qərarı ilə səlahiyyətləri Aİ-yə qaytarıla bilər. Qeyd etmək lazımdır ki, danışıqlarda "Dağlıq Qarabağ"ın nə Azərbaycan, nə də erməni icmasının seçilmiş rəhbərliyi iştirak etmir. Bu fakt bir daha onu göstərir ki, müharibə, məhz Ermənistan və Azərbaycan arasında gedir. Qarabağ ermənilərinin isə bu münaqişənin həllində heç bir siyasi rolu yoxdur. "Dağlıq Qarabağ" isə bir çox baxımdan de-fakto Ermənistanın əyalətidir. Bu "dövləti" Ermənistan daxil olmaqla heç bir dövlət tanımır. Belə ki, Dağlıq Qarabağın milli pul vahidi yoxdur, dövriyyədə yalnız Ermənistan dramından istifadə edilir. Dağlıq Qarabağ büdcəsinin böyük hissəsi Ermənistandan, qismən isə diaspora təşkilatlarından təmin edilir. Dağlıq Qarabağ əhalisinə Ermənistan pasportları verilir. Hətta qondarma "Dağlıq Qarabağ Respublikasının" Prezidenti Bako Sahakyan xarici səfərə getmək istədikdə, məhz Ermənistan Respublikasının pasportundan istifadə

edirdi. Ermənistan və “DQR” silahlı dəstələri vahid qurum kimi fəaliyyət göstərir. Hazırda danışıqlar prosesində razılaşdırılmış baza prinsipləri haqqında sənəd var. Həll variantının ilkin mərhələsini əhatə edən bu sənəd “Madrid prinsipləri” adlanır. “Madrid prinsipləri” Praqa prosesində bərpa edilmiş və 2006-cı ildə ictimaiyyətə açıqlanan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün baza prinsiplərinə əsasən, irəli sürülmüş sülh təşəbbüsünün davamı hesab edilir. Bu, dövlətlərarası razılaşma və sazişlər üzrə baza kimi xidmət göstərən beynəlxalq qanunların əsas sənədi ATƏT-in Helsinki Yekun Aktının tənzimləyici hüquqi müddəalarına əsaslanan, 1994-cü il atəşkəs sazişindən sonra münaqişə tərəfləri arasında sülh danışıqları nəticəsində ortaya çıxan yeganə sənəddir. Sənədin əsasını təşkil edən formul ondan ibarətdir ki, 1988-ci ildə münaqişənin başlanmasına səbəb olan Dağlıq Qarabağın statusu haqqında qərar digər məsələlərin həll edilməsinə imkan yaratmaq üçün bir neçə il müddətinə təxirə salınır. Minsk Qrupu vasitəçiləri açıq şəkildə bildirmişdilər ki, Azərbaycanın ərazinin bütövlüyü saxlanılmalıdır. Bununla bərabər qeyd edilir ki, Dağlıq Qarabağın gələcək statusu tərəflər arasında aparılacaq danışıqların mövzusu olacaqdır.

Sənədin əsas müddəaları bunlardır:

– erməni qoşunlarının işğal olunmuş Dağlıq Qarabağ ətrafı yeddi rayondan çıxarılması;

– Dağlıq Qarabağa “müvəqqəti beynəlxalq status”un verilməsi. Bu status Dağlıq Qarabağın seçilmiş rəsmilərinə daha geniş legitimlik verməli, əhalisinə isə dünyaya çıxışı təmin etməlidir. Lakin bu, Dağlıq Qarabağın beynəlxalq səviyyədə tanınmasını nəzərdə tutmur;

– Dağlıq Qarabağın gələcəyini müəyyən etmək üçün gələcəkdə qeyri-müəyyən tarixdə referendumun keçirilməsi;

– Dağlıq Qarabağla Ermənistan arasında tranzit (Laçın) koridorunun qurulması;

– beynəlxalq sülhməramlı qüvvələrin Dağlıq Qarabağla ətraf rayonlar arasında yerləşdirilməsi;

– Dağlıq Qarabağın Ermənistan və Azərbaycanın digər bölgələri ilə bütün tranzit məhdudiyyətlərinin ortadan qaldırılması.

Ermənistan və Azərbaycan bəzi məqamlarda razılığa gəlsələr də, tərəflərin güzəştə getmək istəmədikləri prinsipial məqamlar da var. Belə ki, Azərbaycan üçün Dağlıq Qarabağın yekun statusu ilə bağlı məsələ narahatlıq doğurur. Azərbaycan tərəfi Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına qarşı çıxır və yalnız (sərhədləri daxilində) yüksək muxtariyyət verilməsi ilə razılaşır. Kosovanın Serbiyadan ayrılaraq 2008-ci ildə ümumxalq referendumu keçirməklə müstəqillik əldə etməsi Azərbaycanı xüsusilə narahat etməkdədir. Ermənistan tərəfini isə narahat edən səbəb sənəddə Ermənistanı Dağlıq Qarabağla şose yolu ilə birləşdirən Laçın rayonunun statusudur. Ermənilər Dağlıq Qarabağı Ermənistanla birləşdirən bu koridora "həyati əhəmiyyətli xətt" kimi yanaşırlar. Laçın dəhlizinə Qarabağın statusuna bərabər status verilməsini və Ermənistanın nəzarətində qalmasını istəyirlər. Bu isə faktiki olaraq Qarabağın Ermənistana birləşdirilməsi deməkdir. Madrid prinsiplərinin məğzi ondan ibarətdir ki, münaqişə tərəfləri arasında razılaşmanın baş tutması üçün ilkin mərhələdə hər iki dövlətə tələblərindən bir qismi verilsin: Azərbaycana işğal olunmuş 7 rayonun qaytarılması, Qarabağ ermənilərinə isə təhlükəsizlik zəmanətləri və gələcəkdə müstəqillik referendumunun keçirilməsinə icazə verilməsi. Belə güman edilir ki, razılaşma əldə edildikdən sonra tərəflər arasında əlaqələr bərpa ediləcək və münaqişənin uzunmüddətli həll variantını tapmaq üçün lazım olan qarşılıqlı etibar formalaşacaqdır.

Sülh danışıqlarında əsas təhlükə ondan ibarətdir ki, hətta tərəflər kağız üzərində yekun razılıq əldə etsələr belə, bu anlaşmanı öz xalqlarına qəbul etdirə bilmədikləri halda regionda genişmiqyaslı

müharibə qaçılmaz olacaqdır. Hər iki tərəfdə müqavimət bir neçə variantda özünü büruzə verə bilər:

– sülh sazişinin Ermənistanda, Azərbaycanda və ya hər ikisində təşkil edilmiş ümumxalq referendumunda rədd edilməsi;

– Dağlıq Qarabağdan olan azərbaycanlı məcburi köçkünlərin etirazları (ilkin mərhələdə öz yurdlarına qayıda bilməyəcəklərindən);

– Dağlıq Qarabağda məskunlaşmış yerli olmayan ermənilərin etirazları (1989-cu il əhalini siyahıya alma statistikası əsasında).

Qeyd etmək lazımdır ki, yekun sülh sazişi imzalandıqdan sonra Dağlıq Qarabağın hələ bir neçə il ermənilərin nəzarətində qalacağını nəzərə alsaq, Azərbaycanda bu sazişin birinci mərhələsinə qarşı etirazların olması qaçılmazdır. Həmçinin tərəflər arasında razılaşma baş tutarsa, azərbaycanlı məcburi köçkünlərin növbəti bir neçə il ərzində yurdlarına qayıda bilməyəcəkləri (işğal edilmiş torpaqlar tamamilə dağıdılmış və minalanmış vəziyyətdə olduğundan) faktoru da sülh sazişinə qarşı etirazların yaranmasına səbəb olacaq. Ona görə də beynəlxalq səviyyədə sülh sazişinə dəstək verilməli və sazişin tezliklə hər iki tərəfə fayda verəcəyinə dair əminlik nümayiş etdirilməlidir.

### 3.6. Atəşkəsin pozulması riski və onun fəsadları

Həm Ermənistan, həm də bütün regional və beynəlxalq aktorlar anlayırlar ki, münaqişənin eskalasiyası üçün ən yaxın yol status-kvonun saxlanılmasıdır. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində ciddi dəyişiklik baş verməzsə, Azərbaycan bu status-kvonu dəyişmək hüququnu özündə saxlayacaqdır. O buna qadir olduğunu 2016-cı il aprel ayında “dörd günlük müharibə” zamanı nümayiş etdirə bilmişdir.

BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, NATO PA, AŞPA, İƏT və başqa təşkilatların qəbul etdiyi qərarlar münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün hüquqi baza yaratsa da, Ermənistan bunların heç birinə əməl etmək istəmir. Azərbaycan

Respublikasının Prezidenti İlham Əliyev 2017-ci il oktyabrın 4-də Avropa İttifaqı Şurasının nümayəndə heyəti ilə görüşdə münaqişənin həll edilməmə səbəblərindən birinin, məhz təcavüzkara qarşı beynəlxalq səviyyədə təzyiqin olmamasını bildirərək demişdir: *"Əgər Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, beynəlxalq hüquq normalarını və humanitar normaları kobud şəkildə pozan ölkəyə qarşı ciddi sanksiyalar tətbiq edilsəydi, bəlkə də münaqişə çoxdan həll edilmiş olardı. Beynəlxalq ictimaiyyətin Ermənistana münasibətdə bu cür mülayim siyasəti onlarda belə təsəvvür yaradır ki, onlar bizim torpaqlarımızda qanunsuz şəkildə qalmağa davam edə bilərlər".*[20] Bildirmək lazımdır ki, dünya praktikasında işğalçıya qarşı sanksiya tətbiqetmə təcrübəsi mövcuddur. Nümunə olaraq, BMT Təhlükəsizlik şurasının Serbiyaya qarşı sanksiyaların tətbiqi ilə bağlı qəbul etdiyi bir sıra qətnamələri göstərmək olar. Bu qətnamələrdə Serbiyanın xaricdən silah alması və xarici maliyyə müəssisələrində olan hesabların dondurulması qeyd edilir. Ermənistana qarşı analoji sanksiyaların tətbiq edilməsi üçün Azərbaycanın aktiv diplomatik fəaliyyətinə rəğmən heç nə əldə etmək mümkün olmur. Bu, Azərbaycan diplomatiyasının qarşısında nə qədər çətin bir vəzifənin durduğunu, paralel olaraq iqtisadi və hərbi təzyiq vasitələrinin gücləndirilməsinə ehtiyac olduğunu göstərir. Prezident İlham Əliyev Bakıda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kursantları qarşısında 2012-ci ildə çıxışı zamanı deyib: *"Əfsuslar olsun ki, müasir dünyada beynəlxalq hüquq normaları pozulur. Biz bu mənzərəni görürük. Bu pozuntular getdikcə daha da geniş vüsət alır. Belə olan halda, əlbəttə biz də görürük ki, güclü olmasan, sənin hüquqların tapdanacaqdır".* Əgər

[20] Prezident: "Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, münaqişə çoxdan həll edilmiş olardı": [Elektron resurs] / – 5 oktyabr 2017.
URL: https://bit.ly/2T7RSAk

işğalçı Ermənistana qarşı bu günə qədər hər hansı formada sanksiya tətbiq edilsəydi Dağlıq Qarabağ münaqişəsi rahatlıqla öz həllini tapar və bölgədə gələcəkdə yarana biləcək münaqişə risklərini minimuma enərdi. Əgər Ermənistan tərəfi vaxtuzatma siyasətini davam etdirərsə və danışıqları görüntü naminə apararsa, aprel döyüşlərinə bənzər və ya daha genişmiqyaslı hərbi əməliyyatlar başlaya bilər. “Dörd günlük müharibə” mövcud status-kvonun sonsuzadək saxlanması senarisinin mümkünsüzlüyünü göstərmişdir. Azərbaycan “dörd günlük müharibə”də itirilmiş bəzi ərazilərini geri qaytara bilmişdir. Lakin bunun mənəvi-psixoloji təsiri daha böyük olmuşdur. Azərbaycan cəmiyyətində vətənpərvərlik duyğusu qabarmış, cəmiyyətin bütün qrupları arasında həmrəylik yaranmış və xalq Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşmişdir. Uzun və nəticəsiz olan danışıqlardan sonra münaqişənin hərbi yolla həllinə ümidlər artmış və bunun nəticəsində Azərbaycan hakimiyyəti hərbi ritorikadan daha çox istifadə etməyə başlamışdır. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan “dörd günlük müharibə” zamanı sonadək Azərbaycanı dəstəkləyəcəyini elan etmişdir. İran İslam Respublikası və Rusiya Federasiyasının rəhbərliyi isə hər iki tərəfə öz vasitəçilik missiyasını təklif etmişdir. “Dörd günlük müharibə”dən sonra Ermənistan cəmiyyətində ani şok yaşanmış, hakimiyyətə qarşı müxalif hərəkatlar baş qaldırmış, erməni cəmiyyətində qalibiyyət eyforiyası yerini ümidsizliyə buraxmışdır. Ermənistanın hakim dairələrində, xüsusilə hərbi rəhbərliyində (müdafiə naziri Seyran Ohanyanın və başqa generalların) kütləvi istefalar başlamışdır. “Dörd günlük müharibə”yə qədər Ermənistan hakimiyyəti öz xalqına mütəmadi olaraq vaxtın onların xeyrinə olduğunu təlqin etməyə çalışmış və Azərbaycan tərəfinin hərb yolundan istifadə edə bilməyəcəyini aşılamışdır. Bəzi ekspertlərin fikrincə, məhz “dörd günlük müharibə” Ermənistanda hakimiyyət dəyişikliyini qaçılmaz etmişdir. Ermənistanda 2018-ci il aprel seçkilərində cəmiyyət Serj Sarkisyan hakimiyyətini istefaya sürükləmişdir. Ermənistanda məxməri inqilab

başlamış və Nikol Paşinyanın Baş Nazir postunu tutmasının yolu açılmışdır. Yeni hakimiyyətə gəlmiş Paşinyan ümidsizliyə qapanmış cəmiyyətə pafoslu fikirlər söyləməklə psixoloji xaosdan çıxarmağa çalışmışdır. Lakin ekspertlər bunun uzun sürməyəcəyi qənaətindədirlər. Belə ki, hakim elita çox gözəl anlayır ki, erməni cəmiyyətini bu ağır sosial-iqtisadi və izolyasiya vəziyyətindən çıxarmağın yolu "Dağlıq Qarabağ" münaqişəsinin həllindən keçir. Bu konflikt həll olunmazsa, Türkiyə və Azərbaycanla sərhədlər açılmayacaq, infrastruktur bərpa oluna bilməyəcəkdir. Nəticədə isə işsizlik və ölkədən qaçmanın (miqrasiya) həlli mümkün olmayacaqdır. Gürcüstanla Rusiya federasiyasının sərhəd gömrük qapılarının 2008-ci il, Cənubi Osetiya toqquşmasından sonra qapanması (Ermənistanda) onsuzda ağır olan sosialiqtisadi və demoqrafik vəziyyəti daha da çətinləşdirmişdir. Həm 1991-1994-cü illərdə Ermənistan–Azərbaycan, həm də 2008-ci ildə Gürcüstan–Rusiya müharibəsi zamanı İran İrəvanı kritik iqtisadi böhrandan çıxararaq Ermənistana dəstək olmuşdur. *Bu mənada İran və Rusiya Ermənistanın əsas sponsorlarıdır. İran Ermənistanı yanacaqla və digər həyati məhsullarla, Rusiya isə hərbi silahla təmin edir.*[21] İran Ermənistanın əsas iqtisadi partnyorudur və son məlumatlara görə Qarabağ erməniləri ilə aktiv ticarət əlaqələrinə malikdir.[22] İran dövləti Araz çayı üzərindən nəzarətsiz "Dağlıq Qarabağ" (Cəbrayıl rayonu) ərazisinə körpü və su qovşağı inşa etmiş, bu vasitə ilə o, həm də Qarabağda baş verə biləcək hərbi toqquşmalara birbaşa müdaxilə-

---

[21] Ariel Cohen. Ethnic Conflicts Threaten US Interests in the Caucasus // Herritage Foundation Backgrounder, – 25 September 1998. – № 1222, – p. 13. URL: http://thf_media.s3.amazonaws.com/1998/pdf/bg1222.pdf

[22] Cornell, S. Small Nations and Great Powers. A Study of Ethnopolitical Conflict in the Caucasus / S.Cornell. – Surrey: Curzon Press, – 2001. – 490 p. URL:https://is.muni.cz/el/1423/podzim2012/MVZ208/um/35586974/Small_Nations_and_Great_Powers__A_Study_of_Ethnopolitical_Conflict_in_the_Caucasus__.pdf

etmə imkanına nail olmuşdur. *Məlumdur ki, 2016-cı il aprel döyüşləri zamanı İran Silahlı Qüvvələrinin 7-ci zirehli döyüş briqadası nəzarətsiz ərazilərlə sərhəddə tam döyüş hazırlığına gətirilmişdi.*[23] İranın bu addımları bütün beynəlxalq normlara zidd olsa da, Azərbaycana ikili münasibətini davam etdirir. İran düşünür ki, Azərbaycana xarici və daxili təzyiqlər göstərməklə Bakını öz iradəsinə tabe edə biləcəkdir. İranın Azərbaycana qarşı ən effektiv təsir vasitəsi kimi dini (şiə) ideologiyadan və etnik Talış faktorundan istifadə etməsi real görünür. Tehran–Bakı münasibətlərini qiymətləndirərkən qeyd etmək lazımdır ki, regionda müsəlman, həm də şiələrin çoxluq təşkil etdiyi sekulyar Azərbaycanın geostrateji statusunun yüksəlməsi İranı bərk narahat edir. Ümumiyyətlə, diplomatk müstəvidə İran və Azərbaycan bir-birlərinə ən çox nota verən ölkələrdir. Tehran–İrəvan münasibətlərinə gəlincə, qeyd etmək lazımdır ki, İran Ermənistan hakimiyyətində hansı siyasi qüvvənin olmasından asılı olmayaraq, strateji problemlərin həllində hər zaman Ermənistanı dəstəkləmiş və bu siyasi mövqeyini heç bir zaman dəyişməmişdir.

Son zamanlar ABŞ-ın İran İslam Respublikasına tətbiq etdiyi iqtisadi sanksiyalar və neftin qiymətinin kəskin ucuzlaşması nəticə etibarilə bu ölkədə siyasi rejimin dəyişməsinə gətirib çıxara bilər. Bu isə Cənubi Azərbaycan ərazilərinə muxtariyyətin verilməsi ilə nəticələnə bilər ki, bu hal gələcəkdə İran-Ermənistan gömrük postunun bağlanması ehtimalını artırır. Bütün bu riskləri nəzərə almalı olan N.Paşinyan hökuməti xarici siyasi kursunda çoxvektorlu siyasət aparmağa başlamışdır. Ancaq nəzərə almaq lazımdır ki, Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini əlində saxlamaq üçün ölkənin bütün strateji obyektlərini ya Rusiyaya satmış ya da uzunmüddətli icarəyə vermişdir. Ermənistan Rusiyaya olan 150 mln.

[23] НАХИЧЕВАНЬ В РЕГИОНАЛЬНЫХ ОТНОШЕНИЯХ И ИРАН [Elektron resurs] / – июнь 2016. URL: https://noev-kovcheg.ru/mag/2016-06/5425.html

dollar borcunun qarşılığında Metsomor Atom E.S. və Termal zavodunu Rusiyanın mülkiyyətinə vermişdir. Hətta Rusiyanın "Gazprom" şirkəti Ermənistanın bütün qaz sektorunu inhisarına almışdır. Bu faktorlar Ermənistanda hakimiyyətdə siyasi-ideoloji baxışından kimin olmasından asılı olmayaraq müstəqil siyasət aparmağı çətinləşdirəcəkdir. Eyni zamanda, Rusiya hərbi bazasının (102 nömrəli) Ermənistan ərazisində qalma müddəti 2044-cü ilə qədər uzadılmışdır. Müvafiq sənəd Rusiya Prezidenti Dmitri Medvedevin Ermənistana səfəri zamanı imzalanmışdır. Ermənistan Gümrü bazasını təhlükəsizlik "qarantı" kimi görmüş və Azərbaycanla hər hansı münaqişə vəziyyətində onlara dəstək verəcəyini düşünmüşdür. Lakin "dörd günlük müharibə" zamanı Rusiyanın bu məsələdə tarazlı və təmkinli mövqeyi bu ümidləri sarsıtmışdır. Bölgədə baş verən strateji, siyasi və iqtisadi prosesləri nəzərə alsaq, deyə bilərik ki, yaxın perspektivdə Ermənistanın enerji, təhlükəsizlik və digər məsələlərdə Rusiya ilə fikir ayrılığı yaşayacaq. Ermənistanın Rusiyadan ciddi tələbləri mövcuddur. Rəsmi İrəvan müttəfiqlik kartından istifadə edərək inkişafda olan Moskva–Bakı münasibətlərinə təsir etməyə çalışır. Belə ki, Ermənistan Rusiyanın hərbi-texniki sahədə Azərbaycanla əməkdaşlığına son qoymasını və enerji resurslarını daha ucuz qiymətə rəsmi İrəvana satmasını tələb edir. ABŞ-ın tətbiq etdiyi sanksiyalar, neftin qiymətinin kəskin ucuzlaşması, habelə qlobal silah bazarında rəqabətin şiddətlənməsi bu tələblərin Rusiya tərəfindən reallaşdırılmasını mümükünsüz edir. Ümumiyyətlə, Rusiyanın siyasi dairələrində İrəvanın Moskvaya daha çox ehtiyacı duyduğu fikri səslənməkdədir. Sadalanan faktorlar yaxın perspektivdə Ermənistan Rusiya münasibətlərində qarşılıqlı gərginliyin artmasını şərtləndirir və regionda konfiqurasiyanın dəyişməsi Azərbaycan üçün yeni imkanlar yaradır.

Beləliklə, son otuz ildir ki, Cənubi Qafqazda yuxarıda ifadə edilən problemlər hələ də davam etməkdədir. Ermənistan qonşu dövlətlər üçün real təhlükə mənbəyi olaraq qalır. ATƏT-in Minsk qrupunun

“Dağlıq Qarabağ” münaqişəsinin həlli ilə bağlı həyata keçirməyə çalışdığı sülh layihələrinin heç biri müvəffəqiyyətlə nəticələnməmiş, əksinə problemlər daha da qəlizləşmişdir. Təəsüflə bildirmək lazımdır ki, Minsk qrupunun həmsədr dövlətləri Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq səviyyədə tanısalar da, bunun təmin edilməsi üçün faktiki olaraq işğalçıya heç bir təzyiq göstərmirlər. İşğalçı (Ermənistan) və təcavüzə məruz qalan (Azərbaycan) tərəflərə fərq qoyulmaması, BMT-nin münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin icra olunmaması, işğalçıya təzyiq edilməməsi, problemlərin xarakteri, bölgə və bölgədənkənar dövlətlərin fərqli yanaşmaları, fərqli həll modelləri təklif etmələri, bölgə dövlətləri arasında qarşılıqlı inam və etibarın, güzəştlərin olmamasından Cənubi Qafqazdakı təhlükəsizlik problemləri hələ də öz həllini tapmamışdır. Belə situasiya isə bölgədə müharibə riskini getdikcə artırmaqdadır. Sülh danışıqlarının formatında dəyişikliklər etməklə, sülh prosesinə yeni meyar və prinsiplər gətirilməklə real nəticə əldə olunmayacağı aşkardır. Müharibə riskinin azaldılması üçün işğalçı (Ermənistan) ölkəyə qarşı beynəlxalq təzyiq mexanizmi işə salınmalı və işğalçını dəstəkləyən dövlətlərə qarşı sərt mövqe sərgilənməlidir.

## IV FƏSİL

## Cənubi Qafqazda böyük güclərin toqquşan geostrateji maraqlarının regional təhlükəsizliyə təsiri (siyasi təhlil)

### 4.1. Regional təhlükəsizlik mühiti

SSRİ-nin dağılması və dünyanın biopolyar strukturunun başa çatmasından sonra Avrasiya kontinentində yeni beynəlxalq əhəmiyyətli geosiyasi regionlar meydana gəldi. Qara dənizlə Xəzər dənizi arasında yerləşən Cənubi Qafqaz regionu ABŞ, Rusiya, Aİ və Çin kimi güc mərkəzlərinin yeni maraq dairəsinə çevrildi. Qloballaşma prosesinin gücləndiyi bir vaxtda beynəlxalq və regional güclərin mövcud olduğu bir region kimi Cənubi Qafqazı "geosiyasi məkan" adlandırmaq olar.

Böyük dövlətlərin Cənubi Qafqazdakı strateji maraqları həmin regiondakı dövlətlərlə münasibətləri qurarkən meydana gəlir və geostrateji maraqlar bu regionun üç dövlətinin sərhədləri çərçivəsində mövcud olur. Belə yanaşmadan çıxış edərək qeyd etmək vacibdir ki, böyük dövlətlərin Cənubi Qafqazın hər bir dövləti ilə münasibətlərinin qurulması və inkişafı prosesində meydana gələn strateji maraqları formalaşır. Eyni zamanda, region dövlətlərinin qarşılıqlı münasibətləri regionu vahid bir "siyasi məkan" formasında araşdırmağa (təhlil etməyə) imkan verir.[24]

XXI əsrin əvvəlləri milli və beynəlxalq təhlükəsizlik sahəsində radikal dəyişikliklərlə xarakterizə edilir. Bu dəyişikliklərin yaranmasının əsas səbəbi böyük (fövqəl) dövlətlərin həyati əhəmiyyətli strateji maraqlarının toqquşması ilə müşahidə edilir.

---

[24] Nəsibov, E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası / E.M. Nəsibov. – Bakı: Çıraq nəşriyyatı, – 2006. – 314 s.

Tədqiqatçılar regional təhlükəsizlik mühiti dedikdə, region dövlətlərinin həyati əhəmiyyətli maraqlarının müdafiəsi vəziyyətini başa düşürlər, bu da region ölkələrinin sabit inkişafını təmin edir. Regional təhlükəsizlik sosial ərazi birliklərinin münasibətlərində sülh vəziyyətinin olmasından kənarda anlaşıla bilməz. Mehriban qonşuluq münasibətləri onların təhlükəsizlik mövcudluğunu, sabit və davamlı inkişafını təmin edir. Eyni zamanda, qeyd etməliyik ki, regional təhlükəsizlik beynəlxalq təhlükəsizliyin tərkib hissəsi sayılır.[25] Yəni hər hansı regional təhlükə, eyni zamanda beynəlxalq təhlükəsizliyə təhdid sayılır.

Regional və milli maraqların təmin edilməsi sisteminin əsas məqsədi milli maraqların müdafiəsi və regional təhlükəsizlik mühitinin təmin edilməsi sahəsində dövlətlərin siyasətinin hazırlanması və onların reallaşdırılmasına imkan verən mexanizmin yaradılmasıdır. Ümumi görünüşdə regional təhlükəsizliyin təmin edilməsi sisteminin formalaşması regional təhdidlərə əks-təsir edir. Bu sistemin parametrləri bunlardır: tam həcmdə sistemin məqsədlərinin yerinə yetirilməsini təmin edən etibarlılıq, dövlət orqanlarının formalaşması və saxlanılmasında dövlətlərin qüvvə və vasitələrinin kifayət qədər olması, dövlət orqanlarının (qüvvə və vasitələrin) sistemin prinsiplərinin onun funksional təyinatına uyğunluğu.

Regional təhlükəsizliyin əsas komponentləri kimi dövlətlərin obyektiv tələbatlarının onların milli maraqlarında ifadəsini, bütün regional birliyin inkişaf və təhlükəsizlik tələbatlarının reallaşdırılmasını, dövlətlərin milli maraqlarının balansını və s. göstərmək olar.

Beynəlxalq təhlükəsizlik problemləri daha çox regional təhlükəsizlik komplekslərində öz əksini tapır. Amma onların regionlarda

[25] Qasımov, C. Milli təhlükəsizliyin əsasları / C.Qasımov, N.Nağıyev. – Bakı: MTN Maddi-Texniki Təminat Baş İdarəsinin NPM, – 2015. – 407 s.

təzahürü də müxtəlif olur. Regional proseslərə böyük (aparıcı) dövlətlər birbaşa və ya dolayı şəkildə təsir edir.

Müəyyən regionlarda təhlükəsizliyin yeni keyfiyyətlərinin formalaşdırılması prosesi yüksək dinamika ilə fərqlənir. Bu regionlardan biri də Cənubi Qafqaz bölgəsidir. Bu regionda hərbi-siyasi sahədə yeni, müxtəlif tendensiyalar yaranır, yeni hərbi-siyasi maraqların yaranması prosesləri gedir və regiona kənar dövlətlərin təsiri güclənir. Bu isə regionda onsuz da qeyri-sabit vəziyyəti daha da gərginləşdirir. Cənubi Qafqaz geostrateji məkan olmaqla yanaşı, unikal hərbi-siyasi, etnik və mədəni təhlükəsizlik sisteminə çevrilir.

Cənubi Qafqaz dünyanın geosiyasi xəritəsində "Xəzər-Qara Dəniz regionu" kimi perspektivli hədəflərdəndir. Xəzərin zəngin karbohidrogen yataqlarının böyük bir hissəsinin burada yerləşməsi isə, onu xüsusilə ən mühüm nöqtəyə çevirir və zəngin neft-qaz potensialına sahib olduğundan Azərbaycanı daha cazibədar edir. Qeyd etdiklərimiz Cənubi Qafqazın dünyanın geosiyasi xəritəsində mühüm mövqeyə malik olduğunu göstərir və dövlətlərin maraqlarını bu bölgəyə cəlb edir.[26]

## 4.2. Rusiyanın Cənubi Qafqaz siyasəti

Müasir beynəlxalq münasibətlər sistemində bir neçə güc mərkəzləri mövcuddur. Bunlar, əsasən, ABŞ, Avropa İttifaqı, Rusiya və Çin olaraq qəbul edilir. Bu güc mərkəzlərinin hər birinin regionda öz maraqları var. Lakin regionda bu maraqların daha radikal şəkildə toqquşduğu əsas güc mərkəzləri ABŞ və Rusiyadır.

Rusiyanın regional təhlükəsizlik siyasətinin kökündə Qərbin bölgədə mövqelərinin möhkəmlənməsinə yol verməmək üçün region ölkələrinin beynəlxalq təhlükəsizlik sisteminə çıxışını, Qərbə hərbi

---

[26] Abdullayev, F. Azərbaycan dövlətinin miqrasiya siyasəti və milli təhlükəsizliyin təminatının qarşılıqlı əlaqəsi // F.Abdullayev. "Strateji Təhlil" jurnalı, Bakı: – 2011. № 1 (2), s. 183-210.

inteqrasiyasını, bu sahədə sərbəst siyasət yeritməsini əngəlləmək cəhdi dayanır. Lakin Rusiyanın bu maraqları regionda təmsil olunan, yalnız iki dövlət – İran və Ermənistan tərəfindən razılıqla qarşılanır. Bu isə Rusiyanın bölgədəki siyasətinin effektli olması üçün yetərli deyil. Rusiyanın ənənəvi olaraq regionda təsir imkanlarını qoruyub saxlamaq üçün daxili münaqişələrə üstünlük verməsi, separatizmi dəstəkləməsi Azərbaycan və Gürcüstanı regiona yeni geosiyasi oyunçuları və güc mərkəzlərini cəlb etməyə məcbur edir. Hazırda Qərbin Cənubi Qafqazdakı mövqelərinin möhkəmlənməsinin əsas səbəblərindən biri, məhz bu amildir.

Rusiya bölgədə erməni faktorundan istər Dağlıq Qarabağ məsələsində, istərsə də Gürcüstanda ermənilərin çoxluq təşkil etdiyi Cavaxetiya, Axalkalaki və Abxaziya bölgəsindəki məsələdə də istifadə etməkdədir.

Rusiya Cənubi Qafqazda NATO-nun genişlənməsinin qarşısını almaq üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) regionda genişləndirmək kursunu tutub. 1992-ci ildə Daşkənddə Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın yaratdığı bu quruma 1993-cü ildən Azərbaycan, Gürcüstan və Belarus müşahidəçi qismində qoşuldular. Lakin KTMT-nin prinsip və şərtləri Azərbaycan və Gürcüstanı qane etmədiyindən 1999-cu ildən quruma üzvlükdən imtina etdilər. Azərbaycanın KTMT ilə müqavilə imzalamsının əsas səbəbi 1993-cü ildə Ermənistanla müharibədə yeni ərazi itkiləri idi. Ermənistanın bu uğurları Rusiyanın da qələbəsi sayılır.[27]

Rusiya Federasiyasının 2012-ci ildə qəbul edilmiş milli təhlükəsizlik konsepsiyasında göstərilir ki, MDB ölkələri Rusiyanın maraq dairəsinə daxildir və bu ölkələrdə NATO-nun hərbi

---

[27] Cornell, S. Small Nations and Great Powers. A Study of Ethnopolitical Conflict in the Caucasus / S. Cornell. – Surrey: Curzon Press, – 2001. – 490 p.

bazalarının yerləşməsinə heç bir şərtlə razı olmayacaqdır. Rusiya NATO-nun Şərqə doğru genişlənməsini milli təhlükəsizliyi üçün təhdid hesab edir və bu prosesin gerçəkləşməməsi üçün qonşu ölkələrə, hətta hərbi müdaxilədən belə çəkinmir. Rusiya 2008-ci ildə Gürcüstanla müharibə, 2014-cü ildə isə Ukrayna ilə hərbi böhran yaşamaqla beynəlxalq hüquq normalarını pozaraq dünya nizamına tabe olmamışdır. Qeyd etmək lazımdır ki, Rusiya Gürcüstan və Ukraynaya müdaxilə etmədən öncə beynəlxalq səviyyədə bu ölkələrin ərazi bütövlüyünü tanımış olsa da, müdaxilədən sonra bu mövqeyini dəyişdiyini bəyan etmişdir. Eyni zamanda, özündən asılı bəzi dövlətləri də (Venesuela, Nikaraqua) analoji addımı atmağa sövq etmişdir. Təcrübə göstərir ki, qlobal güclər üçün hər hansı beynəlxalq norma və prinsiplər formal xarakter daşıyır və bu normalar onun milli maraqlarına cavab vermədiyi təqdirdə bütün vasitələrdən istifadə edərək öz dövlətçilik maraqlarını qorumaqdan çəkinməməkdədir. Rusiyanın xarici siyasətində Cənubi Qafqazda öz maraqlarını qorumağın yolu isə bu ölkələrin hər birində öz silahlı qüvvələrini (hərbi bazaları) dislokasiya etməkdən və onların sərhəd xidmətinə nəzarətdən keçir. Eyni zamanda Rusiya post-sovet ölkələrində SSRİ dövründən qalmış agentura şəbəkəsi (5-ci kolon) vasitəsi ilə dövlətlərin daxili sisteminə təsir edə bilir. Rusiyanın Azərbaycan ərazisində "5-ci kolon" və məxfi agent şəbəkəsi həm genişlənib, həm də aktiv və aqressiv fəaliyyət göstərir.[28]

Azərbaycan Dağlıq Qarabağ (DQ) münaqişəsi həll olunmayana qədər özünün regional təhlükəsizlik məsələləri ilə bağlı mövqeyində dəyişiklik etməyəcəyini bildirmişdir. Azərbaycanın Kollektiv Təhlükəsizlik təşkilatına qoşulmaması ölkənin geosiyasi maraqları ilə yanaşı, həm də işğalçı Ermənistanın bu qurumda təmsil olunması ilə

[28] Zamanında ifşa edilməyən şəbəkə: - Ölkəni hər an təhdid edir [Elektron resurs] / – 4 iyun 2018. URL: http://www.dia.az/1/179436-zamaninda-ifsha-edilmeyen-shebeke.html

bağlıdır. Üstəlik sözügedən təşkilat Azərbaycanın əsas problemi olan DQ münaqişəsinin həlli üçün hər hansı effektiv mexanizmə malik deyil. Çünki KTMT yarandığı gündən üzv ölkələr bəyan edir ki, bu təşkilat daxili münaqişələrin həllinə deyil, xaricdən yarana biləcək təhlükələrə qarşı kollektiv tədbir görəcəkdir. Bu halda Azərbaycanın KTMT-yə üzvlüyü ölkəmizə heç bir siyasi və ya hərbi divident vəd etmir. Əksinə tam neytral mövqe nümayiş etdirən Azərbaycanın NATO ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətlərinə mənfi təsir göstərə bilər.

Cənubi Qafqazda sülh və sabitliyin regionun hərbisizləşməsindən keçdiyini düşünən Azərbaycan heç bir hərbi bloka qoşulmamaqla yanaşı, "Qoşulmama Hərəkatı"nın (QH) aktiv üzvünə çevrilmişdir. Eyni zamanda, Azərbaycan Cənubi Qafqazın təhlükəsizliyinin əsasını region ölkələrinin heç birinin hərbi bloklara qoşulmamağında və bölgənin hərbisizləşməsində görməkdədir. Belə ki, NATO-Azərbaycan ikitərəfli görüşündə çıxış edən Ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, "*Cənubi Qafqaz ölkələri müstəqil dövlətlərdir. Burada başqa ölkələrin hərbi bazalarının yerləşməsinə ehtiyac yoxdur. Şübhəsiz ki, bu amil (başqa dövlətlərin hərbi bazaları) regionda təhlükəsizliyin təmin olunmasına mane olur*".

Son zamanlar Ermənistanda gedən proseslərin fonunda Rusiyanın mövqeyində nisbi dəyişikliklər hiss olunmaqdadır. Amma Moskvanın regional proseslərə və həmçinin Cənubi Qafqazın təhlükəsizlik probleminə yanaşması əsrlərboyu formalaşmış strategiyadan hələ ki, kənara çıxmır. Rusiya Cənubi Qafqazdakı prosesləri tarixi rəqibləri olan İran və Türkiyə, həmçinin yeni rəqibləri olan ABŞ və Avropa İttifaqının iştirakı olmadan tək başına həll etməyə çalışır. Bütün bunlara rəğmən hələ ki, Rusiyanın bu iddiaları nəticə verməməkdədir. Bir çox tədqiqatçılar düşünürlər ki, Rusiya regionda münaqişə yaratmaq iqtidarında olsa da, onu təkbaşına həll etmək potensialında deyildir.

Rusiyalı analitik Aleksandr Duqin qeyd edir ki, *“Rusiyanın təhlükəsizlik sisteminə ən böyük təhdidlər, məhz Qafqaz istiqamətindən qaynaqlanmaqdadır”*. Buna görə Rusiya Cənubi Qafqaz dövlətlərinin müstəqil və ya Qərbyönümlü siyasət yeritmələrini istisna edir. Rusiya Cənubi Qafqazda baş verəcək münaqişələrin qısa zamanda Şimali Qafqaza sıçrayacağını düşünür. 1990-cı illərdə Çeçenistanda müstəqillik uğrunda mübarizə bunu deməyə əsas verir. Bu səbəbdən Rusiya regiona Qərbin yerləşməsini qəbul edə bilmir. Çünki belə olduqda münaqişə ocaqlarına nəzarət Qərbin əlinə keçəcəkdir, bu amil isə geosiyasi mövqelərin qarşıdurmasını daha da gücləndirir. Bu proseslər regionda Rusiya-Ermənistan-İran və Azərbaycan-Gürcüstan-Türkiyə bloklaşmasını şərtləndirir. Bu gün Azərbaycan-Gürcüstan-Türkiyə bloklaşmasını Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və reallaşması gözlənilən Trans-Xəzər kimi regional layihələr bu strateji müttəfiqliyi möhkəmləndirən əsas iqtisadi-siyasi amillərdən birinə çevrilib. Gürcüstan və Türkiyənin yetəri qədər təbii ehtiyatlara malik olmaması regionda Azərbaycanın geostrateji əhəmiyyətini daha da artırır.

Azərbaycanın KTMT-yə və Avrasiya İqtisadi İttifaqına (Aİİ) üzv olmasını istəyən Rusiyanın bunun qarşılığında DQ ilə bağlı bəzi güzəştlərə gedəcəyi ehtimal edilir. Lakin unutmaq lazım deyil ki, 1995-ci ildə bu məsələ Heydər Əliyevlə Rusiyanın Baş Naziri Yevgeni Primakov tərəfindən müzakirə edilmişdir. Sabiq dövlət müşaviri Vəfa Quluzadə Yevgeni Primakovun Heydər Əliyevdən Azərbaycanda kiçik də olsa, rus hərbi bazasının yerləşməsinə icazə verməsini istədiyini bildirir: *“Mən (V.Quluzadə) ondan soruşdum ki, bunun qarşılığında bütün işğal olunmuş rayonlarımız azad ediləcəkmi? Yevgeni Primakov cavabında xeyir dedi”.*[29] Bütün bunlar

---

[29] Гулузаде. В. Среди врагов и друзей / В.Гулузаде. – Баку: ОКА Офсет, – 2002. – 231 с.

bizə onu söyləməyə əsas verir ki, Azərbaycan KTMT-yə üzv olsa da, Rusiya Azərbaycana DQ-nı güzəştə getməyəcək. Əvəzində isə kiçik güzəştlərlə ən böyük sərvətimiz olan milli müstəqilliyimizi itirməklə qarşılaşacağıq.

Abxaziya, Cənubi Osetiya, Prednestrovye hadisələri göstərdi ki, Rusiyanın xaricdə yaşayan vətəndaşlarının maraqlarını qoruması Moskvanın hərbi fəallığını kifayət qədər stimullaşdıran amillərdəndir. [30]

Bu aspektdə Azərbaycanın şimal sərhədində yerləşən Xaçmaz rayonunun 2 kəndində (Xraxoba və Üryanoba) məskunlaşmış Rusiya vətəndaşlarının[31] Dağıstan ərazisinə köçürülməsi Moskvanın Bakıya real təzyiq elementlərindən birisini həll etmişdir.

Unutmaq olmaz ki, Rusiya Azərbaycanın ən çətin dövründə, DQ müharibəsi zamanı bölgədə öz hegemoniyasını bərqərar etməyə nail olmadı. Ən əsası isə Azərbaycan Müstəqil dövlətçiliyini itirmədi, öz ərazisində rus hərbi bazalarının yerləşməsini və dövlət sərhədlərinin rus hərbiçiləri tərəfindən qorunması kimi həyati əhəmiyyətli güzəştlərə getmədi. Rusiya DQ münaqişəsinin həllində vasitəçilik funksiyası ilə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyətini öz dövlətçilik maraqlarına uyğun görmür. Belə ki, Rusiyaya görə DQ münaqişəsinin həllində 4 ölkə vasitəçi olaraq iştirak etməlidir (Azərbaycan, Ermənistan, Rusiya və İran). Qərb ölkələrinin bu münaqişənin həllində iştirakı isə Rusiya üçün geopolitik olaraq qəbul edilməzdir.

DQ müharibəsində atəşkəs sazişi imzalandıqdan sonra Rusiya sülh danışıqlarında heç bir nəticə əldə olunmamasını bəhanə gətirərək,

---

[30] Эйвазов Дж. Державы и регионы: системный анализ безопасности постсоветского пространства / Эйвазов Дж.. – Стокгольм: CA&CC Press, – 2015. – 320 с.

[31] Xaçmazın iki kəndinə günəş Rusiyadan doğur [Elektron resurs] / – 15 may 2008. URL: https://www.azadliq.org/a/447768.html

Minsk qrupunun buraxılmasını və münaqişənin həlli üçün beynəlxalq mandat əldə etməsini istəməklə bölgədə rus və ya MDB ölkələri sülhməramlılarını yerləşdirməyə çalışırdı. Rusiyanın Azərbaycana çoxyönümlü təzyiqlərinə rəğmən Abxaziya və Cənubi Osetiya, Pridinestrovyedən fərqli olaraq DQ-da buna nail ola bilmədi.

Təcrübə göstərir ki, Rusiyanın hərbi bazasının mövcud olduğu hər bir ölkə onun nəzarətindədir və müstəqil siyasət həyata keçirə bilmir. Müstəqil siyasət yeritmək istədikdə isə həmin ölkələrdə Gürcüstan (2008) və Ukraynada (2014) cərəyan etmiş proseslər baş verir. Bu gün Ukraynanın Donetsk və Luqansk bölgələrinin rus separatçılarının nəzarətinə keçməsinin və Krımı Rusiyanın ilhaq etməsinin əsasında 2014-ci ildə Ukrayna hökumətinin Aİ ilə assosiativ saziş imzalamaq istəyi dayanırdı. Ukrayna-Rusiya arasında ikitərəfli hərbi anlaşmaya görə Krımda rus hərbi donanması 2042-ci ilə qədər qalmalı idi. Nəzərə almaq lazımdır ki, Ukraynanın Donetsk və Luqansk bölgələrindən fərqli olaraq, Krımın itirilməsi heç bir itki olmadan baş vermişdir. Çünki Krımda yerləşən rus donanmasının şəxsi heyəti Krımın Rusiyaya birləşdirilməsində böyük rol oynamışdır. Bənzər hadisə Moldovanın Pridinestrovya bölgəsində və Gürcüstanda rus sülhməramlılarının Abxaziya və Cənubi Osetiya ərazisində olması ilə özünü göstərmişdir.

Rusiyanın Ukrayna ilə münaqişə yaşaması rus siyasi dairələrində Ermənistan-Azərbaycan konfliktini arxa plana keçirmişdir. Belə ki, Rusiya-Ukrayna münaqişəsi Cənubi Qafqaz bölgəsini prioritet olmaqdan çıxarmışdır. Hazırda Rusiyanın siyasi gündəmi Ukrayna, qismən isə Suriya ətrafında gedən proseslərə köklənmişdir.

Son illər Rusiya Cənubi Qafqazın lider dövləti olan Azərbaycanla əməkdaşlığa daha çox həvəs göstərir. Azərbaycanın geostrateji mövqeyi, zəngin karbohidrogen rezervləri və iqtisadi potensialı Rusiyanı özünə daha çox cəlb etməkdədir. Rusiya rəsmiləri də artıq fərqindədirlər ki, Ermənistan bundan sonra onsuz da onların (orbitindən) təsir dairəsindən kənara çıxa bilməyəcək. Çünki son 20

ildə Ermənistanın bütün strateji sahələri dəmir yolu xətləri, energetika sektoru və başqa həyati əhəmiyyətli obyektləri Rusiyanın dövlət, yaxud biznes dairələrinin nəzarətinə keçmişdir. Ermənistan həm iqtisadi, həm də hərbi təhlükəsizlik baxımından Rusiyadan tam asılı vəziyyətdədir. Ona görə də Rusiya Ermənistanla münasibətlərinə xələl gələcəyindən çəkinmədən Azərbaycanla çoxvektorlu əməkdaşlığı genişləndirməkdədir. Eyni zamanda, qeyd etmək lazımdır ki, bu əməkdaşlıqda hər iki tərəf (Rusiya-Azərbaycan) maraqlıdır. Erməni siyasi dairələri Rusiyanın Azərbaycana bir tərəfdən silah-sursat satmasını, digər tərəfdən tranzit sahəsində, xüsusilə Şimal-Cənub dəhlizi kimi bir çox sahələrdə əməkdaşlıq etməsini qəbul edə bilmirlər. Hətta bu etirazlarını zaman-zaman rəsmi şəkildə elan edirlər. Eyni ab-hava erməni cəmiyyətində də mövcuddur və bütün bu narazılıqların erməni ictimaiyyətində kulminasiya zirvəsinə çatması isə 2016-cı il aprel döyüşləri ilə bağlıdır. 2016-cı il aprel döyüşləri zamanı Azərbaycan ordusunun uğurlu əməliyyatlar gerçəkləşdirməsi erməni toplumunda kök salmış yenilməzlik eyforiyasını darmadağın etmişdir. Aprel döyüşləri Azərbaycana bir çox dividentlər əldə etməyə imkan verməklə yanaşı, ermənilər arasında daxili çəkişmələrin olması və narazı kütlənin mübarizəsi üçün münbit şərait yaratmışdır. Ermənilərin aprel döyüşlərindəki məğlubiyyətləri çoxdan bəri formalaşmış klanlararası ziddiyyətləri daha da dərinləşdirməklə cəmiyyətin narazı elektoratını hakim (Qarabağ) klanına qarşı üsyana qalxmağa sövq etmişdir. Son hadisələrin fonunda Ermənistanda DQ hadisələri ilə bağlı 1980-ci illərin sonunda ortaya çıxmış "miyatsum" (birləşmək) şüarı populyarlaşmışdır.

### 4.3. ABŞ-ın Cənubi Qafqaz siyasəti

ABŞ-ın regiondakı strateji maraqlarını araşdırarkən amerikan xarici siyasətinin istiqamətləri, bölgənin coğrafi, iqtisadi və siyasi-

sosial vəziyyəti, siyasi proseslərin tarixi-xronoloji məntiqi, politoloji cəhətləri nəzərə alınmalıdır.

ABŞ-ın hazırda Cənubi Qafqaz siyasəti ümumi geosiyasi strateji maraqların təmini üçün üç istiqamətdə aparılır:

– ABŞ region dövlətləri ilə birbaşa əlaqələr qurur;

– regiondakı strategiyanın reallaşdırılması üçün Avropa dövlətlərinin köməyindən istifadə olunur;

– Türkiyənin regiondakı geniş imkanlarından faydalanır.

Regionda etnomədəni və ərazi münaqişələri hazırda geosiyasi vəziyyəti kəskinləşdirən əsas faktorlardır. Lakin bunlarla yanaşı, böyük güclərin son zamanlar Qafqazda aktivliyini artırması, Ermənistandakı son hakimiyyət dəyişikliyi və ABŞ–İran böhranı Azərbaycan üçün yeni risklərlə yanaşı, bəzi dividentlər də ortaya çıxarmışdır.

Cənubi Qafqazda ABŞ xarici siyasət həyata keçirərkən müəyyən siyasi problemlərlə üzləşir:

– SSRİ-nin süqutundan sonra Rusiya və İranın bölgədə iqtisadi, siyasi və s. sahələrdə təsir mexanizmlərinin hələ də mövcud olması;

– Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması;

– coğrafi baxımdan ABŞ-ın regiondan kifayət qədər uzaqda yerləşməsi;

– ABŞ-da təsirli erməni lobbisinin Dağlıq Qarabağ münaqişəsində ABŞ-ın obyektiv mövqe tutmasını əngəlləməsi.

ABŞ-da mövcud olan erməni icması yəhudi lobbisindən sonra ən effektiv etnik lobbi sisteminə malikdir. ABŞ-ın erməni lobbisi "Soyuq müharibə" dövründə sadəcə Türkiyə Respublikasına qarşı siyasi məqsədlərə nail olmaq üçün fəaliyyət göstərirdisə, SSRİ-nin süqutundan sonra paralel olaraq fəaliyyətini Azərbaycana qarşı yönəltmiş oldu. 1992-ci ildə "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin qəbul edilməsi (Azərbaycana ABŞ yardımını qadağan edən qanun) erməni lobbisinin Bakıya qarşı ilk uğurlu fəaliyyəti sayılır. Beləliklə, 907-ci düzəlişin qəbulu Azərbaycanı postsovet məkanında

ABŞ-ın yardımından məhrum edən yeganə ölkəyə çevirməklə, 1991–2001-ci illər ərzində Bakını beynəlxalq dəstəkdən təcrid edə bilmişdi. 2001-ci il 11 sentyabr hadisələrindən sonra Bakının Vaşinqtona verdiyi anti-terror siyasətinə dəstəyi nəzərə alan ABŞ Parlamenti 2002-ci ildən məlum düzəlişi hər il dondurmaq qərarı almışdır. Eyni zamanda, qeyd etmək lazımdır ki, erməni lobbisinin fəaliyyəti nəticəsində, son zamana qədər "Dağlıq Qarabağ" separatçılarına rəsmi olaraq yeganə maliyyə dəstəyini verən ölkə məhz ABŞ olmuşdur.

Siyasi analitiklər Azərbaycana qarşı zaman-zaman Rusiya və İrandan gələn təzyiqlərə ABŞ-ın gec münasibət bildirməsini daha çox məkan və məsafə amili ilə izah edirlər. Geosiyasi proseslərdə məkan və məsafə amili xüsusi əhəmiyyətə malikdir. Siyasi maraqların təmin olunması üçün belə amillərin nə dərəcədə çətinliklər törətməsini anlamaq çətin deyil. Məhz bu amili nəzərə alaraq, ABŞ regiondakı maraqlarını ənənəvi müttəfiqi sayılan Türkiyə vasitəsilə həyata keçirmək fikrindədir. Lakin son illər Türkiyənin xarici siyasətində Qərbdən uzaqlaşma, Rusiya ilə yaxınlaşma tendensiyaları ABŞ-ın regiondakı siyasətini çətinləşdirib.

Məşhur ABŞ politoloqu Z.Bjezinski özünün "Böyük şahmat taxtası" adlı əsərində qeyd edir ki, Qərb və Amerika, ilk növbədə Cənubi Qafqazda müstəqil siyasət yürütmək meyili nümayiş etdirən yerli dövlətləri dəstəkləməli, onları Rusiyanın geosiyasi və hərbi-geostrateji təsirindən çıxarmalı, malik olduqları milli sərvətlərini sərbəst istifadə etmək, öz maraqlarını qorumaq gücünə gətirməlidir.[32] ABŞ Cənubi Qafqazda müstəqil siyasət yürüdən ölkələrdən Azərbaycan və Gürcüstanı Mərkəzi Asiyada isə Özbəkistan və Qazaxıstanı dəstəkləməyi tövsiyə edərək, bu ölkələrin bölgə siyasətində Qərbin xüsusi marağında olduğunu bəyan edir və müxtəlif amillərlə bunu əsaslandırır.

---

[32] Həsənov, Ə.M. Xəzər-Qara Dəniz Hövzəsi və Cənubi Qafqazın Geoiqtisadiyyatı: Azərbaycanın Enerji Siyasəti / Ə.M.Həsənov – Bakı: "Zərdabi. LTD", – 2016. – 296 s .

Z.Bjezinskinin fikrincə, Xəzər hövzəsi və Cənubi Qafqazın gələcək taleyi, ilk növbədə Azərbaycan və Qazaxıstanın Rusiyadan asılılığının azaldılması və onları dəstəkləyərək Qərbə inteqrasiyasının gücləndirilməsindən asılıdır. Azərbaycanın mövqeyinin güclənməsi gələcəkdə Rusiyanın Gürcüstan və Ermənistandakı, Qazaxıstanın mövqeyinin güclənməsi isə Orta Asiyanın, xüsusən də Qərbin ciddi enerji marağında olan Türkmənistanın mövqeyinə ciddi təsir göstərəcək, bu ölkənin və Azərbaycanın enerji resurslarının sərbəst istehsalı və alternativ marşrutla Qərbə çıxarılması istiqamətində transmilli layihələrin reallaşmasını təmin edəcəkdir. Müasir dünyada Xəzər hövzəsinin rolu, hövzənin enerji ehtiyatlarının istehsalı və ixracı marşrutları ilə bağlı öz geosiyasi fikirlərini "Sivilizasiyaların toqquşması" adlı əsərində digər məşhur ABŞ alimi S.Hantinqton da söyləmişdir. O, Avrasiyanı, xüsusən də Xəzər hövzəsini XXI əsrdə dünyada yaşanacaq əsas geoiqtisadi münaqişə bölgələrindən biri kimi dəyərləndirir və hesab edir ki, hövzədə əsas qarşıdurma obyekti Xəzər neftinin sərbəst istehsalı, bölüşdürülməsi və Avropa bazarına çıxarılması ilə bağlı olacaqdır. Burada əsas mübarizə bölgənin geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqelərinə sahibolma və bu sahələrdə üstünlük qazanma uğrunda aparılacaqdır.[33]

ABŞ Prezidenti Donald Tramp Azərbaycan Xalq Cümhuriyyətinin və Ermənistan (Ararat) Respublikasının yaranmasının 100 illiyi münasibəti ilə həm Prezident İlham Əliyevə, həm də Prezident N.Paşinyana göndərdiyi təbrik məktubunda eyni bir cümlədən istifadə etmişdir: "Yaxın aylarda DQ konfliktinin həlli ilə bağlı sizin üçün yeni imkanlar yaranacaq". Donald Trampın bu məktubu təsadüfi deyil və ABŞ-ın DQ-la bağlı yeni planının olduğunu göstərməkdədir. ABŞ-ın Ermənistandakı keçmiş səfiri Riçard Millzin

---

[33] Həsənov, Ə.M. Xəzər-Qara Dəniz Hövzəsi və Cənubi Qafqazın Geoiqtisadiyyatı: Azərbaycanın Enerji Siyasəti / Ə.M.Həsənov. – Bakı: "Zərdabi. LTD", – 2016. – 296 s .

qalmaqallı etirafı praktiki olaraq Ermənistanın bütün cəmiyyətini şoka salıb. ABŞ-ın səfiri "EVN Report" nəşrinə müsahibəsindən belə söyləyib: *"İlk dəfə Yerevana gəldikdə burada görüşdüyüm ermənilərin çoxunun işğal edilmiş ərazilərin (ətraf 7 rayonun) danışıqlar prosesi çərçivəsində qaytarılmasına qəti qarşı olduğunu öyrənəndə təəccübləndim"*. R.Millz vurğulayıb ki, işğal edilmiş ərazilərin qaytarılması "Madrid prinsipləri"nin təməl şərtlərindən biridir. ABŞ hökumətinin təsəvvüründə ərazilər münaqişənin dinc həlli üçün istifadə məqsədilə işğal edilib. "Ona görə təəccübləndim ki, bu yanaşma erməni ictimaiyyətində dəstəyə malik deyil". Ermənistanı tərk edəndə sərt gerçəklik haqda danışmağa başlayan səfir: "İstənilən həll işğal edilmiş əraziərin bir qismini qaytarmağı tələb edir və ümumiyyətlə, indi status-kvo Ermənistanın xeyrinə deyil" sözləri ilə Ermənistanda bunu indiyədək anlamayanları dilxor edib.[34]

Son proseslər göstərir ki, Ermənistan–Rusiya arasında soyuqluq ikitərəfli münasibətlərdə öz əksini tapacaq. Ermənistan əhalisinin həyat tərzi yaxşıya doğru dəyişmir, bu isə SSRİ-nin süqutundan sonra postsovet məkanında müşahidə olunmuş çoxsaylı nümunələrdə olduğu kimi günahın Rusiyaya atılmasına şərait yaradacaqdır. Bundan əlavə, getdikcə pisləşən və Cənubi Qafqaza da təsir etməsi qaçılmaz olan qlobal şərait də nəzərə alınmalıdır. Hətta Ermənistan hökumətinin Qərblə heç bir əlaqəsi olmadığı versiyasını qəbul etsək belə, Qərb özü Ermənistanı sakit buraxmaq fikrində deyil. Belə ki, Qərb artıq anti-İran proqramı adı altında özünün region üçün nəzərdə tutduğu proqramını fəal şəkildə formalaşdırmağa başlayıb.[35]

---

[34] Vaşinqton Ermənistanı niyə qorxudur – Qarabağ savaşında sülh əvəzinə işğal edilmiş ərazilər ? – Təhlil: [Elektron resurs] / – 20 oktyabr 2018. URL: https://bit.ly/3aejWYC

[35] İrəvanda durum pisləşir, Kreml heç nə edə bilmir, Qarabağ…: [Elektron resurs] / – 25 oktyabr 2018. URL: https://axar.az/news/siyaset/318742.html

ABŞ-ın ən böyük səfirliklərindən biri (kontingentinə görə) məhz Ermənistanda yerləşir. Qeyd edək ki, 1991–2019-cu illər ərzində ABŞ postsovet məkanında adambaşına düşən ən böyük (2 milyard dollardan çox) yardımı fərqli humanitar və texniki yardım proqramları vasitəsilə Ermənistana göstərib.[36] Bu fakt öz-özlüyündə ABŞ-ın Ermənistandakı maraqlarının nə qədər prioritet olduğunu sübut edir.

ABŞ Prezidenti Donald Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Rusiyadan sonra 24–26 oktyabr 2018-ci il tarixində Cənubi Qafqaz ölkələrinə səfər etmiş və regionda üç əsas məsələ müzakirə olunmuşdur. Birincisi, Rusiya ilə hələ Mixail Qorbaçov dövründə imzalanmış yaxın və orta mənzilli raketlərlə bağlı razılaşmadan ABŞ-ın çıxmaq istəyidir. İkinci məsələ isə ABŞ-İran böhranı (ABŞ-ın İranla bağlı məsələsi həm Rusiyada, həm Azərbaycanda, həm də Ermənistanda müzakirə mövzusu olub), üçüncü məsələ isə DQ münaqişəsi ilə bağlıdır. Eyni zamanda, istisna deyil ki, Azərbaycanda enerji məsələləri də müzakirə olunub. Belə ki, ABŞ uzun illərdir ki, Azərbaycanın neft, qaz, dəmir yolu strategiyasına ciddi dəstək verir. Hazırda Trans-Xəzər layihəsi ilə bağlı aktiv müzakirələr getməkdədir. Trans-Xəzər layihəsində əsas maraqlı ölkə Türkmənistan və Qazaxıstan olsa da, bu layihə Azərbaycanın tranzit ölkə olaraq regionda əhəmiyyətini daha da artıracaqdır. Rusiya, Çin və İran arasında sıxışmış Türkmənistan və Qazaxıstan öz təbii qazını Avropa bazarlarına çıxartmağın yollarını axtarır. Ancaq Avropa kimi nəhəng potensiala malik olan bazar hələ ki bu ölkələr üçün əlçatmazdır. Avropa bazarına çıxış isə məhz Trans-Xəzər enerji layihələri ilə mümkündür və Azərbaycan ərazisindən keçməlidir.

[36] Ermənistanın "Vaşinqton təşvişi": ABŞ Azərbaycana 100 milyon dollar həcmində hərbi yardım edəcək?: [Elektron resurs] / – 19 İyul 2019. URL: https://ordu.az/az/news/152194/ermenistanin-vasinqton-tesvisi-abs-azerbaycana-100-milyon-dollar-hecminde-herbi-yardim-edecek-

Trans-Xəzər layihəsinin reallaşması həm Avropa, həm də Qazaxıstan və Türkmənistanın Azərbaycandan asılılığını artıracaqdır. Bu isə Qazaxıstan-Türkmənistan-İran (hava yolu ilə) üzərindən keçməklə Rusiyadan Ermənistana göndərilən hərbi təyinatlı yüklərin daşınmasını çətinləşdirəcəkdir.

C.Boltonun bölgəyə səfəri göstərdi ki, ABŞ-ın bölgədə böyük maraqları var və Vaşinqton regionda öz maraqlarını qorumaq niyyətindədir. Eyni zamanda, ABŞ Cənubi Qafqazda öz təsirini artırmaq istəyir. C.Bolton Bakı səfərində belə deyib: *"Biz Cənubi Qafqazı ABŞ üçün strateji baxımdan fövqəladə vacib region sayırıq. Xüsusilə burada söhbət Azərbaycandan gedir. O, Rusiya və İranla eyni anda sərhəd olan yeganə ölkədir. Biz bu sanksiyalar siyasətini çox aktiv şəkildə həyata keçirmək niyyətindəyik. Amma biz bununla Azərbaycandakı dostlarımıza zərər vurmaq istəmirik. Mən əminəm ki, biz hər iki tərəf üçün məqbul olan, həm Azərbaycana zərər verməyən və həm də İrana maksimal təzyiq üçün şərait yaradan variant tapacağıq".* C.Bolton ABŞ Prezidenti Donald Trampın öz səlahiyyətlərindən istifadə edərək, Azərbaycana dövlət yardımını yasaqlayan 907-ci düzəlişi ləğv edə biləcəyini də söyləyib. ABŞ-ın bu prosesdə əsas istinad nöqtəsi kimi Azərbaycanı seçdiyi görünür və Azərbaycanın maraqları ABŞ-ın, eləcə də onun müttəfiqləri olan Avropadakı ölkələrin səyləri ilə üst-üstə düşür. Bundan başqa, Azərbaycan öz ərazisi vasitəsilə ABŞ-ın Əfqanıstandakı hərbi kontingentinin təchiz edilməsində çox böyük rol oynayır. Qərbdən Əfqanıstana daşınan yüklərin 80%-i Azərbaycanın nəqliyyat yolları ilə həyata keçirilir və Azərbaycanın hərbi birliyi Əfqanıstanda sülhü qoruma missiyasını yerinə yetirir". Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyasının əhəmiyyətini vurğulayan ABŞ-ın müdafiə naziri Ceyms Mettis isə bildirib ki, "Əfqanıstanda bu gün əldə edilən

uğurlar Azərbaycanın güclü dəstəyi olmadan mümkün ola bilməzdi”.[37]

Beləliklə, ABŞ C.Boltonun simasında postsovet dönəmində ilk dəfə bəyan edir ki, Cənubi Qafqaz təkcə Rusiyanın təsir zonası deyil və ABŞ yaxın zamanda regionla bağlı bəzi addımlar atacaq. Belə ki, 907-ci düzəlişin ləğvi, Azərbaycan və Ermənistana NATO silahlarının satışına qadağanın qaldırılması kimi məsələlərin həlli görünməkdədir. Azərbaycanın ABŞ-dan silah alması prosesinin Vaşinqtondakı erməni lobbi təşkilatlarının maneəsi ilə qarşılaşmaması üçün ilk mərhələdə Xəzər Hərbi donanmamıza bəzi yeni silahların alınması məqsədəuyğundur. Belə olduqda ABŞ-ın erməni lobbi təşkilatları bu silahların Dağlıq Qarabağ münaqişəsi üçün nəzərdə tutulduğunu iddia edə bilməyəcək, perspektivdə isə ABŞ-Azərbaycan hərbi əməkdaşlığını daha geniş müstəvidə inkişaf etdirmək mümkün olacaqdır. Gələcəkdə 907-ci düzəliş və “Cekson-Venik düzəlişi” ləğv olunarsa və ABŞ-Azərbaycan hərbi əməkdaşlığı inkişaf etdirilərsə, Rusiya və İranın regionda təsiri minimuma enəcək, Dağlıq Qarabağ münaqişəsinin taleyi Moskvanın inhisarçılığından çıxarılacaq, regionun Qərbə inteqrasiyası sürətlənəcəkdir.

ABŞ-Azərbaycan münasibətlərinin inkişaf trayektoriyasına nəzər yetirdikdə hər iki dövlətin regionda strateji maraqlarının uyğunluğu dövlətlərarası münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir. Lakin ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirsə də, bunun təmin edilməsi üçün faktiki olaraq heç bir iş görməməsi ikili münasibətləri zədələməkdə və Vaşinqtonun Minsk qrupunun həmsədri olaraq tərəfsiz vasitəçilik missiyasına kölgə salmaqdadır.

---

[37] ABŞ İrəvana şərt qoydu: Bakıya isə “zərər vurmamaq” üçün...: [Elektron resurs] / – 25 oktyabr 2018. URL: https://axar.az/news/gundem/318824.html

## 4.4. Ermənistanda dəyişən siyasi dinamikanın regiona təsiri

1990-cı illərdə Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəyə başlaması və 20% torpağını işğal etməsi regionun təhlükəsizlik strukturunu zədələmişdir. Ermənistan aqressiv siyasəti ilə region üçün təhlükə mənbəyinə çevrilmiş və bütün Qafqazda separat hərəkatları alovlandırmışdır. 1990-cı ildən Ermənistanda prezident olan Levon Ter-petrosyan 1998-ci ildə hakimiyyətdən getdikdən sonra dövlət idarəçiliyinə DQ klanından olan Robert Köçəryan gəldi və bununla DQ klanının hakimiyyəti başladı. Bu klanın davamı olaraq isə 2008-ci ildə Serj Sarkisyan hakimiyyəti ələ keçirməklə DQ klanı Ermənistanın bütün sahələrində dərin kök saldı.

Son zamanlar Ermənistanda gedən proseslər regionun gələcək perspektivinin müəyyənləşdirilməsində olduqca əhəmiyyətlidir. Ermənistanda konstitusion dəyişiklik edildi və ölkə ilk dəfə olaraq prezident üsul idarəsindən parlament idarəçilik sisteminə keçid etdi. Sarkisyan 2 dəfə (10 il) prezident olduqdan sonra Baş Nazir olmaq iddiası ilə çıxış etdi və ölkədə etiraz aksiyaları başladı, siyasi cəhətdən vəziyyət gərginləşdi. Ölkədə başlayan aksiyalar səngiməyincə Sarkisyan Baş Nazir postuna iddialarından əl çəkmək məcburiyyətində qaldı. Beləliklə, 2018-ci il mayın 7-də iğtişaşların genişlənməsindən çəkinən hakim elita parlamentarilərin əksəriyyətinin dəstəyi ilə narazı elektoratın nümayəndəsi olan Nikol Paşinyanı Baş Nazir seçmək məcburiyyətində qaldılar. Ermənistan parlamentinin əksəriyyətinin köhnə elitanın (Respublikaçılar Partiyası) üzvləri olması səbəbindən Paşinyan dekabrın 9-da növbədənkənar seçkilərin keçirilməsinə qərar verdi. Çünki Paşinyan anlayırdı ki, Ermənistan Parlamentində DQ klanının deputatlarının əksəriyyət təşkil etməsi onun hər an impiçmentlə hakimiyyətdən uzaqlaşdırılmasını mümkün edir.

Ermənistanda baş verənlər onu deməyə əsas verir ki, ölkənin siyasi kursunda ciddi parçalanmalar mövcuddur. Bu parçalanmanın tərəfləri isə DQ klanı və Ermənistan erməniləridir. Ermənistandakı

iğtişaşların fundamental səbəbini isə iki faktora bağlamaq mümkündür. Birinci faktor Ermənistan–Azərbaycan münaqişəsi və bu konfliktdən irəli gələn fəsadlarla bağlıdırsa, ikinci faktor son zamanlar ABŞ-ın İran İslam Respublikasına qarşı yeritdiyi təcridetmə siyasətidir. Qeyd edilməlidir ki, bunlarla yanaşı, Ermənistanda iqtisadi, siyasi və demoqrafik problemlər də mövcuddur. Lakin bu qüsur hakimiyyətin DQ klanından Ermənistan klanının əlinə keçməsi ilə ortaya çıxdı. Ermənistanda qarşıdurma tərəfi olan bu iki qüvvənin arxalandığı həm daxili, həm də xarici qüvvələr fərqlidir. DQ klanı ənənəvi olaraq Rusiyaya, Paşinyanın liderliyində Ermənistan komandası isə Qərb ölkələrinə arxalanır. Paşinyan komandası 1998-ci ildə Levon Ter Petrosyanın devrilməsini, 1999-cu ildə parlamentin güllləbaran olunmasını, 2008-ci il mart hadisələrini və 2016-cı il aprel döyüşləri kimi faktları DQ klanının ayağına yazır. Belə faktlar isə hakimiyyət uğrunda mübarizəni daha kəskin formata keçirir. Nəzərə almaq lazımdır ki, Ermənistandakı gərgin vəziyyət həm siyasi, həm də coğrafi bölünmə ilə müşahidə olunur. Proseslərin getdiyi ən gərgin ərazilər Azərbaycanın işğal edilmiş bölgələridir. Orada yerləşən silahlı dəstələrin bəziləri DQ klanını, bir qismi isə Paşinyanı dəstəkləyirlər. Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində qondarma qurumlar yaradıb və bu qurumlar (qondarma "Dağlıq Qarabağ Respublikasının Prezidenti" Bako Saakyan) Paşinyan hakimiyyətinə qarşı çıxır.

Ermənistanda cərəyan edən bu proseslərin fonunda bəzi analitiklər Serj Sarkisyanın hakimiyyəti dinc vasitələrlə rəqibi Nikol Paşinyana ötürməsi faktını birmənalı qarşılamırlar. Səbəb olaraq isə son illər Sarkisyan hakimiyyətinin müttəfiqi olan Rusiyadan narazı olması faktını göstərməklə, analoji olaraq Sarkisyanın apardığı Qərbmeyilli siyasi kursun V.Putin hökumətini qıcıqlandırdığını da qeyd edirlər. Belə ki, Sarkisyanın hakimiyyəti dövründə Ermənistanın KTMT-nin üzvü olmasına rəğmən NATO-nun bütün sülh və tərəfdaşlıq proqramlarında aktiv iştirak edirdi və son zamanlar Avropa İttifaqı ilə

assosiativ saziş imzalamağı planlaşdırırdı. Bütün bu faktlar Rusiyanın Ermənistandakı Sarkisyan rəhbərliyinin cəzalandırılmasında maraqlı olduğunu göstərir. Sarkisyanın hakimiyyətdən getməsi üçün isə onun səhra komandirliyindən böyük siyasətə gəlmiş, məğlubedilməz imicinin sarsıdılmasından keçirdi. Çünki Sarkisyan DQ uğrunda gedən döyüşlərdə Azərbaycan üzərində "qələbə qazanmış hərbçi" imicini əldə etmişdi. Azərbaycan 2016-cı ilin dörd günlük aprel döyüşlərindən sonra bu imicin sabun köpüyündən başqa heç nə olmadığını ortaya qoymuş oldu. Dörd günlük aprel döyüşlərində Rusiya Ermənistan və Azərbaycana regionda əsas söz sahibi olduğunu göstərmək məqsədilə atəşkəs prosesini öz rəhbərliyi altında bərpa etdi. Rəsmi Moskva erməni cəmiyyətindəki narazılıqları nəzərə alaraq Paşinyanın hakimiyyətə gəlməsinə əngəl olmadı. Bəzi analitiklərin fikrincə, Rusiyadan asılı olan Ermənistanda Qərbyönümlü, təcrübəsiz və formalaşmamış komandaya malik Paşinyanın hakimiyyətə gəlməsi uğursuzluqla nəticələnəcəkdir. Bununla da Rusiya strateji planda erməni ictimaiyyətində mövcud olan Qərb simpatiyasını alt-üst etmək və Ermənistanda öz alternativsizliyini bərqərar etmək məqsədi güdməkdədir. Bənzər senarinin 1990-cı illərdə Azərbaycanda hakimiyyətə gəlmiş ruspərəst Ayaz Mütəllibov hakimiyyətinin Qərbpərəst Əbülfəz Əliyevin simasında dəyişdirilərək sınaqdan çıxarılmasını qeyd edənlər də az deyil.

Məlumdur ki, Qərb ölkələrində kökləşmiş erməni diasporası mövcuddur və onlar Ermənistan dövlətinin siyasətinə ciddi təsiretmə və yönləndirmə imkanlarına malikdirlər. Qərb dövlətləri Erməni diasporası vasitəsilə Ermənistanda anti-rus əhval-ruhiyyəsinin formalaşmasında böyük paya malikdir. Erməni ictimaiyyəti düşünür ki, Ermənistan Rusiyadan bu illər ərzində maksimum dərəcədə faydalanmışdır və bundan sonra sanksiyalarla üzləşmiş Rusiyanın onlara verə biləcəyi imkanlar resursu tükənmişdir. Belə ki, Ermənistan Azərbaycan ərazilərini işğal etmiş və 1995-ci ildə KTMT-yə daxil olmaqla öz təhlükəsizliyini nisbi də olsa təmin edə

bilmişdir. İndi isə ermənilər ölkələrinə real investisiyaların yatırılmasını və iqtisadi inkişafın olmasını istəyirlər. Eyni zamanda, anlayırlar ki, sanksiyalarla üzləşən Rusiya bunu etmək iqtidarında deyil. Azərbaycan isə ilbəil neft və qaz satışından gələn gəlirlər vasitəsilə inkişaf etməkdə və hərbi potensialını genişləndirməkdədir. Ermənistanda isə iqtisadi və demoqrafik sahələrdə tənəzzülün sürətlənməsi fonunda ermənilər ölkələrinə investisiya cəlb etməyin yeganə mənbəyini Qərblə əməkdaşlıqda görürlər. Lakin ziddiyyət burasındadır ki, ölkədə Qərbpərəst siyasət yürüdülməsə Qərb investisiyası Ermənistana gəlməyəcək. Qərbpərəst siyasətin yürüdülməsi isə Ermənistanın Rusiyanın orbitindən çıxması deməkdir, bu isə rəsmi İrəvanın təhlükəsizlik qarantiyasından məhrum olmasına gətirib çıxara bilər. N.Paşinyanın erməni xalqına vədi bundan ibarətdir ki, Rusiya bizim təhlükəsizliyimizi, Qərb isə bizim iqtisadi inkişafımızı təmin edəcəkdir. Bu ziddiyyətli fikirlərin elmi əsası görünməsə də, durğunluqdan bezən erməni ictimaiyyəti dəyişiklik tərəfdarıdır.

Dekabrın 9-da Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərində Baş Nazir vəzifəsini icra edən Nikol Paşinyanın “Mənim addımım” bloku ciddi fərqlə rəqiblərini üstələdi və parlamentdə üstünlüyü təmin etdi. Digər rəqiblərin sıradan çıxması Paşinyanın yaradacağı hökumətin fövqəladə və geniş səlahiyyətlər əldə etməsinə gətirib çıxaracaqdır. R.Koçaryanın həbsi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sabiq baş katibi Yuri Xaçaturovun istintaqa cəlb olunması onu göstərir ki, N.Paşinyan “Qarabağ klanı”na qarşı tədbirləri sərtləşdirəcək ki, bu da daxili qarşıdurmanı daha da şiddətləndirəcəkdir. Ermənistan parlamentində keçmiş prezident Serj Sərkisyanın rəhbərlik etdiyi Respublika Partiyasının 4,6% civarında səs toplaması Rusiya amilinin Ermənistanda mövqeyinin zəifləməsini göstərməkdədir. Digər bir nəticə isə ondan ibarətdir ki, Paşinyan artıq təkbaşına hökumət formalaşdırmaqdan başqa,

parlamentdə də çoxluğu təmin edəcəkdir.[38] Bu da o anlama gəlir ki, bundan sonra Paşinyan bir çox strateji-siyasi qərarları parlamentdən maneəsiz keçirə biləcəkdir. Ermənistan konstitusiyasına görə bütün qərarlar birbaşa Prezidentin səlahiyyətləri çərçivəsində təkbaşına qəbul edilmir, burada məsuliyyəti, əsasən, parlament daşıyır. Bu da Paşinyan hökumətinə şərait yaradır ki, Ermənistanın prioritet məsələsi olan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilən qərarları parlamentin üzərinə yükləsin və beləliklə, məsuliyyəti onunla paylaşmış olsun.

Lakin N.Paşinyanın hakimiyyətdə möhkəmlənməsi üçün bir neçə mərhələdə uğur qazanması zəruridir:

1. "Dağlıq Qarabağ"da "prezident seçkiləri"ndə N.Paşinyanın tərəfdaşının seçilməsi;

2. Konstitusiya məhkəməsinin səlahiyyətlərinin məhdudlaşdırılması (referendum yolu ilə);

3. Qarabağ klanının nəzarətində olan media orqanlarına nəzarəti təmin etmək;

4. Qarabağ klanının hazırkı lideri S.Sarkisyanın həbs edilməsi.

31 may 2019-cu ildə Ermənistan parlamentində aprel döyüşlərini araşdıracaq komissiyanın məhz S.Sarkisyanın həbs edilməsi üçün qurulduğu ehtimal edilir.

Aprel döyüşləri zamanı Ermənistan ordusunda çox sayda əsgər itkisi, hərbi texnika üçün yanacaq çatışmazlığı, ərzaq təminatında yaşanan problemlər, gecəgörmə cihazlarının yetərsizliyi və ən əsası ölkə rəhbərliyinin yalnış qərarlar qəbul etməsi N.Paşinyanın S.Sarkisyana qarşı əlini gücləndirməkdədir.

Lakin Ermənistanda aprel məğlubiyyətindən sonra N.Paşinyanın hakimiyyətə gələrək "Dağlıq Qarabağ Ermənistandır" bəyanatını verməsi, bu məsələdə güzəştə getməyəcəyini açıq şəkildə bildirməsi

---

[38] Ermənistan parlamenti Qarabağı Azərbaycana qaytara bilər, Paşinyan isə... – SENSASİYALI SÖZLƏR: [Elektron resurs] / 11 dekabr 2018. URL: https://bit.ly/396lxzy

və danışıqlar prosesini uzatmaq üçün yeni ("Dağlıq Qarabağ"ın 3-cü tərəf kimi çıxış etməsi) təkliflə çıxış etməsi erməni xalqının milli (etnik) psixologiyasının xarakterik xüsusiyyətlərindəndir. "Minsk qrupu"nu danışıqlar prosesindən kənarlaşdırmaq və Azərbaycanla birbaşa əlaqə saxlamaq istəyən N.Paşinyanın danışıqlar prosesini uzatmaqla hakimiyyətdə möhkəmlənmək üçün vaxt qazanmaq niyyətindədir.

Beləliklə, 2016-cı il aprel döyüşlərində Azərbaycanın Ermənistan üzərində psixo-taktiki üstünlük qazanaraq erməni cəmiyyətinin ictimai fikrinə güclü təsir etməsi, belə, düşmənin siyasi mövqeyində yumşalmağı deyil, daha çox radikallaşma hissini formalaşdırdı. Erməni xalqının etno-psixologiyasını və Azərbaycana qarşı ərazi iddialarından diplomatik yolla güzəştə getməyəcəyini nəzərə alsaq, münaqişənin yeganə həll variantı kimi müharibə yolu daha real görünməkdədir. Ermənistanı hərb meydanında məğlub etməyin yolu isə onun müttəfiqlərinin tərəfsizləşdirilməsi prosesi ilə mümkündür.

### 4.5. Məngənədən çıxış yolları

Dünyada gedən yeni tendensiyalar beynəlxalq münasibətlər sisteminə təsir etməkdədir. Beynəlxalq münasibətlər sistemində 2000-ci illərdə Kosova amili (müqəddəratını təyinetmə) təsirli idisə, hazırda Krım amili (ərazi bütövlüyü) dominant rol oynayır. Azərbaycan dövlətçiliyinə qarşı yaranmış təhdidlərdən özünü qorumaq üçün optimal çıxış yolları axtarmaqdadır. Güc mərkəzlərinin maraqlarının toqquşduğu geostrateji region olan Cənubi Qafqazda yerləşən Azərbaycanın təhlükəsizliyini təmin etməyin yolu Finlandiyanın neytralitet modelini tətbiq etməkdir. II Dünya müharibəsindən sonra SSRİ tərəfindən işğal təhlükəsi ilə üzləşən Finlandiya 6 aprel 1948-ci ildə SSRİ-ilə əməkdaşlıq haqqında saziş imzalamaqla öz müstəqil dövlətçiliyini qoruya bildi. Bu sazişlə Finlandiyadan SSRİ-nin bəzi strateji maraqlarının tanınması tələb olunurdu (məsələn, heç bir hərbi bloka qoşulmamaq və öz ərazisində başqa

dövlətlərin hərbi bazalarını yerləşdirməmək). Əvəzində isə Finlandiyaya bazar iqtisadiyyatına söykənən, demokratik dövlət qurmağa icazə verilirdi. Bu saziş Finlandiyanın heç bir hərbi bloka qoşulmasına icazə verməsə də, hərbi sahədə NATO ilə 1994-cu ildə "Sülh Naminə Əməkdaşlıq (SNT)" proqramına qoşulmaqla Bosna-Herseqovina, Kosova və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etməyə, sərhəd toxunulmazlığını təmin etməyə, iqtisadi sahədə Avropa İttifaqı (1995) kimi əhəmiyyətli təşkilatlara üzv olmağa mane olmadı. Hazırda Finlandiya Avropanın ən təhlükəsiz və inkişaf etmiş ölkələrindəndir.

Beynəlxalq hüquq normalarına əsasən, neytralitet iki formada mümkündür:

1. öncədən elan olunmuş və dünya ölkələri tərəfindən tanınmış neytralitet (məsələn, İsveçrə).

2. regionda hər hansı hərbi münaqişə (müharibə) baş verdiyi zaman elan olunmuş neytralitet (məsələn, Finlandiya).

Regionda Azərbaycanın müstəqilliyi, suverenliyi və milli dövlətçiliyi üçün geopolitik olaraq ən böyük təhdid Ermənistandan və onu dəstəkləyən dövlətlərdən qaynaqlanmaqdadır. Ermənistan Azərbaycanın 11 inzibati rayonunu işğal etməklə 1 milyona yaxın sakinini məcburi köçkün statusunda yaşamağa vadar etmişdir. Ermənistanı dəstəkləyən dövlətlər sırasında Rusiya və İran başda gəlməkdədir. Bu ölkələrin Ermənistanı Azərbaycana qarşı dəstəkləmələrinin əsas səbəbi isə Azərbaycana bu üsulla təzyiq etmək, dövlətimizin Qərblə məsafəli siyasət yeritməsinə nail olmaq, ən əsası isə ABŞ (NATO) güclərinin ölkəmizin quru və dəniz (akvatoriya) ərazisində yerləşməsinə imkan verməməkdir. Regionda İran və Rusiyanın maraqlarını ABŞ-ın bölgəyə yerləşməsini önləmək siyasəti birləşdirir. İran ABŞ-ın ağır sanksiyalarının təsirində Xəzərin statusu ilə bağlı öncəki iddialı mövqeyindən (İran əvvəllər Xəzərin bərabər hissələrə bölünməsini istəyirdi) əlçəkərək 12 avqust 2018-ci ildə Xəzərin statusu ilə bağlı yekun konvensiyanın imzalanmasına

razı oldu. Çünki bu konvensiyada İran və Rusiyanın Xəzər regionunda (akvatoriyasında ) özləri üçün təhdid hesab etdikləri ABŞ və NATO gəmilərinin dənizə çıxışını əngəlləyəcək müddəa öz əksini tapmışdır. Təcrübə göstərir ki, bütün bu risk və təhdidləri minimuma endirməyin və Azərbaycanın geopolitik təhlükəsizliyini təmin etməyin yolu Ermənistanı dəstəkləyən və hər vəchlə himayə edən ABŞ-ın sanksiyalarının altında əzilən Rusiya və İranı neytrallaşdırmaq üçün regionda onların bəzi geostrateji maraqlarını nəzərə almaqdır. Regionda Rusiya və İranı neytrallaşdırmağın yolu isə ABŞ-ın (NATO) Azərbaycanda hərbi bazalarının yerləşməyəcəyinə, dövlətimizin heç bir hərbi alyansa (bloka) qoşulmayacağına, ölkənin ərazisindən bu dövlətlərə (Rusiya və İran) qarşı tranzit olaraq istifadə edilməyəcəyinə təminat verməklə mümkündür. Bütün bu güzəştlər Azərbaycanın Qərbə inteqrasiyasına, Aİ-yə üzv olmasına, silahlı qüvvələrinin NATO standartlarına uyğunlaşdırılmasına, NATO-nun sülhməramlı əməliyyatlarında iştirak etməsinə, karbohidrogen resurslarının Qərb bazarlarına çıxarılmasına mane olmayacaqdır. Əvəzində isə Rusiya və İranın Dağlıq Qarabağ məsələsində mövqeyini neytrallaşdıracaq və qısa zaman ərzində Azərbaycan Silahlı Qüvvələrinin "blitskrig" əməliyyatı ilə işğal olunmuş ərazilərini azad etmək, məcburi köçkünləri yurdlarına qaytarmaq, sərhəd toxunulmazlığını təmin etmək, xalqda psixo-mənəvi (məğlubiyyət) travmanı bərpa etmək və ən əsası öz əraziləri üzərində suveren hüquqlarını bərpa etmək imkanını əldə edəcəkdir.

Beləliklə, Qlobal güclər arasında rəqabət artdığı müddətdə Cənubi Qafqazda qarşıdurma və toqquşmalar artmaqda, əməkdaşlıq təmin edildikdə isə bölgədə sabitlik və inkişaf yaranmaqdadır. XX əsrin sonunda müstəqil dövlətçiliyini bərpa etmiş Azərbaycan üçün böyük dövlətlərin geostrateji maraqlarının toqquşduğu bu bölgədə öz milli dövlətçiliyini, suverenliyini və milli maraqlarını qorumaq olduqca əhəmiyyətli və çətindir. Böyük güclər (ABŞ və Rusiya) "Soyuq müharibə" dövründə olduğu kimi, üçüncü dövlətin ərazisində

toqquşmağa üstünlük verirlər. Onların Cənubi Qafqazı müharibə poliqonuna çevirmə cəhdlərinin qarşısının alınması yolu isə toqquşan geostrateji maraq və mənafelərin uzlaşdırılması ilə mümkündür. Güc mərkəzlərinin Cənubi Qafqaz uğrunda apardığı barışmaz mübarizəsində hələ də heç bir tərəf regionda tam nəzarəti əldə edə bilməmişdir.

# V FƏSİL

## Qoşulmama Hərəkatı Azərbaycanın milli təhlükəsizlik siyasətinin prioriteti kimi

### 5.1. Qoşulmama siyasəti: çağırışlar və perspektivlər

Qoşulmama Hərəkatı (QH) dünya arenasında İkinci Dünya müharibəsi başa çatandan az sonra meydana gəlmişdir. Onun yaranması dünya siyasətinin və beynəlxalq münasibətlərin aşağıdakı amilləri ilə müəyyən edilib:

1. Dünya müstəmləkə sisteminin dağılması, iqtisadi müstəqilliyə nail olmağa və siyasi müstəqilliyi möhkəmləndirməyə çalışan yeni dövlətlərin – beynəlxalq hüququn müstəqil subyektlərinin yaranması.
2. Dünyanın iki əks sosial-iqtisadi sistemə parçalanması, "soyuq müharibə"nin başlanması, çoxsaylı hərbi-siyasi ittifaqların – blokların yaranması.

İkinci Dünya müharibəsindən sonra bipolyar dünyanın yaranması və iki hərbi blokun (NATO və Varşava Müqaviləsi) formalaşması müxtəlif ölkələr arasında intensiv rəqabət yaratdı. İki düşmən blok arasında effektiv həyat strategiyasının axtarışı qaçılmaz olaraq balanslaşdırılmış siyasət tələb edirdi.

Bu kontekstdə zəif inkişaf etmiş ölkələrdə öz maraqlarının ümumi müdafiəsi üçün səyləri birləşdirmək, öz müstəqilliyini və suverenliyini möhkəmləndirmək və özünü "qoşulmamış" elan edərək, sülhə sadiqliyini bəyanetmə zərurəti yaranıb. Bu proses nəticədə QH-nin yeni Təşkilatının formalaşması ilə başa çatdı. O, əvvəlcə konsepsiya, sonra siyasi kurs, hərəkat, daha sonra isə xarici siyasət və nəhayət,

beynəlxalq hüquq prinsipi kimi formalaşmışdır. QH-nin bəyan edilmiş başlıca məqsədi "soyuq müharibə" dövrünün iki qüdrətli dövlətinə – Birləşmiş Ştatlara və Sovet İttifaqına qoşulmaq istəməyən ölkələr üçün həyat qabiliyyətli platformanı asanlaşdırmaq və təmin etməkdən ibarət idi. Keçmişdə bu, QH-yə can atan ölkələrə

hərbi alyanslarda iştirakdan çəkinməyə imkan verirdi. Faktiki olaraq, qoşulmama bu ölkələrdə azad və müstəqil suveren millət kimi yaşamanın strategiyası idi. QH bir çox ölkələrin müstəmləkə hökmranlığından qurtulmağa çalışdıqları qeyri-sabit vaxtda meydana çıxmışdır. Bundan başqa, silahlanma yarışı planet üçün böyük təhlükə yaradırdı.

"Qoşulmama" termini ilk dəfə Corc Liska tərəfindən elmi dövriyyəyə daxil edilmişdir. O, İkinci Dünya müharibəsindən sonrakı illərdə dünya siyasətində iki güc blokundan heç birinə qoşulmamağa qərar verən dövlətlərin bu siyasətini belə təsvir etmişdir. Qoşulmama haqqında qərar, sadəcə, idealist neytrallıq arzusu deyildi, əksinə, ayrı-ayrı ölkələrdə geosiyasi vəziyyətin real qiymətləndirilməsinə əsaslanırdı. Bu həmin ölkələrə öz maraqlarına uyğun manevr etmək, "soyuq müharibə" çərçivələri ilə kifayətlənməmək imkanını verdi. Geriyə baxanda belə yanaşmanın nəticələri üzə çıxır.

QH NATO və Varşava Müqaviləsinin "soyuq müharibə"yə cəlb olunması səylərinə qarşı durmaq istəyən ölkələr tərəfindən yaradılıb. D.F.Dalles və H.Kissincer kimi bəzi siyasətçi və ekspertlərin tənqid və skeptisizminə baxmayaraq, QH hərəkat və strategiya kimi "soyuq müharibə" dövründə fəaliyyət göstərmişdir. 1991-ci ildə Sovet İttifaqının dağılması Birləşmiş Ştatları yeganə super dövlət etməklə, QH-nin əhəmiyyətini heçə endirdi. Lakin soyuq müharibənin bitməsindən təxminən otuz il keçməsinə baxmayaraq, QH hələ də mövcuddur. Bu, soyuq müharibənin qalığı hesab edilirmi, yoxsa bugünkü geosiyasi vəziyyət də onun mövcudluğunu tələb edir? NATO da ötən dövrün qalığı sayılsa da, daha sonra 1991-ci ilin Roma sammitindən dərhal sonra özünün aktuallığını və əhəmiyyətini təsdiq edərək, Şimali Atlantika Alyansının bütün transformasiyasının əsasını qoymuş yeni strateji konsepsiyanı qəbul etdi. Beynəlxalq sistem və ya dəqiq desək, yeni dünya nizamının dinamikası daim dəyişir. Gələcəkdə sistemin bir neçə rəqib bloka və ya güc mərkəzlərinə malik ola biləcəyi üçün QH-nin davam etməsinin zəruriliyini

göstərir. Davam etmək üçün müvafiq və səmərəli olmaq üçün hərəkət yenilənməli və dəyişdirilməlidir.

QH-da iştirak meyarları məsələsi çox aktual idi. Bu meyarlar hərəkatın iştirakçısı olan dövlətə qarşı aşağıdakı tələbləri müəyyən edirdi:

1. Müxtəlif siyasi və ictimai sistemlərlə dövlətlərin sülh şəraitində mövcudluğu prinsiplərinə əsaslanan, yaxud heç olmasa həmin prinsiplərlə həmrəy olmaları üçün müstəqil siyasət aparmaq.

2. Milli azadlıq hərəkatını daim dəstəkləmək.

3. Böyük dövlətlərin toqquşması kontekstində bağlanmış hər hansı çoxtərəfli hərbi ittifaqa daxil olmamaq.

4. Əgər dövlət böyük dövlətlərdən biri ilə ikitərəfli hərbi müqavilə bağlayıbsa və ya regional müdafiə paktının üzvüdürsə, onda bu müqavilə və ya pakt böyük dövlətlərin toqquşması kontekstində bağlanmamalıdır.

5. Öz ərazisində xarici hərbi bazaların yaradılmasına yol verməmək.

Bu gün QH-nin əsas məqsədi beynəlxalq hüquq prinsiplərinin tətbiqinə yönəlmiş mexanizm kimi xidmət etməkdir. QH-nin prinsiplərinə əsasən, ərazisindən asılı olmayaraq, hər bir ölkə suveren və müstəqildir. Bu məsələyə aydınlıq gətirmək üçün QH-nin əsas prinsiplərinin ilk dəfə qəbul edildiyi Bandunqdakı konfransa qayıtmalıyıq. Bandunq prinsiplərinə aşağıdakılar daxildir:

1. Əsas insan hüquqlarına, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə hörmət.

2. Bütün millətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət.

3. Bütün irqlərin bərabərliyinin, bütün böyük və kiçik millətlərin bərabərliyinin tanınması.

4. Başqa ölkənin daxili işlərinə qarışmamaq.

5. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq hər bir millətin özünümüdafiə hüququna fərdi və ya kollektiv hörmət.

6. a) böyük dövlətlərin hər hansı birinin xüsusi maraqları üçün kollektiv müdafiə paktlarının istifadə edilməməsi;

b) hər hansı bir ölkənin başqa ölkələrə təzyiq göstərməməsi.

7. Təcavüzdən, təcavüzetmə təhdidindən, yaxud hər hansı ölkənin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı güc tətbiq etməkdən çəkinmək.

8. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq bütün beynəlxalq münaqişələrin sülh yolu ilə həlli.

9. Qarşılıqlı maraqların və əməkdaşlığın təşviqi.

10. Ədalət və beynəlxalq öhdəliklərə hörmət.

Açıq-aşkar şəkildə görürük ki, Bandunq prinsipləri üzv ölkələr hər hansı dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı güc tətbiq etməkdən çəkinməli, bütün beynəlxalq mübahisələrin sülh yolu ilə həllinə çalışmalı, qarşılıqlı maraq və əməkdaşlığı inkişaf etdirməlidirlər. Başqa sözlə, onlar müxtəlif bloklar arasında gərginliyin azaldılması üçün üçüncü qrup yaratmaqla dünyada sülhün bərqərar olmasına kömək edirlər. Əgər bu hərəkatın üzvləri Şərq və Qərb blokları arasında hər hansı bir tərəfi dəstəkləsəydilər, soyuq müharibənin nəticələri daha ağır olardı. “Qoşulmama” siyasətini elan edən QH və bu hərəkatda iştirak edən ölkələr fövqəldövlətlərin qarşıdurmaları üçün hərbi meydan olmaqdan yaxa qurtara bildilər. Məsələn, daha çox zərər çəkmiş Əfqanıstan, Vyetnam, Oman və Koreyadan fərqli olaraq, Hindistan, Braziliya, Avstraliya və Yeni Zelandiya qoşulmama siyasəti sayəsində əmin-amanlıq şəraitində yaşayırlar. QH-nin neytral siyasəti sayəsində dünya daha dinc həyat üçün münasib bir yer olacaqdır. Məqsədlər üst-üstə düşdükdə, QH ölkələri BMT və NATO əməliyyatlarına böyük töhfə verirlər.

Amma istisna deyil ki, bəzən qərəzli ambisiyalar (üzv dövlətlərin müxtəlif və toqquşan maraqları üzündən) QH-nin əsas prinsiplərini aradan qaldırır. Hər hansı bloka (Qərb və ya Şərq) meyil göstərməklə yanaşı, bəzi üzvlər hətta bir-biri ilə müharibə etmişlər (məsələn, Hindistan və Pakistan, İran və İraq). Bundan başqa, ABŞ, Rusiya,

Çin və Aİ kimi dünyanın güc mərkəzləri QH-nin qlobal tendensiyalara təsiretmə və ya öz qətnamələrini yerinəyetirmə qabiliyyətini məhdudlaşdırmaq üçün xüsusi resurslara malikdir. QH uzun illər ərzində həllini gözləyən BMT qətnamələrinin yerinə yetirilməsində gərəkli olan heç bir alət və daxili mexanizmlərə malik deyil. QH-nin nizamnaməsi və büdcəsi də yoxdur. Konsensusun əsasında zirvə görüşlərində və ya nazirlərin konfranslarında qəbul edilən qərarlar tövsiyə xarakteri daşıyır. QH bir-biri ilə münaqişədə olan ölkələr arasında heç vaxt vasitəçilik etməmiş və özü üçün belə bir rolu da müəyyənləşdirməmişdir. Bununla əlaqədar QH üzv dövlətlərarasındakı siyasi qeyri-sabitlik və mübahisələr qarşısında gücsüz sayılır. Bəzi ölkələrdə keçmiş müstəmləkə sahibləri ilə daimi əlaqələr (xarici qüvvələrin nəzarəti və hegemonluğu) onların müstəqil siyasətlərinə ciddi məhdudiyyətlər qoyur. QH konsensusa – qarşılıqlı maraq doğuran məsələlər üzrə baxışların mümkün qədər yaxınlaşmasına can atan ölkələrin koalisiyasıdır. Eyni zamanda, maraqların toqquşması və liderlər arasında ideoloji fikir ayrılıqları qaçılmazdır və əlbəttə ki, bu, bütün hərəkatın səmərəliliyinə zərər vurur. Bu da üzv dövlətlər üçün yaxın illərdə gözlənilən ən ümdə vəzifədir. Buna baxmayaraq, QH gələcəkdə daha mühüm rol oynaya bilər. Hərəkat aparteid, dekolonizasiya, milli azadlıq uğrunda müharibə, xarici qüvvələrin gənc ölkələrdən çıxarılması və təbii sərvətlər üzərində suverenlik də daxil olmaqla bir çox məsələlər üzrə beynəlxalq təfəkkürə təsir göstərmişdir. Bu münaqişəni aradan qaldırmasa da, onun ehtimalını azaldır. QH onun üzvlərinə öz ümumi problemlərini müzakirə edə biləcək, sülh, təhlükəsizlik, inkişaf, terrorizm, insan hüquqları və ekoloji təhlükəsizliyin beynəlxalq problemlərinin həlli üçün strategiyalar hazırlaya biləcək forum təqdim edir. Qeyd etmək lazımdır ki, QH-nin yaradılması zamanı onun prinsipi ilə fövqəldövlətlərin təsirinə qarşılıq kimi xidmət edəcək üçüncü və ya alternativ blok formalaşdırmaq istəyi yox idi. Mahiyyət ondan

ibarətdir ki, biz QH-ni daha ədalətli, dinc, çiçəklənən və təhlükəsiz dünyaya aparan təşkilat kimi yox, hərəkat kimi qəbul etməliyik.

### 5.2. Qoşulmama siyasəti yürüdən ölkə kimi Azərbaycanın təcrübəsi

Geosiyasi reallıqlar bir dövlətin başqa dövlətlərə olan münasibətini daha çox müəyyən edən bir amildir. Vaxtilə üç müstəqil ölkə (Azərbaycan, Gürcüstan və Ermənistan) eyni imperiyanın bir hissəsi kimi, vahid təhlükəsizlik sisteminə daxil olmuşdur. Sovetlər İttifaqı dağılandan sonra hər üç ölkə müstəqillik əldə etmişdir. Cənubi Qafqazın bu üç respublikasının yolları həmin vaxtdan onların geosiyasi oriyentasiyası baxımından fərqli olub: Ermənistan KTMT-nin üzvüdür, Azərbaycan qlobal dövlətlərə qarşı müstəqil siyasət yeridir, Gürcüstan isə Qərbpərəst (NATO) siyasət yeridir. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistanla Azərbaycan arasında diplomatik münasibətlərin qurulmaması, Rusiyanın regionda özünütəsdiqinin güclənməsi və NATO-nun bölgədə mövcud olmaması faktoru real vəziyyəti anlamaqda başlıca amil kimi çıxış edir.

1993-cü ildə Ümummilli lider Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycan vətəndaş müharibəsinin astanasında idi. Daxili problemlər xarici siyasətin aparılmasını daha da mürəkkəbləşdirmişdir. Totalitarizmdən demokratiyaya keçərək Azərbaycan demokratik dəyişikliklərin institusionallaşdırılması uğrunda mübarizə aparırdı. Sonra Ulu öndər Heydər Əliyev ölkədə gedən vətəndaş müharibəsindən yan keçmək üçün balanslaşdırılmış xarici siyasət qurdu. Bu gün onun tarazlaşdırılmış siyasəti Qərb, Rusiya və İranla qlobal və regional fövqəldövlətlərin müqavimətində özünü göstərir.

Azərbaycanın xarici siyasət kursunun prioritetləri dövlət maraqlarının geosiyasi vəziyyətinin xüsusiyyətlərinə əsaslanır. Müasir dövrdə Dağlıq Qarabağla bağlı Ermənistan–Azərbaycan münaqişəsinin həlli Azərbaycanın xarici siyasəti qarşısında duran əsas vəzifədir. Bu gün Azərbaycan Ermənistanla müharibə

vəziyyətindədir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə, digər beynəlxalq hüquqi aktlara məhəl qoymur və BMT Nizamnaməsinin 25-ci maddəsini pozur.

Azərbaycanın dünyada artan nüfuzu dəyişən qlobal qaydalarda böyük tərəfdaşlıq münasibətlərinə yanaşmasını dəyişir. Ölkə müxtəlif tərəfdaşlıq münasibətlərindən faydalana bilir. Əgər Azərbaycan öz rəqibləri ilə münasibətlərdə üstünlüyünü inkişaf etdirmək istəyirsə, öz dostları və tərəfdaşları ilə daha dərin qarşılıqlı fəaliyyətə ehtiyac duyulur. Bu gün Azərbaycan ikitərəfli münasibətlərini digər ölkələrin siyasi və ideoloji dayaqları olmadan qarşılıqlı surətdə faydalı şəkildə müəyyən etmək üçün bütün imkanlara malikdir.

Qlobal və regional fövqəldövlətlərlə münasibətlərə qoşulmama yanaşması Azərbaycanın 2011-ci ildən QH-yə rəsmi inteqrasiyasından xeyli əvvəl tətbiq edilib. Müstəqillik əldə etdikdən sonra Azərbaycanın xarici siyasətinin üç mərhələsini ikinci dəfə fərqləndirmək lazımdır: 1991–1993, 1993–2003, 2003-cü illər və hazırki dövr. Növbəti iki mərhələdə Azərbaycanın müstəqilliyini qoruyub saxlaması və regionda aparıcı ölkəyə çevrilməsi, eləcə də onun beynəlxalq aləmdə rolunun artırılması birincidərəcəli məqsəd olub və olmaqdadır.

Beləliklə, Azərbaycanın qoşulmama strategiyası reallıqlara əsaslanan praqmatik xarici siyasətin nəticəsidir. Xarici yönümdəki radikal irəliləyişi təmsil etmək əvəzinə, Azərbaycanın QH-yə üzvlüyü Ümummilli lider Heydər Əliyevin tətbiq etdiyi “balanslaşdırılmış xarici siyasət”in davamıdır və cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Əslində, bu qeyri-formal yanaşma daxili qeyri-sabitlik, regiondakı düşmən fövqəldövlətlərin əhatəsi və Azərbaycanın ərazisinin, demək olar ki, beşdə birinin erməni işğalçı qüvvələri tərəfindən suverenliyin itirilməsi ilə bağlı

ciddi problemlər kontekstində irəli sürülüb. Azərbaycan bitərəf olaraq qalır və hər bir məsələni milli maraqlar mövqeyindən qiymətləndirir. Azərbaycan öz ərazilərinin qonşularına və ya başqa ölkələrə qarşı hər hansı düşmənçilik hərəkətləri üçün istifadə edilməsinə imkan vermir. Fövqəldövlətlərin hərbi alyanslarında iştirakdan imtina etməsi Azərbaycanın xarici siyasətinin əsas məqsədlərindən biridir. Azərbaycanın qoşulmama siyasəti qonşularla dinc şəraitdə yaşamaq, hərbi müqavilələrdə iştirak etməmək və hərbi bazaların böyük dövlətlərə verilməməsi kimi prinsiplərə əsaslanır. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: *"Əksər ölkələrin məhz belə fəaliyyət göstərməsinə baxmayaraq, siz bəzi ölkələrlə dostluq və başqaları ilə düşmənçilik edə bilməzsiniz. Azərbaycan heç bir ölkə ilə düşmənçilik etmək istəmir. Eyni zamanda, biz başqa ölkənin siyasətinin qurbanı olmayacağıq. Azərbaycanın müstəqil siyasəti vardır. Biz Avropa və Amerika ilə yaxşı münasibətləri inkişaf etdiririk və onların təcrübəsindən faydalanmağa çalışırıq, eyni zamanda milli kimliyimizi və resurslarımızı qoruyub saxlayırıq".*

Bəzi ölkələr iddia edirlər ki, qoşulmamaq üçün super dövlətlər tərəfindən bərabər müqavimət tələb olunur, lakin bu, azlığın rəyidir. Reallıq belədir ki, qlobal geosiyasətdə bərabər münasibətlər konsepsiyası yoxdur. Geniş yayılmış fikir ondan ibarətdir ki, istənilən fövqəldövlətə (ABŞ və ya Rusiya) qarşı aparılan siyasi kurs milləti QH-yə üzvlük hüququndan məhrum etmir. QH-də iştirak açıq-aydın hərbi bloklara qoşulmamaq deməkdir. QH-nin bəzi üzvləri dəyişən dünya arenasında ikitərəfli münasibətlərini dərinləşdirmək məqsədilə ABŞ, Rusiya və Çin kimi digər fövqəldövlətlərlə yaxınlaşmağa çalışırlar. Məsələn, Belarus KTMT-nin, Hindistan və CAR BRİKS-in, Özbəkistan isə ŞƏT-in üzvüdür. Bundan başqa, QH-də iştirak edən bütün Afrika ölkələri, eyni zamanda Afrika İttifaqının da üzvləridir. Qoşulmama ideologiya deyil, zaman keçdikcə dəyişən mövqelərin "İsveç masasıdır".

Azərbaycanın NATO ilə strateji hədəfləri üst-üstə düşəndə Azərbaycan NATO-nu dəstəkləyir. Azərbaycanın maraqları NATO-nun maraqlarına zidd olduqda Azərbaycan əks-mövqe tutur (məsələn, Kosovo problemi). Azərbaycan antiterror koalisiyasının fəal üzvlərindən biri kimi, bu əməliyyatlar üçün müəyyən sayda qoşun ayırır. ABŞ-ın Əfqanıstana təchizatının 40 % Azərbaycan və ya onun hava məkanından keçir. Avropa ölkələrinin İrana qarşı sanksiyalara qoşulmasına baxmayaraq, Azərbaycan bu sanksiyalara qoşulmaqdan imtina etmiş, bundan başqa Qərb ölkələri tərəfindən çıxış edərək Rusiya və İranın atdığı bəzi addımların (Krım və Suriya məsələsi) əleyhinə çıxmışdır.

Azərbaycanın təhlükəsizlik siyasətinin məqsədləri öz müstəqilliyini qoruyub saxlamaq, sülhü qorumaq, regionda sabitlik və təhlükəsizliyə yardım etmək və beynəlxalq sülhü və təhlükəsizliyi möhkəmləndirməkdən ibarətdir. Azərbaycan QH-nin bir ölkəsi kimi hərbi alyanslarda iştiraketməmə siyasətini aparır. Münaqişələr zamanı ölkəmizin bitərəfliyini qoruyub saxlamağa imkan verən bu təhlükəsizlik siyasəti ölkəmizin milli maraqlarına xidmət edir. Məsələn, Amerika və Rusiya (2017-ci ilin fevral), həmçinin NATO və Rusiyanın hərbi liderləri (2017-ci ilin sentyabr ayı) arasında görüşlərin təşkili üçün Bakının seçilməsi təsadüfi olmayıb. Azərbaycanın çoxvektorlu siyasəti ona beynəlxalq səviyyədə dostlar qazanmağa imkan verir. Azərbaycanın QH-yə üzvlüyü onun müstəqil xarici siyasəti üçün rəsmi zəmanət yaradır ki, bu da onun Cənubi Qafqaz regionunda və onun hüdudlarından kənarda liderlik mövqeyini potensial şəkildə möhkəmləndirir.

Ölkənin təhlükəsizliyinin təmin edilməsi gələcəkdə hərbi münaqişələrin olmaması üçün əsas amildir.

Digər ölkələrlə birgə fəaliyyət göstərməklə ölkənin sülh və təhlükəsizliyi ilə bağlı təhdidlərin qarşısını almaq olar.

2019–2022-ci illərdə Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. 25 oktyabr 2019-cu ildə Qoşulmama Hərəkatının XVIII

Zirvə toplantısı Bakıda keçirildi (Şəkil 5.2.1). Bu sammitin ölkəmizdə keçirilməsini və növbəti üç il ərzində sədrliyi qəbul etməklə Azərbaycan Qoşulmama Hərəkatının məqsəd və prinsiplərinə sadiq olduğunu nümayiş etdirdi. Bununla da o, beynəlxalq sülhə, təhlükəsizliyə və əməkdaşlığa töhfə verəcəkdir.




**Şəkil 5.2.1. Bakıda Qoşulmama Hərəkatının XVIII Zirvə toplantısı**

Azərbaycan Qoşulmama Hərəkatının məqsəd və prinsiplərinə sadiqdir. Azərbaycan bütün dövlətlərlə əməkdaşlıq münasibətlərinin inkişafına yönəlmiş xarici siyasət kursunu və hər hansı hərbi bloka qoşulmadan balanslaşdırılmış siyasət yeridir. Buna görə də ölkə 2011-ci ildə Qoşulmama Hərəkatına tamhüquqlu üzv olmaq qərarına gəlib.

Ümumilikdə, QH kifayət qədər iştirakçısı olan böyük tərkibli birlikdir. Bu meydanda Azərbaycan öz maraqlarını bir daha (xüsusilə Dağlıq Qarabağla bağlı) irəli sürə və QH iştirakçıları tərəfindən dəstəklənə bilər. Azərbaycan gələcəkdə bu və ya digər ittifaqa və ya

birliyə daxil olmaq perspektivi görmür. Azərbaycanın QH blokunda iştirakı onun xarici siyasətində öz seçimini göstərir.

Ümumiyyətlə, QH-nin mövcudluğu bütün dünyada sülhə yardım etmək üçün həyati əhəmiyyət daşıyır. Xarici siyasət vasitəsi kimi "Qoşulmama" sülh və təhlükəsizliyin qorunmasında çoxtərəfliliyi, bərabərliyi və qarşılıqlı anlaşmanı təmin edir, üzv ölkələrin yeni qlobal reallıq və çağırışlara olan tələbatının ödənilməsinə imkan yaradır. Bu gün Azərbaycanın bitərəfliyi silahlı münaqişə zamanı hərbi və siyasi mövqeyi qəbul etməməkdən ibarətdir.

Beləliklə, Azərbaycanın QH-yə üzvlüyü onun Cənubi Qafqaz regionunda və onun hüdudlarından kənarda potensial olaraq lider mövqeyini möhkəmləndirən müstəqil xarici siyasəti üçün rəsmi zəmin yaradır. Onun istənilən iqtisadi, siyasi, mədəni və sosial məqsədlərini öz iradəsi ilə həyata keçirmək imkanı vardır. O, kimlərinsə, xüsusilə iki böyük dövlətin – ABŞ və Rusiyanın hər hansı müdaxiləsini gözləmir. Bununla belə, QH-ni bir platforma kimi istifadə etmək səhv yanaşmadır. Qoşulmama izolyasiya demək deyil. Azərbaycan NATO-nun fəal tərəfdaşıdır, Rusiya və İranla səmimi münasibətləri qoruyub saxlayır. Digər alyanslarla artan tərəfdaşlıq münasibətləri bu ölkələrlə qarşılıqlı fəaliyyətə mane olmur. Azərbaycan Cənubi Qafqaz regionunda onun aparıcı ölkə kimi mövqeyini təhlükə altına salacaq hərəkətlərə yol verməyəcəkdir.

# VI FƏSİL

## Azərbaycanın enerji siyasəti və transregional layihələri

### 6.1. Azərbaycanın enerji diplomatiyası

SSRİ-nin süqutundan sonra Xəzər hövzəsində yeni müstəqil dövlətlərin yaranması nəticəsində bu ölkələrin daxili və xarici siyasətlərində enerji amilinin önə çıxdığı yeni beynəlxalq münasibətlər mühiti formalaşmağa başladı. Bu mühitdə milli təhlükəsizlik, sabit və davamlı inkişaf üçün bir tərəfdən münbit şərait yarandı, digər tərəfdən isə region tədricən dünya siyasət meydanına çıxdı.

Xəzərin hövzəsinin zəngin karbohidrogen yataqlarına malik olması, Asiya və Avropa arasında yerləşməsi, onu xüsusilə mühüm məkana çevirir və zəngin neft-qaz potensialına sahib olduğundan Azərbaycanı, Qazaxıstanı və Türkmənistanı daha da cazibədar edir. Xəzər regionunun dünya enerji məkanındakı rolu və yeri artdıqca regionun ənənəvi dövlətləri olan Rusiya və İranla yanaşı, ABŞ bu bölgəni özünün milli maraq zonası elan edir, Avropa ölkələri, Türkiyə və İsrail kimi dövlətlər isə regionda təmsil olunmaq üçün ciddi səylər göstərirlər.

Geostrateji mövqeyinə görə Azərbaycan müxtəlif dövlətlərin maraqlarının toqquşduğu geopolitik regionda yerləşmişdir. Azərbaycanın mövqeyi neft və təbii qaza ehtiyacı olan bir sıra mühüm, regiondan kənar dövlətlər üçün Xəzər dənizi regionuna yol açır.

Həm ABŞ, həm də Rusiya politoloqları Xəzər hövzəsini öz ölkələrinin əsas maraq dairəsi və geosiyasi hədəfi hesab edir. Rus politoloqu Aleksandr Duqin öz əsərlərində Xəzər hövzəsi və Cənubi Qafqazı ABŞ və Rusiya maraqlarının keçmişdə, indi və gələcəkdə daim toqquşduğu bölgə kimi dəyərləndirir. Duqinə görə, "*bölgənin geosiyasi xarakteristikası və əsas həlledici koordinatları tələb edir ki, burada mütəmadi olaraq Rusiyanın ABŞ və NATO ilə geosiyasi, geoiqtisadi və hərbi geostrateji maraqları toqquşmalıdır*". Xüsusən,

o, Xəzər neftinin istehsalına və Qərbə ixracı marşrutlarına nəzarəti bu iki geosiyasi güc arasındakı mübarizənin əsas hədəfi hesab edir. Onun fikrincə, həmin hədəflərə nəzarəti ABŞ öz əlinə keçirə bilsə, o zaman dünya hegemonluğu tam təmin ediləcəkdir.[39]

ABŞ-ın keçmiş dövlət katibi Ceyms Beyker isə Xəzər hövzəsinin əhəmiyyətini belə qiymətləndirmişdir: “Xəzər nə iqtisadi, nə geoloji nə də texniki problem deyildir. Bu birincidərəcəli əhəmiyyətə malik geosiyasi problemdir. Regionun enerji ehtiyatları ilə zəngin olması diqqəti ona daha çox cəlb edir. Bu regionların zəngin enerji ehtiyatları və əlverişli kommunikasiya imkanları onları Xəzər hövzəsində geosiyasi maraqlarını təmin etmək uğrunda mübarizə aparan bütün əsas oyunçuların diqqət mərkəzinə gətirmişdir.

Soyuq müharibə bitdikdən və Xəzər hövzəsinə müdaxilə etmə imkanı yarandıqdan sonra ABŞ hökuməti Ərəb yarımadasını itirmə təhlükəsinə qarşı Xəzər hövzəsini ehtiyat enerji mənbəyi kimi görməyə başlamışdır. Bu səbəbdən ABŞ postsovet dövlətlərini siyasi və iqtisadi olaraq Rusiyadan ayırmağa çalışır və qlobal enerji sisteminin manevr və dayanıqlılığını artırmaq üçün Xəzər hövzəsində alternativ yanacaq və nəqliyyat sistemini formalaşdırmağa istəyir.

Qlobal aləmdə enerji siyasəti artıq yalnız iqtisadi fenomen kimi nəzərdən keçirilmir. Bu müstəvidə siyasi komponentlərin xüsusi çəkisi özünü daha qabarıq büruzə verir. Enerji ehtiyatları Azərbaycanı beynəlxalq münasibətlərin vacib aktoruna çevirməkdədir.

Müasir dövrdə enerji amili beynəlxalq münasibətlərin aktorları arasında əlaqələrdə başlıca amillərdəndir. Dövlətin enerji siyasətinin başlıca hədəfi enerji təhlükəsizliyinin təminatıdır ki, bu məsələ dünya dövlətlərinin milli təhlükəsizlik konsepsiyasında mühüm yer tutur. Mövcud tədqiqatlara görə, dünya enerji resurslarının mühüm yataqları Rusiya, Xəzər hövzəsi, Yaxın Şərq və Şimali Afrikada

---

[39] Həsənov, Ə.M. Xəzər-Qara Dəniz Hövzəsi və Cənubi Qafqazın Geoiqtisadiyyatı: Azərbaycanın Enerji Siyasəti / Ə.M.Həsənov. – Bakı: “Zərdabi. LTD”, – 2016. – 296 s.

yerləşmişdir. Bu regionlar coğrafi cəhətdən ABŞ və Avropa İttifaqı (Aİ) üçün əlçatan olsa da, Yaxın Şərqdə mövcud olan qeyri-sabit vəziyyət, İran və Rusiyaya qarşı ABŞ tərəfindən tətbiq olunan iqtisadi sanksiyalar Qərb ölkələrinin diqqətini Xəzər regionuna cəlb etməkdədir. Məlum olduğu kimi, İran (Fars) körfəzindən sonra Xəzər hövzəsi (Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan, İran) enerji resursların həcminə görə dünyanın ən əhəmiyyətli ikinci bölgəsi hesab olunur.

Xəzər regionunun dünya enerji məkanındakı rolu və yeri getdikcə daha da artmaqdadır. Buna görə də regionun ənənəvi aktorları olan Rusiya və İran bu bölgəni ABŞ, Aİ və digər dövlətlərin təsiri altına düşməsini istəmirlər. ABŞ bu bölgəni özünün milli maraq zonası elan etmiş, Aİ ölkələri, Türkiyə və İsrail kimi dövlətlər regionda təmsil olunmaq üçün ciddi səylər göstərmişlər. Müstəqillik əldə etdikdən sonra ölkəmizin rastlaşdığı iqtisadi-sosial problemlərin nizamlanmasında, ölkədəki daxili hərc-mərcliyin aradan qaldırılmasında, separatçı meyillərə və özbaşınalığa son qoyulmasında, Ermənistanın ərazi iddiaları əsasında Azərbaycana hərbi müdaxiləsinin dayandırılmasında enerji amili ən kəsərli vasitə ola bilərdi. Lakin 1991−1993-cü illər ərzində Azərbaycan siyasi hakimiyyəti enerji amilindən səmərəli istifadə edə bilməmişdir. Belə ki, 1990-cı illərdən başlayaraq Qərb dövlətlərinin Xəzər regionuna marağının olmasına baxmayaraq, bu dövlətlərlə Azərbaycan üçün həyati əhəmiyyətli olan enerji əməkdaşlığının reallaşması mümkün olmamışdır. Azərbaycanın sabiq Prezidenti Əbülfəz Əliyevin müşaviri işləmiş Vəfa Quluzadənin 1993-cü ildə ilk dəfə Xəzərin Azərbaycan və Türkmənistan sektorları arasında yerləşmiş Kəpəz (Türkmənistan bu yatağı "Sərdar" adlandırır) yatağının ABŞ-ın neft şirkətinə icarəyə verilməsi təklifi belə siyasi hakimiyyət tərəfindən uyğun görülməmişdir. Nəticədə, Türkmənistan Azərbaycan arasında mübahisəyə səbəb olmuş bu məsələ uzun müddət həll edilməmiş qalmışdır.

Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra qısa müddət ərzində ölkədə sabitlik bərpa olundu və ölkənin iqtisadi imkanlarının səfərbər olunması, dövlətin malik olduğu təbii resursların istismarına xarici investisiyaların cəlb edilməsi məqsədilə strateji addımlar atıldı. Azərbaycanın neft və qaz ehtiyatlarının istismarına xarici investisiyaların ölkəyə cəlb edilməsində 1994-cü il sentyabrın 20-də xarici neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" xüsusi yer tutur.

Lakin Azərbaycan üçün bu müqavilənin reallaşması heç də asan olmamışdır. Rusiya və İran Xəzərin hüquqi statusunun müəyyən edilməməsini səbəb göstərərək Azərbaycana və tərəfdaş dövlətlərə təzyiq mexanizmindən istifadə etmişdirlər. Lakin 23–25 fevral 1994-cü ildə Londonda beynəlxalq neft kontraktının reallaşması üçün Azərbaycan Prezidenti Heydər Əliyevə İran və Rusiyadan gələcək təzyiqlərə qarşı ciddi diplomatik dəstək vəd edildi və British Petroleum (BP) şirkəti 31% payla bu layihənin operatoru müəyyən edildi. Buna baxmayaraq, Rusiya Xarici İşlər Nazirliyi (XİN) Xəzərin statusunun müəyyən olmamasını səbəb göstərərək "Əsrin müqavilə"sinin baş tutmaması üçün 27 aprel 1994-cü ildə Böyük Britaniya XİN-ə rəsmi nota göndərərək bildirmişdir ki, bu müqavilə imzalansa da, hüquqi sənəd sayılmayacaqdır. Rusiya XİN-i analoji (rəsmi nota) təhdidi 12 sentyabr 1994-cü ildə Azərbaycana da yönləndirmişdir. Rusiya XİN-i analoji (rəsmi nota) təhdidi 12 sentyabr 1994-cü ildə Azərbaycana da yönləndirmişdir. O vaxtkı hakimiyyətin siyasi peşəkarlığı və təcrübəsi bu problemi həll etməyə imkan vermişdir. Azərbaycan rəsmi Moskvanın sərt mövqeyini yumşaltmaq üçün Rusiyanın nəhəng neft korporasiyası olan "Lukoil" şirkətinə 10% pay verməklə, "Əsrin müqaviləsi"ndə iştirak etməyə sövq etmişdir. Bununla da, Rusiya tərəfindən bütün əngəllər önlənmiş və 20 sentyabr 1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" imzalanmışdır (Şəkil 6.1.1). Lakin Rusiyanın regionda dövlət maraqları dəyişməz olaraq qalmış və "Lukoil" şirkəti öz payını 2003-

cü ildə Yaponiyanın İPEX şirkətinə sataraq layihəni tərk etmişdir. “Əsrin müqaviləsi”nin imzalanması mərasimində çıxış edən Heydər Əliyev *“bu müqaviləni imzalamaqla biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, Azərbaycan Respublikasının suveren hüquqları bərpa edilib, Azərbaycan bütünlüklə müstəqil dövlətdir və xalqımız öz sərvətlərinin sahibidir”* demişdir.




**Şəkil 6.1.1. “Əsrin müqaviləsi”nin imzalanması mərasimi**

Qeyd etmək lazımdır ki, “Əsrin müqavilə”si ilə Azərbaycan ilk postsovet ölkəsi oldu ki, MDB məkanına Qərbin neft şirkətlərinin daxil olmasına və Rusiyanın ərazisindən kənar transregional layihələrin reallaşmasına start vermiş oldu. Bununla Azərbaycan Xəzərin digər dövlətlərinin də (Türkmənistan və Qazaxıstan) karbohidrogen resurslarının Qərbə satışını stimullaşdırmaqla post-sovet məkanında presedent yaratmış oldu.

2018-ci ildə Astanada bütün Xəzər hövzəsi ölkələri Xəzər dənizinin statusu ilə bağlı konsepsiya imzalamaqla Xəzərin hüquqi statusunu müəyyən etmiş (Şəkil 6.1.2) və Azərbaycanın enerji

təhlükəsizliyi üçün əhəmiyyətli risklərdən biri öz həllini tapmışdır. Xəzər dənizinin statusu ilə bağlı Rusiya və İranın əsassız iddialarından geri çəkilmələrinin və Xəzərin hüquqi statusunu müəyyən edən bu konsepsiyanın imzalanmasına razılıq vermələrinin əsas səbəbi isə müddəalar içərisində Xəzər dənizində (Xəzər hövzəsi olmayan) kənar dövlətlərin donanmalarının mövcudiyyətinə icazə verilməməsi məqamı olmuşdur.




**Şəkil 6.1.2. Xəzər dənizinin statusu ilə bağlı konsepsiyanın imzalanması mərasimi**

Azərbaycanın uğurlu enerji diplomatiyası nəticəsində bugünədək Xəzərin Azərbaycana məxsus sektorundakı yataqlarının mənimsənilməsi sahəsində xarici neft şirkətləri ilə 34 neft müqaviləsi imzalandı. Layihələrin gerçəkləşməsi işinə isə dünyanın 14 ölkəsindən 33 şirkət qoşulmuşdur. Son illər ərzində "Şahdəniz" yatağının kəşfi isə Azərbaycanın regionda əhəmiyyətini daha da artırmışdır. Belə ki, bu yatağın minimal qaz ehtiyatlarının miqdarı 1 trilyon kubmetr ətrafında qiymətləndirilir. Bu isə Azərbaycan kimi kiçik bir ölkə üçün əhəmiyyətli qaz ehtiyatı deməkdir.

Azərbaycan Respublikası Cənubi Qafqazın yeganə ölkəsidir ki, zəngin karbohidrogen ehtiyatlarına, inkişaf etmiş yanacaq-energetika infrastrukturuna və özünü tam təmin edən enerji sisteminə malikdir. Ölkənin təkcə milli və regional səviyyədə deyil, həm də dünya enerji sistemində getdikcə həlledici bir vəsiləyə çevrilməsi, transmilli enerji bazarlarında özünəməxsus yer tutması və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı onun regional və planetar geosiyasi, geoiqtisadi mövqeyinin möhkəmlənməsinə xüsusi təsir göstərməkdədir.[40]

ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri işləmiş Zbiqnev Bjezinskinin ifadəsi ilə desək, Azərbaycan Şərqi Avropanı Mərkəzi Asiya ilə birləşdirən Cənubi Qafqaz regionunda yerləşməklə, Avrasiyanın ən mühüm "geosiyasi dayaq nöqtələri"ndən biridir. Rumıniyanın Azərbaycandakı səfiri və eyni zamanda NATO-nun Azərbaycan üzrə əlaqələndiricisi olmuş Nikolae Urekinə görə, "*Azərbaycanın enerji siyasəti ümumilikdə Avropa qitəsinin iqtisadi sabitliyinə və Xəzər–Qafqaz–Qara dəniz regionunun təhlükəsizliyinə töhfə verir*". Mütəxəssislərin fikrincə, hazırda NATO-nun Cənubi Qafqazdakı hərbi-geostrateji və təhlükəsizlik strategiyası daha çox Qərbin enerji təhlükəsizliyi məsələlərinə yönəlmişdir.

Geostrateji mövqeyinə görə Azərbaycan müxtəlif dövlətlərin maraqlarının toqquşduğu geopolitik regionda yerləşmişdir. Azərbaycanın mövqeyi neft və təbii qaza ehtiyacı olan bir sıra mühüm, regiondan kənar dövlətlər üçün Xəzər dənizi regionuna yol açır. Avropa İttifaqı dövlətləri üçün yaxın üç enerji regionu mövcuddur. Bunlar Yaxın Şərq, Rusiya və Xəzər regionu sayılır. Enerji ehtiyatları ilə zəngin olan Yaxın Şərq regionu Ərəb baharı ilə daha da qeyri-sabitləşən geosiyasi vəziyyətdən dolayı və Ukrayna ilə Rusiya arasında yaranmış münaqişə Avropa dövlətlərinin alternativ enerji regionlarının axtarışını zəruri etdi. Belə regionlardan sayılan, enerji

---

[40] Həsənov, Ə. Azərbaycanın enerji təminatı və təhlükəsizliyi siyasəti // Yeni Azərbaycan. – 24 yanvar 2014. – s. 4.

ehtiyatları ilə zəngin olan, qlobal enerji geosiyasətində yer tutan Xəzər dənizi regionunun açarı Azərbaycanın əlindədir.

ABŞ-ın sabiq dövlət Katibi Ceyms Beykerin dediyi kimi, *"nə vaxtsa Xəzər dənizinin nefti sənayeləşmiş dünya üçün hazırda Yaxın Şərq nefti qədər önəmli ola bilər"*.

Azərbaycan Respublikası Avropanın müasir enerji təhlükəsizliyi sistemində mühüm yer tutaraq yeni transmilli layihələrin hazırlanması və həyata keçirilməsində arzuolunan və etibarlı tərəfdaşa çevrilmişdir. Tanınmış politoloq Zbiqnev Bjezinskiyə görə, *"Ərazisinin kiçik və əhali sayının az olmasına baxmayaraq, nəhəng enerji resurslarına malik olan Azərbaycan geosiyasi planda da aparıcı əhəmiyyət kəsb edir və Xəzər dənizi hövzəsinin, eləcə də Mərkəzi Asiyanın sərvətlərinin olduğu şüşə qabda bir tıxacdır"*.[41]

Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri və Bakı–Tbilisi–Qars dəmir yolu işə düşdükdən sonra Azərbaycanın geopolitik iddiaları güclənməyə başladı. Hətta vaxtilə reallaşması bir çoxları üçün şübhə doğuran bu layihələr Azərbaycanın qonşuları Rusiya və İran tərəfindən Amerika strategiyasının nəticəsi kimi qiymətləndirilsə də, rəsmi Bakının mövqeyinin möhkəmləndirilməsinə töhfə vermiş və onu regionda fəal oyunçu rolunu öz üzərinə götürməyə sövq etmişdir.

Beləliklə, rəsmi Bakı enerji amilindən istifadə etməklə, siyasi oyunçularla ünsiyyətdə dividentlər əldə etdi və öz milli təhlükəsizliyinin qorunması prosesində xarici siyasi maraqlarının irəli sürülməsinə start verdi. Azərbaycan geoiqtisadi üstünlüklərinə arxalanaraq Xəzər dənizinin özünə aid sektorunda fəaliyyət göstərən neft şirkətləri vasitəsilə müvafiq ölkələrin siyasətinə təsir göstərməyə başlayıb. Son illər ərzində Bakı enerji potensialından səmərəli istifadə edərək Azərbaycanın milli maraqlarına xələl yetirə bilən

[41] Şirinli Q. Azərbaycanın enerji təhlükəsizliyi və onun təminatı. Magistr dissertasiyası: [Elektron resurs] / – Bakı, 2015. – 103 s.
URL: https://bit.ly/2uISMKk

xarici hökumətlər ilə birbaşa danışıqlar apararaq, onların enerji təhlükəsizliyinin təminatındakı öz rolunu qabartmaqla xarici təzyiqlərə qarşı müdafiə sistemini formalaşdırmışdır. Buna misal olaraq ABŞ-ın 2010-cu ildə regionda Azərbaycanın milli maraqlarını nəzərə almayaraq Türkiyə və Ermənistanı barışdırmaq səyləri həmin ilin yazında ikitərəfli (Bakı-Vaşinqton) münasibətlərinin soyumasına gətirib çıxartdı. Azərbaycan Türkiyə-Ermənistan əlaqələrinin normallaşdırılmasını Dağlıq Qarabağ münaqişəsinin həllinə bağlayır və rəsmi İrəvanın öz qonşuları ilə problemlərini Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə məsələlərinə bölməsinə razı deyildir. Öz növbəsində, ABŞ Ermənistan-Türkiyə sərhədinin açılması və münasibətlərinin normallaşdırılması barədə protokolu həll edilməmiş Dağlıq Qarabağ münaqişəsinə heç bir istinad olmadan ratifikasiya etməsi üçün Türkiyəyə təzyiq göstərmişdir. ABŞ Türkiyə tərəfini inandırmağa çalışırdı ki, Ankara-İrəvan münasibətləri düzələrsə, Ermənistandakı 102-ci rus hərbi bazasının Gümrüdən çıxarılması prosesi baş tutacaq və bununla Moskvanın regiondakı son dayaq nöqtəsi itiriləcəkdir. 2008-ci ilin iyun ayında Türkiyə Respublikasının Prezidenti Abdulla Gül Ermənistana səfər edərək, S.Sarkisyanı Türkiyəyə dəvət etdi. Bunun ardınca S.Sarkisyanın "The Wall Street Journal Europe" jurnalında "Biz Türkiyə ilə danışıqlara hazırıq" adlı məqaləsi nəşr olundu. Qeyd etmək lazımdır ki, "Sıfır problem" yanaşması ilə məşhur olan dövrün xarici işlər naziri Ahmet Davutoğlu da bu prosesdə mühüm rol oynadı. Halbuki A.Davutoğlu (Stratejik Derinlik. Türkiye`nin uluslararası konumu) kitabında Azərbaycan ərazisinin 5/1-nin işğal olunmasını "soyuq müharibə"dən sonra Türkiyənin ən böyük strateji itkisi olaraq qiymətləndirmişdi.[42] Lakin nə Ermənistan-Türkiyə protokollarının imzalanması nə də, "futbol diplomatiyası" iki dövlət arasında münasibətlərdə gözlənilən

---

[42] Davutoğlu, A. Stratejik Derinlik. Türkiye`nin uluslararası konumu / A.Davutoğlu. – Ankara: "Küre Yayınları", – 2009. – 584 s.

nəticələrə gətirib çıxarmadı. Protokollar isə nə Türkiyə, nə də Ermənistan parlamentlərində ratifikasiya olunmadı. Hətta Türkiyə–Azərbaycan arasında yaşanan nisbi böhrandan sonra tərəflər arasında hərbi sahədə əməkdaşlıq 2010-cu il avqustun 16-da imzalanan "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" müqavilədən sonra yeni mərhələyə qədəm qoydu. Aparılan beynəlxalq müzakirələr bir daha nümayiş etdirmişdir ki, Türkiyə və Azərbaycanın yekdil rəyi olmadan bu iki sülhməramlı prosesi bir-birindən ayırmaq və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində irəliləyiş olmadan 1993-cü ildə Kəlbəcərin işğalına cavab olaraq bağlanan Ermənistan-Türkiyə sərhədini açmaq mümkün deyil.[43] ABŞ-ın bu təşəbbüsünü öz milli maraqlarına zidd və milli təhlükəsizliyinə təhdid hesab edən Azərbaycan rəsmiləri bəyan etdilər ki, "*Azərbaycanın ABŞ ilə münasibətlərinə yenidən baxılması bir sıra mühüm ABŞ-Azərbaycan transmilli enerji layihələrinə zərər gətirə bilər*". Beləliklə, Azərbaycan tərəfinin yumşaq, lakin qətiyyətli mövqeyi ABŞ-ın 2010-cu ilin may ayına təyin edilmiş Azərbaycan–ABŞ birgə hərbi təlimlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən təxirə salınması ilə nəticələndi. 2010-cu il aprelin 29-da ABŞ-ın Azərbaycanda müvəqqəti işlər vəkili Donald Lu təxirə salınmış ABŞ-Azərbaycan hərbi təlimlərinə istinad edərək demişdir: *"Biz ümid edirik ki, bu təlimlər gələcəkdə baş tutacaqdır"*. Bu proseslər göstərdi ki, Azərbaycan enerji diplomatiyasından istifadə edərək milli təhlükəsizliyinə real və potensial təhdid ola biləcək bütün siyasi addımların qarşısını almaq iqtidarındadır.

ABŞ rəsmiləri Rusiyanın enerji strategiyalarının Transatlantik əlaqələrə təsirindən narahatlıqlarını ifadə edir və hər vəchlə Moskvanın ekspansiya siyasətini önləməyə çalışırlar. ABŞ ekspertlərinin fikrincə, rəsmi Moskva "Avropanın Rusiyanın enerji

---

[43] Paşayeva, G. Həll edilməmiş Dağlıq Qarabağ münaqişəsi Avropada təhlükəsizliyə dair yeni müqavilənin layihəsi çərçivəsində // «Analitik Baxış (SAM)». – 2010. – Say 5. – s. 6-11.

resurslarından iqtisadi və siyasi asılılığını" artırmağa çalışır ki, bu da öz növbəsində "Avropa və ABŞ arasında Transatlantik münasibətlərin tədricən inkişafına mənfi təsir göstərə bilər". Azərbaycan enerji potensialı sayəsində ABŞ və Avropa İttifaqı arasında aparılan Transatlantik dialoqda və Rusiyanın enerji inhisarçılığına qarşı rəsmi Bakının mühüm rola malik olması barədə təəssürat formalaşdırır.

### 6.2. Rusiya hegemoniyası və Şimal marşrutu

Azərbaycanın neft və qaz ehtiyatlarının hansı marşrutlarla ixrac olunması bu respublikanın dövlət müstəqilliyi əldə etdiyi ilk vaxtlardan siyasi bir məsələ kimi ortaya çıxmışdı. Strateji, geosiyasi əhəmiyyət daşıyan ixrac marşrutları istiqamətinin müəyyənləşdirilməsi məsələsi regionda Rusiya və Qərb arasında gedən dominantlıq uğrunda mübarizənin mühüm tərkib hissəsinə çevrilmişdi. Bu mübarizənin əsas tərəflərindən olan Rusiya Xəzərin neft və qaz ehtiyatlarının yalnız onun ərazisindən keçən Şimal marşrutu ilə dünya bazarlarına çıxarılmasına nail olmağa çalışırdı. Bununla Rusiyanın əsas məqsədi dünya enerji bazarında aparıcı mövqeyini və Xəzər hövzəsinin enerji ehtiyatları üzərində ənənəvi təsir mexanizmlərini qoruyub saxlamaqdır. Moskva həm Cənubi Qafqazı öz təsir dairəsində saxlamağı, həm də Avropanın Rusiyadan enerji asılılığını artırmağa cəhd edirdi. ABŞ, Aİ ölkələri və Türkiyə isə neftin və təbii qazın Qərb marşrutu ilə ixrac olunmasında maraqlı idilər. Qərbin Xəzər dənizi siyasəti ilə bağlı məsələlərdə Rusiya və İranın geostrateji maraqları üst-üstə düşürdü. İran Qərbin Xəzər hövzəsi və Cənubi Qafqazdakı transmilli geoiqtisadi və enerji maraqlarını təhdid etmək məqsədilə onların bölgədəki əsas geoiqtisadi tərəfdaşı qismində Azərbaycanı hədələyir. Tehran Azərbaycanın karbohidrogen ehtiyatlarının İran ərazisindən keçməklə Fars körfəzi vasitəsilə dünya bazarlarına çıxarılması üçün cənub marşrutunu təklif edirdi. İranın bu təklifi iqtisadi cəhətdən rentabelli sayılsa da, rəsmi Tehranla Vaşinqton arasında cərəyan edən siyasi

proseslər bu layihənin reallaşmasına imkan verməmişdir.

1996-ci il yanvarın 18-də Moskvada “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında müqavilə” imzalandı, 1997-ci ildə istifadəyə verilmiş illik buraxılış gücü 18 mln. ton, ümumi uzunluğu 1535 km olan Bakı–Novorossiysk neft kəməri Azərbaycan neftini Rusiya ərazisindən keçməklə Qara dənizdəki Novorossiysk limanına çatdırmaq üçün nəzərdə tutulmuşdu (Şəkil 6.2.1).




**Şəkil 6.2.1. Bakı–Novorossiysk neft kəməri**

Bakı–Novorossiysk neft kəməri regionda mövqelərini möhkəmləndirməyə çalışan Rusiya üçün mühüm siyasi əhəmiyyətə malikdir, lakin onun əsas ixrac marşrutuna çevrilməsində bir sıra ciddi maneələr mövcud idi. Hər şeydən əvvəl, Bakı–Novorossiysk kəmərinin buraxılış gücünün Azərbaycanda ildən-ilə artmaqda olan neft hasilatı ilə müqayisədə aşağı olmasını qeyd etmək lazımdır. Digər tərəfdən, neft kəmərinin qeyri-sabit vəziyyətin olduğu Şimali Qafqazdan (Dağıstan və Çeçenistan ərazisindən) keçməsi onun təhlükəsizliyini və fasiləsiz işləməsini risk altına qoyan faktor-

lardandır. Belə ki, 1990-cı illərdə Rus–Çeçen müharibəsi zamanı Bakı–Novorosiysk boru kəmərindən 100 dəfədən çox neft oğurluğu qeydə alınmışdır. Çeçenistan ərazisində oğurlanmış neft gizli neft emalı zavodlarına göndərilərək ucuz benzin əldə edilirdi ki, bu da üsyançılara hərbi əməliyyatları davam etdirmələri üçün sabit gəlir qaynağı idi.

2000-ci ildə Rusiya terror təhdidini nəzərə alaraq, Bakı–Novorosiysk boru kəmərinin marşrutunu dəyişdirməklə Çeçenistanın ərazisindən yan ötərək Dağıstanın Kizlyar ərazisindən keçirmişdir. Lakin Çeçen üsyançılar bu dəfə də Dağıstanın Kizlyar ərazisinə hücumları artırmış, hətta boru kəmərinin keçdiyi ərazini ələ keçirməyə cəhd etmişdilər. 2001–2009-cu illər ərzində Bakı–Novorossiysk boru kəməri 90 dəfədən çox hücuma məruz qalmışdır. Bakının bu marşruta böyük maraq göstərməməsi, həm də iqtisadi faktorlarla bağlı idi. Belə ki, Azərbaycan neftinin Bakı–Novorossiysk marşrutu ilə ixracı Gürcüstan ərazisindən keçən marşrutlarla ixracından baha başa gəlirdi. Bundan başqa, Azeri light və Brent markaları altında ixrac olunan yüksək keyfiyyətli Azərbaycan nefti Bakı–Novorossiysk neft kəmərində, tərkibində kükürdün miqdarı çox olan Sibir və Qazaxıstan nefti ilə qarışdırılaraq Novorossiyskdə, daha ucuz "Urals" markası adı altında satılır. Türkiyəyə məxsus Qara dəniz boğazlarının yükburaxma qabiliyyətinin məhdud olması da Şimal marşrutunun təhlükəsizliyinə mənfi təsir edən amillərdəndir.

### 6.3. ABŞ-ın Xəzər ambisiyası və Qərb marşrutu

1998-ci ildə prezident Bill Klinton administrasiyasına ABŞ-ın Qafqaz və Xəzər regionunda enerji strategiyasını formalaşdırmağı tapşırdı. ABŞ, Avropa ölkələri və Türkiyə Azərbaycanda hasil olunan neft və təbii qazın Qərb marşrutu ilə ixrac olunmasında, tələb olunan enerji daşıyıcılarını alternativ mənbələrdən əldə etməklə Rusiyadan asılılığı minimuma endirməkdə maraqlı idilər.

1999-cu ildə işə düşən Bakı–Supsa neft boru kəməri Azərbaycanın Gürcüstan ərazisindən keçməklə Qərbə istiqamətlənən ilk neft marşrutu oldu. Bakı–Supsa neft kəmərinin tikintisi ABŞ, Böyük Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanını təmsil edən 11 neft şirkətinin daxil olduğu ABƏŞ-in yardımı ilə həyata keçirilmişdi. İlk vaxtlar sutkada 115 min barel xam neft ötürmək qabiliyyətində olan neft kəmərinin buraxılış qabiliyyəti sonradan 220 min barelə çatdırılmışdır. Azərbaycandan hasil olunan neft resurslarının ixracı üçün bu yetərli olmamışdır. Lakin Xəzərin karbohidrogen ehtiyatlarının ixracı üçün alternativ marşrutlardan biri olan bu kəmərin istifadəyə verilməsi, bir tərəfdən, Azərbaycan və Gürcüstanın enerji təhlükəsizliyinin təmin olunması, digər tərəfdən, Rusiyanın Xəzər–Qara dəniz regionundakı mövqelərinin zəiflədilməsi istiqamətində atılmış mühüm addım idi.

29 oktyabr 1998-ci ildə Ankara şəhərində ABŞ-ın o zamanki energetika naziri B. Riçardsonun iştirakı ilə Azərbaycan (Heydər Əliyev), Gürcüstan (Eduard Şevarnadze), Türkiyə (Süleyman Demirel), Qazaxstan (Nursultan Nazarbayev) və Özbəkistan (İslam Karimov) Respublikalarının prezidentləri tərəfindən BTC boru kəməri layihəsinin inşasının deklarasiyası imzalandı.

ABŞ və Böyük Britaniya qlobal enerji sisteminin manevr və dayanıqlılığını artırmaq üçün Xəzərdə enerji marşrutlarını şaxələndirməyi düşünürdülər. Yeni qurulacaq alternativ boru kəmərləri layihə sistemində təhlükəsizlik əsas parametr götürülməli, Rusiya və İran ərazisindən yan keçməli idi. Qərbə uzanacaq boru kəmərlərinin optimal marşrutunu müəyyən etmək əsas məsələlərdən idi. Bu marşrutlar içində ən qısa olanı Ermənistan ərazisi olsa da, rəsmi İrəvanın Azərbaycanın 20% ərazilərini işğal etdiyindən onun ərazisindən boru kəmərlərini keçirmək real deyildi. İran ərazisindən isə koridor kimi istifadə etməyi Qərb dövlətləri istisna etdiklərindən yeganə marşrut Gürcüstan ərazisi sayılırdı.

BTC boru kəmərinin layihəsi gündəmə gəlməyə başladığı zamanda məlum idi ki, bu boru kəmərləri üçün əsas təhdid regional separatizm olacaqdır. BTC boru kəmərinin layihəsinin anonsu verildiyi zaman Gürcüstanın Cavaxetiya ərazisində kompakt yaşayan erməni əhalisi arasında Abxaziya və Cənubi Osetiyada olduğu kimi Axalkalaki ərazisində yerləşən rus hərbi bazasına arxalanaraq separatizm meyilləri gücləndi. Lakin Gürcüstanın Cavaxetiya ərazisində yeni separatizm ocağının yaradılması mümkün olmadı. 2003-cü ilin aprel ayında inşasına başlanmış BTC boru kəməri bütün maneələrə baxmayaraq, 2006-cı ildə ilk neft nəqlinə start verildi (Şəkil 6.3.1).




**Şəkil 6.3.1. BTC neft boru kəməri**

BTC-nin fəaliyyətə başladığı il yerli erməni əhalisinin etirazına baxmayaraq, Gürcüstanın Axalkalaki ərazisindən Rusiya hərbi bazası çıxarıldı.

BTC əsas ixrac neft boru kəməri reallaşdıqdan sonra Azərbaycanın Qərbə istiqamətlənən yeni Cənub Qaz Dəhlizi (CQD) layihəsi formalaşmağa başladı. Azərbaycanın Şahdəniz-2 yatağından çıxan təbii qaz CQD-nin əsas hissələrindən biri olan Trans-Anadolu qaz boru kəməri (TANAP) və onun davamı olan Trans-Adriatik qaz boru kəməridir (TAP) (Şəkil 6.3.2).




**Şəkil 6.3.2. TANAP və TAP**

TANAP (2019) və TAP (2020) qaz boru kəmərinin fəaliyyətə başlaması ilə Azərbaycanla yanaşı, Xəzər və hətta gələcəkdə Orta Şərq regionundan da Avropaya təbii qaz nəqlinin imkanları yaranacaq. "Cənub Qaz Dəhlizi" layihəsinin icrasında yeddi ölkə iştirak edir: Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadır. Gələcəkdə üç Balkan ölkəsi də "Cənub Qaz Dəhlizi"nə qoşula biləcək. "Cənub Qaz Dəhlizi" Aİ üçün prioritet layihələrdən biridir və 10 milyard kubmetr Azərbaycan qazının Gürcüstan və Türkiyə ərazisindən keçməklə Xəzər regionundan Avropaya nəqlini nəzərdə tutur. Cənub Qaz Dəhlizi ilə ilk qaz 12 iyun 2018-ci ildə Türkiyəyə və 15 iyun 2019-cu ildə Yunanıstan sərhədinə çatdırılıb. 2020-ci ildə Albaniya ərazisindən keçməklə İtaliyaya çatdırılacağı planlaşdırılır. Qlobal layihələrin həyata keçirilməsində və beynəlxalq iqtisadi-siyasi proseslərdə Azərbaycanın aparıcı qüvvəyə çevrilməsi rəsmi Bakının mövqelərinin güclənməsi ilə müşayiət olunur.

Rusiya analitikləri Azərbaycanın bu layihələrini "Rusiyanın sərhədində Moskva əleyhinə yönəlmiş yeni enerji bloku"nun yaradılması cəhdi kimi qiymətləndirirlər, Azərbaycan ekspertləri isə vurğulayırlar ki, *"Bizim enerji siyasətimiz çox tərəflidir. Biz nə*

*ruspərəst, nə amerikapərəst, nə də Avropapərəstik, biz öz milli maraqlarımıza cavab verən siyasət aparmalıyıq və öz enerji yollarımızı şaxələndirməliyik".* Rusiyanın narahatlığı iqtisadi deyil, daha çox geosiyasi və strateji xarakter daşıyır. Rusiya ehtiyat edir ki, Azərbaycanın Qərblə əməkdaşlığı nəinki ölkənin iqtisadi cəhətdən modernləşməsi və Qərb dünyasına yumşaq siyasi inteqrasiyası üçün ciddi zəmin yaradır, eləcə də Azərbaycanın NATO ilə yaxınlaşmasına yol açır.

İstər BTC əsas ixrac boru kəmərinin, istərsə də Cənubi Qafqaz Boru Kəmərinin istifadəyə verilməsi Xəzər-Qara Dəniz regionunda geosiyasi vəziyyəti kökündən dəyişdirən, regionun təhlükəsizliyi üçün əlavə təminatlar yaradan, iqtisadi və siyasi xarakterə malik əhəmiyyətli bir hadisə idi. Şübhəsiz ki, bu kəmərlərin siyasi əhəmiyyəti onların iqtisadi əhəmiyyətindən xeyli çoxdur. Layihənin reallaşması Xəzər–Qara dəniz regionunda Rusiyanın neft-qaz ixracı sahəsindəki inhisarçı mövqeyinə son qoymuş, Azərbaycan və Gürcüstanın rəsmi Moskvanın siyasi təsirindən çıxmaları, dövlət müstəqilliyini möhkəmləndirmələri üçün əlverişli şərait yaratmışdı.

Zəngin karbohidrogen ehtiyatlarına malik olan Qazaxıstan və Türkmənistanın da Qərb istiqamətində uzanan neft-qaz kəmərlərinin istismarında müəyyən dərəcədə iştirak etməsi Xəzər–Qara dəniz regionu və Mərkəzi Asiyanı əhatə edəcək geniş iqtisadi və təhlükəsizlik məkanının formalaşması üçün şərait yaradır.

Hazırda Qazaxıstan neftinin əsas hissəsi Tengiz–Novorossiysk boru kəməri ilə Rusiya ərazisindən keçməklə Avropaya göndərilir, lakin rəsmi Astana artıq ixrac marşrutlarını daha çox diversifikasiya etmək üçün variantlar axtarır. Qiymət məsələsində razılığın əldə olunmaması səbəbindən 2016-cı ildə Rusiya Türkmənistandan təbii qaz idxalını dayandırmış və nəticədə, sonuncu üçün Çin bazarının əhəmiyyəti xeyli artmışdır. Ukraynanın öz enerji təhlükəsizliyini təmin etmək üçün Rusiyadan kənar alternativ mənbə və marşrutlar

axtarması da, sonuncunun tranzit ölkə kimi enerji bazarındakı mövqeyinə mənfi təsir göstərir.

Bu proseslər Rusiya–Ermənistan–İran üçbucağında yerləşən, Azərbaycan–Gürcüstan–Türkiyə bloklaşmasını şərtləndirir. Bu gün Azərbaycan–Gürcüstan–Türkiyə bloklaşmasını Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, TANAP, TAP və Bakı–Tbilisi–Qars kimi regional layihələr bu strateji müttəfiqliyi möhkəmləndirən əsas iqtisadi-siyasi, geopolitik amillərdən birinə çevrilib. Gürcüstan və Türkiyənin yetəri qədər təbii ehtiyatlara malik olmaması regionda Azərbaycanın geostrateji əhəmiyyətini daha da artırıb.

### 6.4. Xəzərin statusu

Xəzər hövzəsində enerji resurslarının hasilatı və ixracı məsələsində ən təməl problemlərdən biri dənizin statusunun beynəlxalq konvensiyalara uyğun olaraq müəyyən edilməməsi idi. Şübhəsiz ki, sahilyanı ölkələr arasında yaranan fikir ayrılığı regionun inkişafına birbaşa və ya dolayı yolla təsir edir. 1970-ci ildə Xəzər dənizinin ilk dəfə olaraq sektorlara bölünməsi prinsipi tətbiq olunmuşdu. Bu bölgüyə əsasən, Xəzər dənizi Rusiya, Qazaxıstan, Azərbaycan, Türkmənistan və İran sektoruna bölünmüşdür. Bu bölgü zamanı "orta xətt" prinsipi əsas götürülmüşdür. SSRİ-nin süqutuna qədər Xəzərin hüquqi statusu bu razılaşmalarla tənzimlənirdi.

SSRİ dağıldıqdan dərhal sonra Qazaxıstan və Azərbaycan Xəzər dənizinin "orta xətt" prinsipi ilə bölünməsi seçimini dəstəklədiklərini bəyan etdilər. Bu prinsipə əsasən, Qazaxıstana 29%, Azərbaycana 20%, Rusiyaya 16%, Türkmənistana 21%, İrana isə 14% pay düşür. Lakin İran daha çox pay əldə etmək üçün Xəzər dənizinin beş sahilyanı ölkə arasında bərabər bölüşdürülməsini təklif edirdi (Şəkil 6.4.1, 6.4.2).




Şəkil 6.4.1. Xəzərin orta xətt prinsipi ilə bölünməsi




Şəkil 6.4.2. Xəzərin bölünməsi üçün İranın təklif etdiyi variant

Tərəflər arasında uzun sürən mübahisədən sonra Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya 12 avqust 2018-ci ildə (Rusiya, Qazaxıstan, Azərbaycan, İran və Türkmənistan prezidentləri tərəfindən) Qazaxıstanın Aktau şəhərində keçirilən Beşinci Xəzər Sammitində müəyyənləşdirildi. [44] Rusiya və İranın Xəzərin statusunun müəyyən edilməsində kompromisə getmə səbəbi, bu Konvensiyanın əsas müddəalarından birində Xəzərdə sahilyanı sayılmayan ölkələrin silahlı obyektlərinin yerləşdirilməsinin qadağan edilməsidir. Xəzər konvensiyasında təsdiqlənən milli sektorlara bölgü prinsipləri dənizdə hər hansı layihələrin reallaşmasının sırf qonşu və qarşı ölkələrə aidiyyəti olduğunu təyin edir. Analoji şəkildə yalnız bu ölkələr onların sektorlarından çəkilən boru kəmərləri və kabellərin marşrutlarını müəyyənləşdirir. Beləliklə, Rusiya bu konvensiyaya əsasən, Azərbaycan və Türkmənistan sektorundan keçən Trans-Xəzər Qaz Kəməri (TXQK) layihəsinin realizasiyasına mane ola bilməyəcək (Şəkil 6.4.3).




**Şəkil 6.4.3. Trans-Xəzər Qaz Kəməri**

[44] Конвенция о правовом статусе Каспийского моря: [Elektron resurs] / – 12 avqust 2018. URL: https://bit.ly/2lwZga5.

Çünki bu konvensiyada Xəzərin dibi ilə boru kəmərlərinin çəkilməsi də nəzərdə tutulub və sahil ölkələri bunu öz sektorlarına düşən hissədə ikitərəfli qaydada edə bilərlər. Konvensiyanın 14-cü maddəsinin 1-ci hissəsində qeyd edilib ki, tərəflər dənizin dibi ilə kabellər və boru kəmərləri çəkə bilərlər. Eyni zamanda, TXQK-nin tikintisi məsələsində Moskvanın Aşqabada güzəştə getməyə hazır olması Avropanın qaz bazarındakı dəyişikliklərlə əlaqəlidir. Əgər əvvəllər Moskva Xəzər qazının "Qazprom"la rəqabət aparacağından ehtiyat edirdisə, indi isə Türkmənistanın tədarükü Amerikanın maye qazı ilə rəqabət aparacağını düşünür. Hələ 1998-ci ildə Xəzərin dibi ilə keçməklə Türkmənistandan Azərbaycana gedəcək qaz kəmərini tikməliydi. Lakin o zaman Rusiya və İran Xəzər dənizində ekoloji təhlükəsizlik (Tehran Konvensiyası)[45] məsələsini qaldırmaqla layihəni bloklamışdılar. Onlar iddia edirdilər ki, Xəzərin dibi ilə kəmər çəkilişinə 5 sahilyanı ölkənin hər birinin razılığı olmalıdır. Halbuki Rusiya Qazaxıstanla birlikdə belə bir razılıq olmadan da, müxtəlif layihələr üzrə müştərək müəssisələrini yaradırdılar.[46] Rusiya və İran üçün hazırda Xəzərdə təbii resurslar uğrunda mübarizə ikinci plana keçib, onlar üçün təhlükəsizlik məsələləri daha mühüm əhəmiyyət kəsb edir. Son zamanlar enerji qiymətlərinin kəskin enməsi adıçəkilən layihənin maliyyələşməsi (5 milyard dollar) riskini artırır. Türkmənistan tərəfinin fikrincə, bu layihə Qərbin strateji maraqlarına cavab verdiyindən onun maliyyələşməsi məhz Qərb dövlətləri tərəfindən olmalıdır. Görünən budur ki, layihənin reallaşması üçün bütün geosiyasi əngəllərin və maliyyə məsələlərinin həlli Qərb dövlətlərinin verəcəyi siyasi, təhlükəsizlik və maliyyə dəstəyindən asılıdır. Azərbaycan tranzit ölkə olaraq Trans-Xəzər layihəsinin reallaşmasının tərəfdarı olsa da, Rusiya ilə Qərb arasında gedən geosiyasi mübarizədə iştirak etmək niyyətində deyil.

---

[45] Tehran Convention: [Elektron resurs] / –URL: http://www.tehranconvention.org/

[46] Xəzərin dibindən Azərbaycana? – ARAŞDIRMA:[Elektron resurs] / – 23 yanvar 2018. URL: http://yenixeber.org/manset/45948-xezerin-dibinden-azerbaycana.html

# VII FƏSİL

## Azərbaycan Respublikasının kritik enerji infrastrukturuna təhdidlər və onların təsirinin ölçülməsi

### 7.1. Kritik enerji infrastrukturunda mövcud vəziyyət

“Kritik infrastruktur” (Kİ) dedikdə, “həyati vacib struktur yəni, dövlətin həyat qabiliyyətini təmin edən ən mühüm, müstəsna əhəmiyyətli, strateji təyinatlı strukturlar” başa düşülür. Kİ-nin fəaliyyət və funksiyasının ən qısa müddətdə belə pozulması dövlət və cəmiyyətin təhlükəsizliyi üçün ciddi risklərə, iqtisadi və sosial itkilərə səbəb ola bilər. Bu çərçivədə enerji, su, qida, nəqliyyat şəbəkələri, bank sistemləri və s. ən əhəmiyyətli infrastrukturlar hesab edilir.

Hazırda Kİ-yə qarşı terror, təxribat, təbii və texniki fəlakətlərin dövlət və əhaliyə olan təhdidinin qarşısının alınması məqsədilə bir çox dövlətlər kritik infrastrukturların mühafizəsi üçün müvafiq dövlət qurumları formalaşdırmışdır.

Xüsusilə ABŞ-da 11 sentyabr terror hücumlarından sonra 2003-cü ildə Kİ-nin qorunmasını idarə edən xüsusi qurum “Daxili təhlükəsizlik departamenti” yaradılmışdır.

Eyni zamanda, Kİ-yə qarşı kiber hücumların qarşısını almaq üçün bəzi dövlətlər (ABŞ, Rusiya, Çin və s.) bu məqsədlə kiber ordularını formalaşdırmışlar.

“Kİ”-nin təhlükəsizliyini təmin edən mühafizə sistemini aşağıdakı kimi təsnifatlandırmaq mümkündür:

– kəşfiyyat / müşahidə;
– hücum tədbirləri görmək;
– təcili müdaxilə;
– yayındırıcı tədbirlər görmək.

“Kİ”-nin əsas elementi məhz kritik enerji infrastrukturudur (KEİ). Son zamanlar qlobal miqyasda bu infrastruktura qarşı terror

hücumlarının sayı qat-qat artmışdır. KEİ-yə qarşı hücumların sayında xüsusilə neft və təbii qaz ixrac edən tranzit ölkələrin payı daha yüksəkdir. 13 sentyabr 2019-cu ildə Yəməndə İranın dəstəklədiyi Husi qruplarının Səudiyyə Ərəbistanın neft obyektlərini dron hücumları ilə partlatması qlobal neft bazarı və iqtisadiyyatı üçün ağır fəsadlar törədir. Bu hücumların siyasi və təhlükəsizlik aspektlərini qeyd etmək olar.

Kritik infrastrukturlara qarşı təhdidlər üç qismə bölünür:

– təbii təhdidlər (təbiət hadisələri);
– texnogen təhdidlər (insan faktoru);
– terror təhdidləri (ənənəvi və texnoloji).

Kritik Enerji İnfrastrukturunun (KEİ) təhlükəsizliyi dövlətlərin fəaliyyətində və sabit inkişafında müstəsna rola malikdir. Xüsusilə dövlət büdcəsi neft və qaz kimi karbohidrogen resursların satışından formalaşan dövlətlər üçün xüsusi əhəmiyyətli strateji obyektlər sayılmaqdadır. Enerji bütün dövlətlərin məhək daşıdır və iqtisadiyyata bütünlüklə təsir edən faktordur. Enerjini mütəmadi olaraq, sistemli şəkildə istifadəçiyə çatdırma prosesində yarana biləcək problemlər birbaşa olaraq ölkədə səhiyyə, nəqliyyat, təhsil və s. strateji sektorların iflicinə, ölkədə sabitliyi təhdid etməklə iqtisadiyyatda böhrana, cəmiyyətdə isə xaosa səbəb ola bilər. Enerji resursları, nəqliyyat xətləri və elektrik stansiyaları kimi enerji infrastrukturları digər bütün kritik infrastrukturlara təsir edən həyati əhəmiyyətli sahələrdir.

Enerji infrastrukturları elektrik, neft və təbii qaz olaraq üç əsas komponentdən ibarətdir. Enerji hər bir ölkədə fərqli nisbətdə neft, təbii qaz, kömür, nüvə, hidro, günəş, geotermal və küləkdən əldə edilir. Bu enerji resurslarının daşınması və nəqli prosesi isə müxtəlif formada (yeraltı və yerüstü) həyata keçirilir. Enerji resurslarının daşınması və paylaşdırılması prosesi bir qisim risklərlə müşayiət olunmaqdadır ki, bu da dövlətləri daha tədbirli olmağa sövq edir. Bütün sektorların elektrik və yanacağa olan asılılığı bu riskləri daha

da artırır. Dünya praktikasında enerji sektoruna daha çox fiziki və kiber təhdidlərin olduğu müşayiət edilir. Enerji sektorunun, həm dövlətin, həm də özəl sektorun nəzarətində olması bunlar arasında koordinasiyanı zəruri edir. Hər bir ölkə geosiyasi mövqeyini nəzərə alaraq, özünəməxsus təhdid və riskləri diqqətə almalı və bunlara qarşı qabaqlayıcı tədbirlər görməlidir. Bölgədə müxtəlif transregional layihələr həyata keçirən, Ermənistanın təcavüzünə məruz qalan, eyni zamanda Ermənistan–Rusiya–İran üçbucağında yerləşən Azərbaycan üçün enerji infrastrukturunun mühafizəsi zərurətə çevrilmişdir. İran İslam Respublikası Qərb ölkələrinə aid neft şirkətlərinin Xəzər dənizində fəaliyyət göstərməsinə hər vəchlə qarşı çıxır. Hətta İran ona qarşı hər hansı hücum olarsa, ilk növbədə Qərbin neft sektorunu hədəf alacağını dəfələrlə bəyan etmişdir. İran 23 iyul 2001-ci ildə Azərbaycan akvatoriyasında yerləşən "Alov" (İran bu yatağı"Alborz" adlandırır) yatağında BP şirkətinin kəşfiyyat işləri aparan "Geofizika 3" gəmisinə hərbi hava qüvvələrini yönəltmiş və gəminin buradan uzaqlaşmasını tələb etmiş, əks halda silahdan istifadə edəcəyi ilə hədələmişdi. Bu hadisədən bir neçə gün sonra Türkiyə Hərbi Hava Qüvvələrinə aid təyyarələr Azərbaycana gələrək rəsmi Bakıya dəstək nümayiş etdirmiş, ABŞ isə İrana xəbərdarlıq edərək Azərbaycana hərbi yardımları artıracağını açıqlamışdı.

İran Qərbin Xəzər hövzəsi və Cənubi Qafqazdakı transmilli geoiqtisadi və enerji maraqlarını təhdid etmək, hədələmək məqsədilə onların bölgədəki əsas geoiqtisadi tərəfdaşı qismində Azərbaycanı hədələyir.[47]

Qonşu ölkələrdə aktivləşən terror aktları və silahlı qarşıdurmalar dövlətimizin milli təhlükəsizliyini və regional enerji təhlükəsizliyini təhdid etməkdədir. Azərbaycanın reallaşdırdığı transregional neft və qaz boru kəmərlərinə qarşı dəfələrlə təxribat və terror aktları, sadəcə

---

[47] Həsənov, Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları / Ə.M.Həsənov. – Bakı, "Zərdabi LTD", – 2016. – 700 s.

ölkəmiz üçün deyil, tranzit və idxal edən ölkələrin enerji təhlükəsizliyi üçün də təhdid mənbəyidir. Geostrateji mövqeyə malik Azərbaycan Respublikası (AR), çox mürəkkəb və qarışıq etno-siyasi regionda yerləşməklə dünyada gedən enerji resursları uğrunda mübarizədə balanslı siyasəti reallaşdırmaqdadır. AR yeganə post-sovet ölkəsidir ki, Rusiya və İrandan yan ötərək Avropanın enerji tədarükünü təmin edəcək siyasət yeridir və bununla postsovet Qazaxıstan və Türkmənistan kimi Xəzər hövzəsi ölkələrini də analoji addım atmağa təşviq edir.

Azərbaycanın reallaşdırdığı neft və qaz layihələri:

- BTC (Bakı Tbilisi Ceyhan Neft boru xətti);
- BTƏ (Bakı Tbilisi Ərzurum Təbii Qaz boru xətti);
- TANAP (Trans-Anadolu Qaz Boru Kəməri);
- Bakı–Novorosiysk;
- Bakı–Supsa.

İnşası davam edən layihələr:

- İTGİ (Türkiyə–Yunanıstan–İtaliya İnterkonnektor);
- TAP (Trans-Adriatik Qaz Boru Kəməri);

Planlaşdırılan layihələr;

- Trans-Xəzər.

Azərbaycanın enerji sektoru təhlükəsizdirmi?

Ölkə ərazisində 24 saat ərzində elektrik kəsintisi şəhərlərdə xaos və panika yaradırsa, boru kəmərlərində 1 günlük kəsintinin olması eyni səviyyədə təsirli olmaya bilər. Bu göstərici elektrik stansiyasının neft və qaz xətlərindən daha strateji və kritik infrastruktur olduğunu göstərir.

Azərbaycanın enerji sistemini idarə edən vahid mərkəz MDX (mərkəzi dispetçer xidməti) fəaliyyət göstərməkdədir. 3 iyul 2018-ci il tarixdə Cənubi Qafqazın ən böyük elektrik stansiyasında – Mingəçevir İstilik Elektrik Stansiyasında (MİES) baş vermiş qəza bütün ölkənin (Naxçıvan MR xaric) energetika sisteminin çökməsinə səbəb olmuşdur. Qəzadan sonra bəzi yerlərdə elektrik enerjisinin

verilməsi bərpa olunsa da, ertəsi gün MİES-də yenidən qəza baş vermiş və minlərlə adam metroda qalmışdır. "Bakı Metropoliteni"nin rəhbərliyi 30 minə yaxın sərnişini evakuasiya etmiş və metronun fəaliyyətini dayandırmışdır. Bakı şəhərində yollarda işıqfor sisteminin sıradan çıxması isə nəqliyyat sistemini işini əngəlləmişdir.

MİES-dəki qəza 2 gün davam etsə də, ölkədə neft sənayesi, səhiyyə, nəqliyyat şəbəkəsi və iqtisadiyyata ciddi zərər dəymişdir. İşıq böhranı nəticəsində Bakı şəhərinin bir çox yerində əhali su problem ilə üzləşmişdir. Bu qəza hadisəsi cəmiyyətdə psixoloji şok effekti yaratmışdır. İyulun 4-də prezident İlham Əliyev ölkədə iki gün çəkən enerji böhranı ilə bağlı keçirdiyi müşavirədə bildirmişdir ki, *"bir qəza ölkənin enerji sektorunu çökdürməməliydi"*.

Azərbaycan tamamilə daxili resursları hesabına əhalisini enerji ilə təmin edən Cənubi Qafqazın yeganə ölkəsi olsa da, qəza baş verdiyi müddət ərzində Rusiya və Gürcüstandan elektrik enerjisi idxal etmək məcburiyyətində qalmışdır. Bu situasiya göstərdi ki, dövlətin enerji sisteminin bir mənbədən asılı olmaması üçün enerji qaynaqlarının diversifikasiyası zəruridir.

## 7.2. Kritik enerji infrastrukturuna təhdidlər və riskli bölgələrin müəyyən edilməsi

Bütün dövlətlərin gələcəyi mühüm enerji infrastrukturlarından asılıdır. Son illər Avropanın enerji təhlükəsizliyində Gürcüstan və Türkiyənin ərazisindən keçən Azərbaycan boru kəmərlərinin əhəmiyyəti artmaqdadır. Bəs Azərbaycanın neft və qaz boru kəmərləri təhlükəsizdirmi?

Azərbaycanda neft və qaz resursları ölkənin sadəcə quru ərazisində deyil, həmçinin Xəzər dənizində də, hasil olunmaqdadır (Şəkil 7.2.1).




**Şəkil 7.2.1. Xəzər dənizinin neft və qaz infrastrukturu**

Ölkənin quru ərazisində boru kəmərlərinin mühafizəsinin təmin olunmasından (XDMX-nın nəzdində yaradılan İxrac Neft və Qaz Boru Kəmərlərinin Təhlükəsizlik İdarəsi nəzarət edir) fərqli olaraq dəniz (Xəzər) akvatoriyasında boru kəmərlərinin mühafizəsi (DSX tərəfindən qorunur) daha çətindir. Dənizdə hasil olunan məhsul hər birinin uzunluğu 100 km olan iki sualtı kəmər ilə Səngəçal terminalına çatdırılır. Orada isə xam neftin saxlanılması, texniki emalı və paylaşılması həyata keçirilir Xəzər dənizinin dibi ilə Səngəçal terminalına nəql olunan boruların mühafizəsi üçün bəzi Xəzəryani ölkələrdən (Rusiya və İrandan) fərqli olaraq Azərbaycan donanmasının sualtı qayıqlara malik olmaması bu prosesi qəlizləşdirir. Azərbaycanın Xəzər dəniz donanmasının gəmilərində quraşdırılmış hidroakustik stansiyaların vasitəsilə su altında olan obyektləri müşahidə və təyin edilir.

2018-ci il aprelin 27-də ABŞ Müdafiə Nazirliyi konqresə məlumat verərək bildirib ki, Azərbaycanın Cənub sərhədlərinin təhlükəsizliyi (rabitə, enerji, tikinti, dəniz avadanlıqları və nəqliyyat vasitələri)

üçün rəsmi Bakıya 47,5 mln. dollar ayırıb.[48] Qeyd edək ki, 2019-cu ildən Azərbaycan Xəzərdə təhlükəsizlik səviyyəsini yüksəltmək üçün ABŞ-ın Hərbi Dəniz Sistemləri Komandanlığı (HDSK) VSE korporasiyası ilə (10 082 812 dollar həcmində) müqavilə imzalayıb. Müqaviləyə əsasən, VSE korporasiyası Azərbaycana antiterror və əks-kəşfiyyat qurğuları çatdırmalı, eləcə də Xəzər dənizində Azərbaycanın dəniz təhlükəsizliyi proqramına dəstək üçün ölkə daxilində təlimlər keçirməlidir.

Rusiya üçün Azərbaycanın Qərbə uzanan transregional neft və qaz boru kəmərləri geoiqtisadi rəqabət kimi qəbul edilməsi risklərin səviyyəsini yüksəltməkdədır. Xəzərdə geniş imkanlara malik Rusiya donanmasının Həştərxan limanından Dağıstan Muxtar Respublikasının Kaspiysk limanına köçürülməsi[49] və Xəzərin hüquqi statusu haqqında konvensiyaya əsasən, Rusiyanın Xəzər dəniz donanmasına digər ölkələrin ərazi və balıqçılıq zonaları istisna olmaqla (15 mil), Xəzərin bütün sularında əməliyyat keçirməsinə icazə verilməsi Azərbaycanın dəniz altında və üstündə olan kritik enerji obyektlərinin təhlükəsizliyinə təhdidləri artırır.

Qeyd etmək lazımdır ki, Rusiya ehtiyac olmadığı halda illərdir şimal sərhədimiz boyu Dağıstanda çox sayda hərbi kontingent, canlı qüvvə və müasir hərbi texnika cəmləşdirmişdir. Bundan əlavə,

---

[48] Ermənistanın "Vaşinqton təşvişi": ABŞ Azərbaycana 100 milyon dollar həcmində hərbi yardım edəcək?: [Elektron resurs] / – 19 iyul 2019. URL: https://ordu.az/az/news/152194/ermenistanin-vasinqton-tesvisi-abs-azerbaycana-100-milyon-dollar-hecminde-herbi-yardim-edecek-

[49] Rusiyanın Xəzər donanması Dağıstana köçürüləcək: [Elektron resurs] / – 2 aprel 2018. URL: https://report.az/region/rusiyanin-xezer-donanmasi-dagistana-kocurulecek/

Rusiya bir neçə dəfə Xəzərdəki hərbi donanması ilə Azərbaycana qarşı əzələ nümayiş etdirmişdir.[50]

Azərbaycanın Qərbə istiqamətlənən transregional boru kəmərləri BTC, BTƏ, Bakı-Supsa, TANAP və TAP boru xəttinin marşrutu dünyanın ən həssas və riskli bölgələrindən keçməkdədir. Azərbaycanın dünya okeanına çıxışının olmaması Gürcüstan ərazisini geoiqtisadi dəhliz kimi istifadə etməsini şərtləndirir. Lakin bu bölgədə Ermənistan–Azərbaycan, Gürcüstan–Abxaziya, Gürcüstan–Cənubi Osetiya, Türkiyə ərazisinin şərq hissəsində kürt separatçıları (PKK) ilə münaqişə şəraitindədir. Bu riskləri nəzərə alaraq, boru kəmərlərimiz yerin altı ilə inşa edilmişdir. Boru kəmərlərimizin yerin altı ilə inşa edilməsi maliyyə xərclərini artırsa da, boruları bir çox fiziki təhdidlərdən qorumaqdadır. Lakin bu tədbirlər də boruların tam təhlükəsizliyini təmin etmək üçün yetərli deyildir.

Ermənistan Azərbaycanın ərazisinin 20%-ni işğal etməklə ölkəmizin kritik infrastrukturuna ciddi ziyan vurmuşdur. Bu vəziyyət düşmən tərəfindən hücuma məruz qalması daha real görünən strateji obyektlərin siyahısını müəyyən etməyi (onların mühafizəsi daha mükəmməl təmin edilməyi) və adekvat (qabaqlayıcı və yayındırıcı) addımlar atmağı zəruri etmişdir. İşğal olunmuş ərazilərdə mövcud olan infrastrukturun tamamilə dağıdılması, işğalçı dövlətin Sərsəng su anbarını öz nəzarətində saxlaması, eləcə də Mingəçevir İES-i, neft və qaz kəmərlərini və s. kritik infrastruktur obyektlərini hədəfə almaq cəhdləri təhlil edilməli və qiymətləndirilməlidir.[51] Rəsmi statistikalar göstərir ki, kritik obyektlərə yönəlmiş təhdidlər içində enerji sektoru prioritet təşkil etməkdədir. Ermənistan müharibənin aktivləşəcəyi

[50] Azərbaycana şimaldan sürünən işğal təhlükəsi: [Elektron resurs] / – 5 noyabr 2014. URL: https://xeberle.com/siyaset/6322-azerbaycana-simaldan-srnen-isal-tehlkesi.html

[51] Allahyarova T. "Kritik İnfrastruktur" və onun təhdidlərdən qorunması: Dünya təcrübəsi və Azərbaycanda tətbiqinin zəruriliyi // Strateji Təhlil, 3-4 (25-26) 2018. – s. 39-61.

təqdirdə Azərbaycanın reallaşdırdığı neft və qaz kəmərlərini partlatmaqla təhdid edir. Bunun üçün Ermənistan Rusiyadan "İskəndər" raket sistemini də almışdır. Bu isə sadəcə region dövlətləri üçün deyil, karbohidrogen resurslara ehtiyacı olan bir sıra Qərb ölkələri (ABŞ, Aİ və İsrail) üçün də açıq təhdiddir.

Ermənistan rəsmi Bakını Azərbaycanın boru kəmərlərinə hücum etməklə hədələyir. BTC boru kəməri təmas xəttindən 15 km uzaqlıqdan keçir. Lakin Ermənilər üçün boru kəməri boyunca inşa edilmiş nasos stansiyaları daha asan hədəfdir. Qeyd etməliyik ki, Azərbaycan və Gürcüstan ərazisində 2 nasos stansiyası, Türkiyədə isə 4 nasos stansiyası və 2 təzyiqi aşağısalma və qəbuletmə stansiyaları mövcuddur. Bu stansiyalardan hər hansı biri partladılarsa, Azərbaycanın enerji sistemi böyük ölçüdə zərər görə bilər.

Enerji İnfrastrukturu (Eİ) terror təşkilatları üçün potensial hədəf sayılmaqdadır. Terror təşkilatları kiçik sayda qruplarla, az vəsait xərcləməklə, Eİ-yə hücumlar təşkil etməklə qarşı tərəfə böyük həcmdə zərər vura bilirlər. Məsələn, *Cənub-Şərqi İraqda terrorçuların neft boru kəmərinə hücum 2 000 dollara başa gəlsə də, dövlətə zərəri neft gəlirlərinin satışından 500 mln. dollardan artıq olmuşdur.*[52] Boru kəmərlərinin təhlükəsizliyi dedikdə, min kilometrlərlə ərazidən keçən obyekt nəzərdə tutulur və onun mühafizəsini tam və ideal təmin etmək mümkün deyil. Eİ terror hücumlarının böyük insan itkiləri ilə müşayiət olunmasa da, enerji sektorundan asılı olan dövlətin vacib sahələrinə yuxarıdan aşağıya doğru dağıdıcı domino effekti təsiri verməsi təhlükəsi yüksəkdir.

Neft sektorunun terror hücumlarına qarşı həssas obyektlərinin siyahısı belədir.

– neft quyu və platformaları;

---

[52] Специальный бюллетень CTN. Защита важнейших объектов энергетической инфраструктуры от террористических актов: [Электронный ресурс] / – январь 2010. URL: https://bit.ly/2PGzGeV

– gəmi və tankerlər (neft daşıyan);
– boru kəmərləri;
– neft emalı zavodları.

17 noyabr 2004-cü ildə Gürcüstanın Çorçana kəndində BTC boru kəmərinə xidmət göstərən radioötürücü stansiya partladıldı. Bu terror aktı BTC boru kəmərinə təşkil olunmuş ilk hücum idi.

2008-ci ilin avqustun 5-də Türkiyənin Ərzincan şəhərinin ərazisində BTC neft boru kəmərinin 30 saylı nasosunun partladılmasından sonra məsuliyyəti PKK terror təşkilatı öz üzərinə götürdü (Şəkil 7.2.2).




**Şəkil 7.2.2. 5 avqust 2008-ci il Türkiyənin ərazisində partlayış**

BTC-də baş vermiş bu partlamadan sonra, ancaq avqustun 25-də neft kəməri bərpa edilə bilmişdir. Bu terror aktının nəticəsində 30000 bareldən çox neft ətrafa dağılmış, Türkiyə günlük 500000 dollar (21 gün ərzində 11 mln. dollar), British Petroleum (BP) 5 mln. dollar (21 gün ərzində 105 mln. dollar), Azərbaycan isə ümumi 1 milyard dollardan çox ixracat zərərinə uğramışdır (Şəkil 7.2.3).




**Şəkil 7.2.3. Türkiyə (1), British Petrolium (BP) (2) və Azərbaycanın (3) ixracat zərərinin miqdarı**

BTC-də baş vermiş terror aktından bir neçə gün sonra Gürcüstanla Rusiya arasında Cənubi Osetiya uğrunda şiddətli toqquşmanın baş verməsi bu hadisə haqqında spekulyasiyaları artırır.

2008-ci ilin avqustunda Gürcüstanda baş verən beşgünlük müharibə göstərdi ki, tranzit ölkələrin hər hansı birində baş verən böhran çox ciddi regional, hətta qlobal risklərlə nəticələnir. Bu da öz növbəsində, tranzit və enerji mənbəyi olan ölkələrin qlobal enerji təhlükəsizliyi üçün vacibliyini şərtləndirir. 2008-ci ilin avqust müharibəsində Rusiya Gürcüstanın ərazisindən keçən BTC boru kəmərini partlatmasa da, neft daşımalarında istifadə olunan bəzi dəmir yollarını və qatarları sıradan çıxartmışdır. Türkiyə ərazisində BTC-nin partladılması və Gürcüstan ərazisində dəmir yollarında təxribat Azərbaycanın bəzi neft məhsullarının Rusiya marşrutu ilə ötürülməsini zəruri etmişdir. Gürcüstan–Rusiya münaqişəsi zamanı rəsmi Tiflisin Baş Naziri Nika Gilauri bildirmişdir ki, "*Rusiyanın Rustavi bölgəsini bombalamasının məqsədi BTC boru xəttini partladılması olmuşdur*". BTC-nin Türkiyə ərazisində partladılmasından sonra rus politoloqu A.Duqin türk mətbuatına verdiyi müsahibəsində

*“BTC artıq ölmüş layihədir. Dünya və region ölkələri gördülər ki, enerji marşrutlarının təhlükəsizliyini təmin edə biləcək tərəf NATO deyil, ancaq Rusiyadır”* demişdir.

12 avqust 2008-ci ildə Gürcüstan Rusiya qarşıdurmasında Bakı-Supsa boru kəməri (27-ci km-də) hərbi taktiki “İskəndər” raketlərindən istifadə olunaraq partladıldı. Bakı-Supsa boru kəməri öz fəaliyyətini müvəqqəti dayandırmaq məcburiyyətində qaldı. Gürcüstan–Rusiya münaqişəsi göstərdi ki, enerji infrastrukturu istənilən qarşıdurmada hədəfə çevrilə bilər. Qeyd etməliyik ki, Azərbaycanın Qərbə uzanan bütün layihələrinin keçdiyi (Gürcüstan və Türkiyə) ərazilərdə istənilən hücum və təxribatlar Azərbaycan üçün təsirsiz qalmayacaqdır.

Bunlarla yanaşı, nəzərə alınmalıdır ki, Azərbaycanın neft və qaz kəmərlərinin əksəriyyəti (BTC, BTƏ, Bakı-Supsa, TANAP, TAP) Gürcüstanın erməni əhalisinin kompakt yaşadığı ərazilərdən keçir. 23 iyul 2019-cu ildə BTQ dəmiryolunun açılışı günü Axalkalakidən keçən hissəsində yerli ermənilər tərəfindən tətil edilərək yolun bağlanması nəticəsində bütün daşımalar dayandırılmışdır. Axalkalaki ermənilərinin təxribatı bu bölgənin nə qədər riskli olduğunu bir daha əyani göstərmişdir (Şəkil 7.2.4).




**Şəkil 7.2.4. BTC, BTƏ, Bakı–Supsa, TANAP və TAP neft borularının və BTQ kimi dəmir yolunun keçdiyi marşrutların (ölkələrin) təhlükə**

**riskinin expert qiymətləndirilməsi: 1. Azərbaycanın ərazisi, 2. Gürcüstanın ərazisi, 3. Gürcüstanın Axalkalaki bölgəsi, 4. Türkiyənin ərazisi.**

PKK terrorçuları 2012-ci il oktyabrın 4-də gecə vaxtı Türkiyənin Qars əyalətinin Sarıkamış kəndi yaxınlığında Bakı–Tbilisi–Ərzurum qaz kəmərində partlayış törətmişlər. Nəticədə, Azərbaycandan qaz ixracı tamamilə dayandırılmışdır. 2015-ci il avqustun 4-də və 25-də "BTƏ" qaz boru kəmərinin Türkiyənin Qars bölgəsinin Sarıkamış kəndindən keçən hissəsində iki dəfə PKK-nın terror hücumunun baş tutması nəticəsində təbii qazın ötürülməsi yenə dayandırılmış və ancaq bir neçə gün sonra təbii qazın ötürülməsi bərpa edilə bilmişdir. BTƏ boru kəmərinin biri Azərbaycanda, 3-ü Gürcüstanda olmaqla 4 qaz təhvili stansiyasına malikdir ki, bu kritik obyektlərin hər biri xüsusi mühafizə tələb edir.

Bildirmək lazımdır ki, 2015-ci ilin iyun ayından Türkiyə ilə PKK arasında müvəqqəti atəşkəs anlaşması pozulmuş və tərəflər arasında şiddətli döyüşlər başlamışdır. 2019-cu ilin oktyabr ayından Türkiyə Suriya ərazisində YPG (PKK-nın Suriya qolu) tərəfdarlarına qarşı hərbi əməliyyatlara başlaması ilə tərəflər arasında hücumlar yeni müstəviyə keçmişdir. Əgər Türkiyə öz ərazisində PKK terrorçularının boru kəmərlərinə hücumlarının qarşısını ala bilməsə, ciddi maliyyə itkiləri ilə qarşılaşan transmilli neft şirkətləri alternativ tranzit yolları axtara bilər və ya PKK ilə kompromisə gedə bilərlər.

Geostrateji mövqeyinə görə Xəzər hövzəsi müxtəlif dövlətlərin maraqlarının toqquşduğu geopolitik regionda yerləşmişdir. Xəzər regionunun dünya enerji məkanındakı rolu və yeri artdıqca regionun ənənəvi dövlətləri olan Rusiya və İranla yanaşı, ABŞ və Avropa ölkələri arasında geosiyasi və geoiqtisadi rəqabət məkanına çevrilir. Bu mübarizədə Azərbaycanın mövqeyi neft və təbii qaza ehtiyacı olan bir sıra mühüm, regiondan kənar dövlətlər üçün Xəzər dənizi regionuna yol açır. Rusiyanın enerji mənbələrindən asılı olan Avropa ölkələri öz enerji təhlükəsizliklərini təmin etmək üçün Xəzər

regionuna xüsusi maraq göstərirlər. Regionda Avropa İttifaqının enerji təhlükəsizliyi inteqrasiya və diversifikasiya əsasında qurulmuşdur. Xəzər regionunda dominantlıq edən Rusiya və İran xarici aktorların bölgəyə müdaxilələrinə qarşı maneələr törədirlər. Lakin Xəzər hövzəsindəki enerji ehtiyatlarının istehsalı və ixracında Rusiyanın və İranın bütün cəhdlərinə baxmayaraq, rəsmi Moskva və Tehran Qərblə mübarizədə geoiqtisadi və geosiyasi maraqlarını sonadək qoruya bilmədi. Rusiyanın bütün müqavimətlərinə baxmayaraq, Azərbaycanda hasil edilən karbohidrogen ehtiyatlarının əsas hissəsi Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz və TANAP qaz kəmərləri vasitəsilə, Rusiya və İrandan yan keçməklə dünya bazarlarına ixrac olunur. Bu boru kəmərləri iştirakçı ölkələrə böyük ticari mənfəət qazandırmaqla yanaşı, müstəqilliklərini də möhkəmləndirmiş oldu və yeni layihələrin də reallaşmasını asanlaşdırdı. İnşası davam edən TAP və Trans-Xəzər qaz boru kəmərləri isə Qərb marşrutunun potensialını əhəmiyyətli dərəcədə artıracaqdır. Azərbaycanın Qərbə istiqamətlənən transregional layihələri digər Xəzər hövzəsi ölkələrinin də (Türkmənistan, Qazaxıstan və Özbəkistan) Rusiya və Çinin monopoliyasından çıxmaqla Qərb istiqamətində enerji mənbələrinin diversifikasiyasına təşviq edir.

Azərbaycan dövlətinin neft-qaz kəmərlərini şaxələndirməsi təkcə ölkənin enerji təhlükəsizliyinə xidmət etmir, eyni zamanda transmilli enerji ixracının daha səmərəli və məqsədyönlü təşkilinə müsbət təsirini göstərir. Hazırda Azərbaycan nefti üç istiqamət üzrə Bakı–Tbilisi–Ceyhan vasitəsilə Aralıq dənizinə və dünya bazarlarına, Bakı-Supsa və Bakı–Novorossiysk xətləri vasitəsilə Qara dəniz limanları və Avropa bazarlarına çıxarılır. Növbəti layihə kimi, Bakı-Supsa xəttinin Odessa–Brodı–Plotsk–Qdansk marşrutu ilə Şərqi

Avropaya qədər uzadılması nəzərdə tutulur ki, bu da yaxın gələcəkdə nəhəng enerji şəbəkə sisteminin formalaşması deməkdir.[53]

Lakin Xəzərin Avropa ölkələri üçün yeni enerji şəbəkəsinin əsası olan boru kəmərlərinin marşrutu dünyanın ən riskli bölgələrindən keçməkdədir. Ermənistan, Gürcüstanın Cavaxetiya və Axalkalaki bölgələrində yaşayan erməni əhalisi və Türkiyə də aktiv fəaliyyət göstərən PKK terror təşkilatı real, Rusiya və İran isə boru kəmərlərinə təhlükəsizliyi üçün potensial təhdid sayılır. Avroatlantik məkanın enerji təhlükəsizliyini təmin edən regionun Azərbaycan kimi istehsalçı və tranzit ölkələrin suverenliyi və ərazi bütövlüyü dəstəklənməli və regionda baş qaldıran separat hərəkatlara qarşı tutarlı təzyiq göstərilməlidir.

Azərbaycan anlayır ki, enerji təhlükəsizliyi sadəcə diversifikasiya siyasəti ilə təmin edilə bilməz. Bu halda enerjinin ötürülməsi prosesində iştirak edən tranzit yollarının sabitliyi və təhlükəsizliyi də çox önəmlidir. Ona görə də tranzit ölkələrdəki siyasi sistemin və vəziyyətin sabitliyi olduqca zəruridir. Bu səbəbdən enerji istehsal və ixrac edən dövlətlər arasında enerji nəqlində istifadə olunan tranzit yollarının da diversifikasiyası vacibdir. Enerji təhlükəsizliyi meyarları sırasına enerji infrastrukturlarının təhlükəsizliyindən savayı boru xətlərinin də təhlükəsizliyi daxildir. 2003-cü ildə tikintisinə başlanılmış Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin uzunluğu 1767 kilometrə bərabərdir. Onun 443 kilometri Azərbaycan, 248 kilometri Gürcüstan, 1076 kilometri isə Türkiyə ərazisindən keçir. Kəmərin illik buraxılış gücü 50 mln. tondur. Uzunluğu 980 kilometr olan Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin 442 kilometri Azərbaycan, 250 kilometri isə Gürcüstan, 288 kilometri isə Türkiyə ərazisindən keçir. Kəmər ildə 20 milyard kubmetr təbii qaz ötürmək gücündədir.

---

[53] Həsənov, Ə. Azərbaycanın enerji təminatı və təhlükəsizliyi siyasəti // Yeni Azərbaycan. – 24 yanvar 2014. – s. 4.

Cənub Qaz Dəhlizi – Cənubi Qafqaz qaz boru kəmərini (Bakı–Tbilisi–Ərzurum) genişləndirmək, həmçinin Türkiyədə TANAP qaz kəmərinin tikintisini və Avropada TAP qaz kəmərini genişləndirilməsi üzrə layihədir. Bu layihə çərçivəsində hasil ediləcək təbii qaz Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibindən keçməklə İtaliyaya qədər 3500 kilometrdən artıq uzanan boru kəmərləri vasitəsilə çatdırılacaq və Cənubi-Şərqi Avropanın qaz təhlükəsizliyini təmin edəcəkdir (Şəkil 7.2.5).[54]




**Şəkil 7.2.5. Cənubi Qafqaz qaz boru kəməri**

Dağlıq Qarabağ münaqişəsi Aİ-yə uzanan (3500 km uzunluğunda) bu boru kəmərləri üçün əsas təhdiddir. Hətta. Cənubi Osetiya uğrunda gedən Rus-Gürcü müharibəsi istər birbaşa, istərsə də dolayısilə Azərbaycana təsir etmiş, onun geoiqtisadi və geosiyasi maraqlarını təhdid etmişdir. Nəzərə alsaq ki, Azərbaycandan Avropaya uzanan bütün neft və qaz boru kəmərləri ilə yanaşı, Bakı–Tbilisi–Qars dəmir yolu (Şəkil 7.2.6) da Gürcüstanın erməni

[54] Cənub Qaz Dəhlizi Azərbaycanın enerji siyasətində yeni mərhələ kimi – Təhlil: [Elektron resurs] / – 21 fevral 2019. URL: https://bit.ly/2VqL0j8

əhalisinin kompakt yaşadığı ərazilərdən keçir, o zaman təhlükənin nə qədər ciddi olduğu anlaşılar.




**Şəkil 7.2.6. Bakı–Tbilisi–Qars dəmir yolu**

Rəsmi statistikalar göstərir ki, kritik obyektlərə yönəlmiş təhdidlər içində enerji sektoru prioritet təşkil edir.

Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin əsas istiqamətlərindən olduğu kimi, enerji amili də XXI əsrdə beynəlxalq münasibətlərin aktorları arasında əlaqələrdə başlıca faktorlardandır. Müasir dövrdə enerji amili dövlətlərarası münasibətlərdə iqtisadi faktordan daha çox siyasi amilə çevrilmişdir. Dövlətin enerji siyasətinin başlıca hədəfi enerji təhlükəsizliyinin təminatıdır ki, bu məsələ bir sıra amillər vasitəsilə müəyyənləşdirilir. Enerji təhlükəsizliyinin əsasını təşkil edən amillər aşağıdakılardır:

– tranzit yollarının təhlükəsizliyi;
– enerji mənbələrinin və bazarının diversifikasiyası;
– mövcud enerji infrastukturlarının uyğunluğudur.

Azərbaycan regionun və xüsusən də Aİ ölkələrinin enerji təhlükəsizliyini təmin etməklə Avropanın enerji arxitekturasının formalaşmasında öz aktiv rolunu oynamaqdadır. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın transregional layihələri üçün əsas təhdiddir. Bu mənada Azərbaycanın neft-qaz

sektoru ermənilərin əsas hədəfinə çevrilmişdir. Son zamanlaradək bir çox Qərb ölkələri düşünürdülər ki, Dağlıq Qarabağ münaqişəsi regional mahiyyətdədir və onlara təsiri yoxdur. Lakin bu yanlış fikirdir: hazırda Rusiyanın inhisarçılığında olan Avropa dövlətlərinin enerji sektorunun təhlükəsizliyi birbaşa olaraq dondurulmuş Dağlıq Qarabağ münaqişəsindən asılıdır. Buna görə də Dağlıq Qarabağ münaqişəsinin həlli, eyni zamanda Aİ ölkələrinin də marağında olmalıdır. Münaqişənin həlli isə ATƏT-in Minsk qrupunun əsas üç üzvünün (ABŞ, Aİ və Rusiya) konfliktin işğalçı-təcavüzkar tərəfi ilə işğala məruz qalan tərəfi arasında yanaşmasında fərq qoymaqla mümkündür.

Neft-qaz boru kəmərləri hər bir ölkənin sənayesinin ildə 365 gün dayanmadan fəaliyyət göstərən əsas arteriyalarıdır. Eyni zamanda, neft-qaz boru kəmərləri ölkənin enerji ehtiyatlarının əsas təminatıdır və dünyanın əksər ölkələrinin iqtisadiyyatını təşkil edir.

Neft və təbii qaz dünya enerji və yanacaq ehtiyaclarını təmin edir. Dünya statistikasına əsasən, neft dünyada ümumi enerji istehsalının 34%-ni, kömür 24%-ni, təbii qaz 21%-ni, nüvə enerjisi 7%-ni, su enerjisi isə 2%-ni təşkil edir. Enerji potensialının yalnız 1%-ni günəş, külək və s. təbii qaynaqlar təşkil edir.

Ərəb baharı və Ukrayna böhranı kimi geopolitik hadisələr Avropanın enerji tədarük təhlükəsizliyinə ciddi risk yaratmışdır. Son illər Avropanın enerji təhlükəsizliyində Gürcüstan və Türkiyənin ərazisindən keçən Azərbaycan boru kəmərlərinin əhəmiyyəti artmaqdadır.

Enerji infrastrukturuna yönəlmiş təhdidlərə qarşı müdafiə olunmaq üçün Azərbaycanın aldığı hava hücumundan müdafiə (HHM) sistemləri bu sahədə potensial rəqiblərə qarşı strateji üstünlüyü təmin etməyə imkan verdi. Son illərdə bu istiqamətdə atılan mühüm addımlara Rusiya istehsalı olan və hazırda dünyada öz sinfinə görə ən güclülərdən sayılan S-300 PMU-2 "Favorit" zenit-raket komplekslərinin, İsrail istehsalı olan “Barak-8” zenit-raket komplekslərinin və “Green Pine” radarlarının alınması da daxildir.

Azərbaycanın hazırda malik olduğu HHM sistemi ölkənin hava məkanını, strateji təyinatlı obyektləri, Xəzərdəki neft-qaz infrastrukturunu qoruyur. Həmçinin ABŞ və NATO ilə tərəfdaşlıq əsasında ölkənin hava məkanının mühafizəsinin gücləndirilməsinə dair bir neçə proqram həyata keçirilmişdir. Bu proqramlara Pentaqonun dəstəyi ilə 2005-ci ildə Azərbaycanın (Xəzər sahilində yerləşən) Xızı və Astara rayonlarında radar stansiyalarının qurulması da daxildir.[55]

Bir çox inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da "kritik infrastruktur" (Kİ) müəyyən edilməli (burada Kİ-nin obyektlərinin siyahısı və tabe olduqları dövlət orqanları əksini tapmalıdır) və onların qorunmasından məsul mərkəzi qurumun formalaşdırılması dövrün tələbidir. Azərbaycanda belə bir qurumun mövcud olmaması Kİ-nin əsas elementi olan KEİ-nin obyekt və subyektləri arasında koordinasiyanın zəif təşkilinə səbəb olur. Çünki sahəvi infrastrukturların hər biri müstəqil olmaqla özlərindən başqa nazirliklərə və s. qurumlara tabedir. Bu isə onların ayrı-ayrılıqda iş rejiminə təsiretmə, təhlükəsizliyin əlaqələndirilmə səlahiyyətinə və mexanizminə malik olmaması ilə bağlıdır. Belə ki, ölkədə mərkəzi idarəçilik və əlaqələndirməni reallaşdıracaq məsuliyyətə, səlahiyyətə və hüquqlara malik təsisatın mövcud olmaması əsas problem olaraq qalır. Adı çəkilən qurum Kİ-yə olan real və potensial təhdidləri, habelə riskli bölgələri müəyyən etməli və bunlar dövlətin Milli Təhlükəsizlik Konsepsiyasında qeyd edilməlidir.

Beləliklə, Ermənistan, Gürcüstan ərazisində (Axalkalaki və Cava-xetiya) yaşayan erməni əhalisi, Türkiyənin şərqində fəaliyyət göstərən separat kürt hərəkatı (PKK) Azərbaycanın KEİ-nə səviy-

---

[55] Azərbaycan prezidentinin yeni yaradılmış xüsusi saytındakı bölümdə ordumuzun gücü: [Elektron resurs] / – 22 avqust 2013. URL:https://mod.gov.az/az/news/azerbaycan-prezidentinin-yeni-yaradilmis-xususi-saytindaki-bolumdeordumuzun-gucu-11714.html

yəsinə görə real təhdid sayılır. Eyni zamanda, Azərbaycanın neft və qaz kəmərlərinin keçdiyi Gürcüstanın Axalkalaki və Cavaxetiya bölgəsi, habelə Türkiyənin şərq əyalətləri riskli bölgələr siyahısına daxildir.

### 7.3. Terror hücumlarının riyazi qiymətləndirilməsi

Enerji infrastrukturunun təhlükəsizliyinə təhdidlərin olmasını müəyyən etmək üçün əvvəlki illərdə baş vermiş terror hücumları haqqında olan məlumatlardan istifadə edərək fərz edək ki, y kəmiyyəti təhdidləri xarakterizə edən kəmiyyət olub, sonlu sayda n $y_1, y_2, \dots, y_n$ qiymətlərini ala bilir. Onda bunun həmişə sonlu riyazi gözləməsi vardır:

$$M(y) = \sum_{i=1}^{n} y_i \cdot p_i$$

Təsadüfi y kəmiyyətinin dispersiyası aşağıdakı düsturla hesablanır:

$$D = M(y - M(y))^2$$

Xüsusi halda y diskret təsadüfi kəmiyyət olduqda onun dispersiyası:

$$D = M(y - M(y))^2 = \sum_{i=1}^{N} (y_i - M(y))^2 \cdot p_i$$

Dispersiyanın hesabı kvadrat kökünə orta kvadratik meyl deyilir.

Yuxarıdakı nəzəriyyədən istifadə edərək yaxın gələcəkdə də terror aktının olması və ya olmamasını öyrənək. 2006–2018-ci illər ərzində 2008-ci ildə 2, 2012-ci ildə 1, 2015-ci ildə 2 [*] və 2018-ci ildə isə 1 dəfə terror aktının olması məlumatı vardır [*]. Gələcəkdə enerji infrastrukturuna terror hücumlarının olması və bunun hansı ehtimalla baş verməsini My və p ilə işarə edirik. Bu hadisənin başvermə ehtimalı məlum olmadığına görə, My -in qiymətini hansı səhvlə

almasını bilərək gözlənilən terror hücumlarının olmasını qiymətləndirə bilərik. y illər üzrə olmuş terror aktlarının sayını göstərən vektordur. σ isə bu qiymətlərdən mümkün kənara çıxmaları göstərən vektordur. Beləliklə, gələcəkdə mümkün terror hücumlarının olmasını qiymətləndirmək olar. Bu hesablama Mathcad proqramında aşağıdakı kimi yerinə yetirilir (Şəkil 7.4.1, 7.4.2):

$n := 13 \qquad i := 1..n$

$$y := \begin{pmatrix} 0 \\ 0 \\ 2 \\ 0 \\ 0 \\ 0 \\ 1 \\ 0 \\ 0 \\ 2 \\ 0 \\ 0 \\ 1 \end{pmatrix} \qquad Years := \begin{pmatrix} 2006 \\ 2007 \\ 2008 \\ 2009 \\ 2010 \\ 2011 \\ 2012 \\ 2013 \\ 2014 \\ 2015 \\ 2016 \\ 2017 \\ 2018 \end{pmatrix} \qquad \sigma := \begin{pmatrix} 0.0005 \\ 0.0005 \\ 0.00015 \\ 0.0005 \\ 0.0005 \\ 0.0005 \\ 0.00030 \\ 0.0005 \\ 0.0005 \\ 0.00015 \\ 0.0005 \\ 0.0005 \\ 0.00030 \end{pmatrix}$$

**Şəkil 7.4.1. İllərə görə terror hücumlarının sayı**

$$p_i := \frac{\dfrac{1}{(\sigma_i)^2}}{\displaystyle\sum_{i=1}^{n} \frac{1}{(\sigma_i)^2}} \qquad \sum_{i=1}^{n} p_i = 1$$

$$My := \sum_{i=1}^{n} (y_i \cdot p_i) \qquad My = 1.359517$$

$$Dy := \sum_{i=1}^{n} \left[(y_i - My)^2 \cdot p_i\right] \qquad Dy = 0.71969$$

**Şəkil 7.4.2. Terror hücumlarının hesablanması**

Burada, $p_i$ mümkün terror hücumlarının $y_i$ qiymətini alması ehtimalıdır. y isə gözlənilən terror hücumlarının sayıdır. Dy isə My-dən kənara çıxmaları göstərir.

Alınmış My $\approx$ 1 nəticəsindən bu qənaətə gəlmək olar ki, terror hücumlarının yaxın illərdə də olması ehtimalı mümkündür.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

**Azərbaycan dilində:**


1. Abbasbəyli, A.N. Dünya siyasəti. (XX əsrin yarısı-XXI əsrin əvvəlləri). Dərslik / A.N.Abbasbəyli. – Bakı: “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2011. – 584 s.
2. Abdullayev, F.N. Miqrasiya və milli təhlükəsizlik / F.N.Abdullayev. – Bakı: Elm, – 2011. – 284 s.
3. Azərbaycan Respublikasının Dəniz Təhlükəsizliyi Strategiyası, – Bakı: 11 sentyabr 2013.
4. Azərbaycan Respublikasının Hərbi doktrinası, – Bakı: Hüquq ədəbiyyatı, – 2010. – 36 s.
5. Azərbaycan Respublikasının Konstitusiyası, – Bakı: Qanun, – 2008. – 52 s.
6. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası, – Bakı: VES Consultancy LLC, – 2007. – 25 s.
7. Davutoğlu, A. Stratejik Derinlik. Türkiye`nin uluslararası konumu / A.Davutoğlu. – Ankara: “Küre Yayınları”, – 2009. – 584 s.
8. Dövlət hakimiyyəti və milli təhlükəsizliyin təminat sistemi: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası, – 2011. – 10 s. URL: http://files. preslib.az/projects/republic/az/azr2_2.pdf.
9. Eyvazov, C. Strateji tədqiqatlara giriş / C.Eyvazov, Dərs vəsaiti. – Bakı: “Elm və təhsil” nəşriyyatı, – 2017. – 200 s.
10. Əliyev, H. Müstəqilliyimiz əbədidir. 8-ci kitab / H.Əliyev. – Bakı: Azərnəşr, – 1998. – 488 s.
11. Əliyev, H. Müstəqilliyimiz əbədidir. 26-cı kitab / H.Əliyev. – Bakı: Azərnəşr, – 2009. – 512 s.
12. Əkbər, S. Dövlət siyasətinin əsasları / S.Əkbər. – Bakı: Qanun nəşriyyatı, – 2017. – 608 s.

13. Həsənalıyev, Z.M. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasları / Z.M.Həsənalıyev. – Bakı: “NURLAR” Nəşriyyat–Poliqrafiya Mərkəzi, – 2016. – 176 s.

14. Həsənov, Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti / Ə.M.Həsənov. – Bakı: Letterpress nəşriyyat evi, – 2011. – 440 s.

15. Həsənov, Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik / Ə.M.Həsənov. – Bakı: “Zərdabi LTD” MMC, – 2015. – 1056 s.

16. Həsənov, Ə.M. Geosiyasət. Dərslik / Ə.M.Həsənov. – Bakı, 2010. – 604 s.

17. Həsənov, Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.M.Həsənov. – Bakı: Azərbaycan nəşriyyatı, – 2005. – 631 s.

18. Həsənov, Ə.M. Xəzər-Qara Dəniz Hövzəsi və Cənubi Qafqazın Geoiqtisadiyyatı: Azərbaycanın Enerji Siyasəti / Ə.M.Həsənov – Bakı: “Zərdabi LTD”, – 2016. – 296 s .

19. Həşimov, D.S. Siyasi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi kimi (Azərbaycan Respublikasının materialları əsasında): / Siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya / – Bakı, 2010. – 102 s.

20. Xəlilov, C. Milli təhlükəsizlik strategiyası. Dərslik / C.Xəlilov – Bakı: “ADMİU”–nun mətbəəsi, – 2016. – 456 s.

21. İskəndərov, X., Məmmədzadə, V. Hibrid müharibələr qlobal təhlükəsizliyə əsas təhdid kimi // – Bakı: Milli təhlükəsizlik və hərbi elmlər, – 2019. № 1 (5), – s. 34-39.

22. Qasımov, C. Azərbaycan təhlükəsizlik orqanları 100 ildə: tarix və müasirlik / C.Qasımov, X.Bağırov. – Bakı: DTX-nin nəşriyyatı, – 2019. – 728 s.

23. Qasımov, C. Milli təhlükəsizliyin əsasları / C.Qasımov, N.Nağıyev. – Bakı: MTN Maddi-Texniki Təminat Baş İdarəsinin NPM, – 2015. – 407 s.

24. Qasımov, M. Beynəlxalq münasibətlər tarixi. XX əsr. II hissə. 1946-1999-cu illər / M.Qasımov, M.Abdullayev. – Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, – 1999. – 148 s.

25. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu: [Elekrton resurs] / – 29 iyun 2004. URL: http://www.e-qanun.az/framework/5455

26. Nəsirov, E. Azərbaycan-ABŞ münasibətləri: (1991-1997-ci illər) / E. Nəsirov. – Bakı: Qanun, – 1998. – 136 s.

27. Nəsibov, E.M. ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası / E.M. Nəsibov. – Bakı: Çıraq nəşriyyatı, – 2006. – 314 s.

28. Məmmədzadə, V., Həsənov A., İskəndərov X. Azərbaycanın boru kəmərlərinin təhlükəsizliyinə təhdidlərin qiymətləndirilməsi // "Hərb elmi və təhlükəsizlik məsələləri", – Bakı: Hərbi nəşriyyat, – 15-16 noyabr, – 2019, – s. 41-43.

29. Məmmədzadə, V., İskəndərov, X. Azərbaycanın enerji siyasəti və transregional layihələrinin təhlükəsizliyi // – Bakı: Milli təhlükəsizlik və hərbi elmlər, – 2019. № 3 (5), – s. 82-90.

30. Məmmədzadə, V., İskəndərov, X. Xəzər hövzəsində geostrateji güclərin maraqları və Azərbaycanın təhlükəsizlik yanaşması // – Bakı: Milli təhlükəsizlik və hərbi elmlər, – 2020. № 1 (6), – s. 61-72.

31. Piriyev, A.M. Siyasi strategiya və milli təhlükəsizlik: monoqrafiya / A.M.Piriyev. – Bakı: Bakı Dövlət Universiteti Nəşriyyatı, – 2005. – 544 s.

32. Süleymanov, M.S. Ali baş komandan institutu / M.S.Süleymanov. – Bakı: Elm və təhsil, – 2017. – 504 s.

**Rus dilində:**

33. Алиев, И. Каспийская нефть Азербайджана / И.Алиев. – Москва: Известия, – 2003. – 316 с.

34. Бжезинский, З. Выбор: мировое господство или глобальное лидерство / З.Бжезинский. – Москва: Международные отношения, – 2005. – 288 с.

35. Гаджиев, К.С. Геополитика Кавказа / К.С.Гаджиев. – Москва: Международные отношения, – 2001. – 464 с.

36. Гаджиев, К.С. Кавказский узел в геополитических приоритетах России / К.С.Гаджиев. – Москва: Логос, – 2010. – 532 с.

37. Гулузаде. В. Среди врагов и друзей / В.Гулузаде. – Баку: ОКА Офсет, – 2002. – 231 с.

38. Гусейнов, В. Каспийская нефть: Экономика и геополитика / В.Гусейнов. – М.: ОЛМА-пресс, – 2002. – 379 с.

39. Дугин, А. Основы Геополитики. Книга 1 / А.Дугин. – Москва: Арктогея, – 2000. – 202 с.

40. Эйвазов, Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики / Дж. Эйвазов. – Баку: «Нурлан», – 2004. – 357 с.

41. Эйвазов, Дж. Державы и регионы: системный анализ безопасности постсоветского пространства / Дж.Эйвазов. – Стокгольм: CA&CC Press, – 2015. – 320 с.

42. Искандаров, Х., Маммадзада, В. Движение неприсоединения, как приоритет внешней политики Азербайджана // – Bakı: Milli təhlükəsizlik və hərbi elmlər, – 2019. №2 (5), – s. 66-73.

43. Клаузевиц К. О войне / К.Клаузевиц. Мидгард: «Эксмо», – 2007. – 864 с.

44. Конопляник, А.А. Каспийская нефть на Евразийском перекрестке / А.А.Конопляник. – Москва: ИГИРГИ, – 1998. – 110 с.

45. Кулагин, В.М. Международная безопасность: учебное пособие для студентов вузов / В.М.Кулагин. – М.: Аспект Пресс, – 2007. – 318 с.

46. Логунов, А.Б. Региональная и национальная безопасность: Учебное пособие / А.Б.Логунов. – М.: Вузовский учебник, – 2009. – 432 с.

47. Мамедзаде, В.М. Формирование и развитие демократических традиций в Азербайджане в XX веке / В.М.Мамедзаде. – Баку: Unicopy, – 2019. – 188 с.

48. Макиавелли, Н. О военном искусстве / Н.Макиавелли. – Москва: «Азбука», – 2009. – 256 с.

49. Прохожева, А.А. Общая теория национальной безопасности: Учебник / Под общ. ред. А.А.Прохожева. – М.: Из-во РАГС, – 2005. – 344 с.

50. Севдималиев, Р.М. Международный терроризм и политико-правовые проблемы борьбы с ним / Р.М.Севдималиев. – Баку: İNDİGO, – 2011. – 504 с.

51. Специальный бюллетень CTN. Защита важнейших объектов энергетической инфраструктуры от террористических актов: [Электронный ресурс] / – январь 2010. URL: https://bit.ly/2PGzGeV

52. Хантингтон, С.Ф. Столкновение цивилизаций / С.Ф. Хантингтон. – М: Издательство АСТ, – 2003. – 603 с.

53. Чернявский, С.И. Десять лет истории Азербайджана: 2003-2013 годы: монография / С.И.Чернявский. – М: ФЛИНТА, – 2013. – 400 с.

**İngilis dilində:**

54. Brzezinski, Z. The grand chessboard, American primacy and its geostrategic imperatives / Z.Brzezinski. – N.Y.: Basic Books, – 1997. – 240 p.

55. Chufrin, G. The security of the Caspian Sea Region / G.Chufrin. – London: Oxford University Press, – 2001, – 375 p.

56. Cornell, Svante. Small Nations and Great Powers. A Study of Ethnopolitical Conflict in the Caucasus / S.Cornell. – Surrey: Curzon Press, – 2001. – 490 p.

57. De Waal, T. Black garden: Armenia and Azerbaijan through Peace and War / T.De Waal. – New York: New York University Press, – 2003. – 353 p.

58. De Waal, T. The Caucasus: an introduction / T.De Waal. – London: Oxford University Press, – 2010, – 259 p.

59. Dupont, A. New dimensions of security in the new security agenda in the Asia-Pacific region / A.Dupont. – London: Macmillan press LTD, – 1997. – 182 p.

60. Hoffman, G.Frank. Conflict in the 21-th Century: the Rise of Hybrid Wars / H.G.Frank. – Arlington,Virginia: Potomac Institute for Policy Studies, – December. – 2007. – 72 p.

61. Huntington, P.Samuel. The Clash of Civilizations and the Remaking of World Order / S.Huntington – New York: Simon & Shuster, – 1996. – 246 p.

62. Iskandarov, Kh., Mammadzada, V. Sadiyev, S. Non-alliance policy as a principle of shaping the national security with a focus on the case of Azerbaijan // – Brasov: Journal of Defense Resources Management (JoDRM), – 2019. Vol. 10, Issue 2 (19). – p. 62-72.

63. Iskandarov, Kh., Mammadzada, V., Sadiyev, S. Non-alignment policy as a principle of shaping the national security of Azerbaijan: [Electronic resource] // The European geopolitical forum. –14 February 2019 http://gpf-europe.com/upload/non-alliance_policy_sadisadyiev_140219.pdf.

64. Iskandarov, Kh. The South Caucasus-NATO cooperation in the context of regional geopolitical proccesses / Kh.Iskandarov. – Riga: LAP Lambert Academic Publishing, – 2019. – 152 p.

65. Isgandarova, N. The search for security in the South Caucasus: NATO’s role in the Baku-Tbilisi-Ceyhan pipeline / N.Isgandarova. – Canada, – 2008. – 117 p.

66. Mammadzada, V.M. The caspian strategy of USA and the development of the western route // Теоретичні та прикладні аспекти розвитку науки (частина I), матеріали V Міжнародної науково-практичної конференції, – Київ: МЦНіД, – 30-31 січня, – 2020, – с. 62-63.

67. National Security and Intelligence Agencies Handbook, Vol. 1. Strategic Information and Contacts, – USA: International Business Publications, – 2019. – 333 p.

68. Nation R.C. Russia, the United States, and the Caucasus / C. Nation. – Washington: Strategic Studies Institute, – 2007. – 40 p.

69. Nye, J.S. Soft Power: The Means to Success in World Politics / J.S. Nye. – New York: Public Affairs, – 2005. –130 p.

70. Starr, F. The Baku-Tbilisi-Ceyhan Pipeline: Oil Window to the West / F.Starr, C.Svante. – Central Asia, Caucasus Institute and Silk Road Studies Program, – 2005. – 152 p.

71. Strakes, E.J. Azerbaijan and the Non-Aligned Movement: Institutionalizing the “Balanced Foreign Policy” Doctrine // Istituto Affari Internazionali (IAI Working Papers-15), Rome, – May 11, – 2015. – 24 p.

# QEYD ÜÇÜN

Çapa imzalanıb 10.02.2020. Formatı $60\times90^{1}/_{16}$. Çap vərəqi: 70.

Dərs vəsaiti “UNİCOPY” Nəşriyyatda çap edilmişdir.